RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 35 (10055) 24 fevral 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

2026-cı ildə iyirminci əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri, Xalq şairi,tanınmış dramaturq və ictimai xadim, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilovun) 120 illiyi tamam olur.

Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Keçmişə ehtiram və gələcəyə inam aşılayan Vurğun dramaturgiyası Azərbaycanın teatr sənəti tarixində xüsusi səhifə təşkil edir. Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərmişdir və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan görkəmli şair Səməd Vurğunun 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və aidiyyəti qurumlarla birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Səməd Vurğunun 120 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2026-cı il*

## İKİƏSRLİK CİNAYƏTLƏRİN ƏDALƏTLİ YEKUN CƏZASI

Ermənilər də bu gün ideallaşdırdıqları faşist qardaşlarından fərqlənmirlər və hər iki Qarabağ müharibəsində bunu dəfələrlə əyani şəkildə göstərdilər:

* İşğal etdikləri Azərbaycana məxsus ərazilərdə etnik təmizləmə apardılar;
* Ələ keçirdikləri silahlı, yaxud mülki insanlara eyni münasibət göstərdilər, işgəncələrə məruz qoydular;
* İnsanları döyə-döyə öldürdülər;
* Ac saxlayaraq, yaralılara heç bir yardım göstərmədən ölümlərinə səbəb oldular;
* Erməni qəbirləri üzərində əsir azərbaycanlıları başlarını kəsərək qətlə yetirdilər;
* Sağlam adamları, hətta uşaqları belə öldürərək daxili orqanlarını transplantasiya etməklə yeni alver növü yaratdılar;
* Mülki girovları geri qaytarmaqdan ötrü sahibindən böyük məbləğdə pul alınmasını adi qaydaya çevirdilər;
* Həm dirilərin, həm də ölmüş insanların kəlbətinlə qızıl dişlərini çıxarıb mənimsədilər;
* Qəbiristanlıqlarımızı dağıtdılar, mərmər başdaşlarını söküb üstündəki yazıları və şəkilləri silərək öz qəbirlərinə qoydular, yaxud Ermənistana aparıb sataraq pul qazandılar;
* Qəbirlərin dəmir cağlarını oğurlayaraq İran bazarlarında satdılar;
* Evlərimizi sökərək əldə olunan dəmir, daş, taxta, şüşə materiallarını İrana apararaq dəyər-dəyməzinə satdılar;
* Qoz meşələrimizi ucdantutma qıraraq parket hazırlamaqla Avropa bazarlarına çıxardılar;
* Meyvə bağlarımızı qırdılar, çaylarımızı zəhərlədilər;
* Faydalı qazıntı yataqlarımızı istismar etdilər, xarici şirkətlərə icarəyə verdilər, qiymətli metalları satıb pula çevirdilər.
* Məscidlərimizi dağıtdılar, orada mal-qara, donuz saxlayaraq dinimizi təhqir etdilər;
* Mədəni, tarixi abidələrimizi, müqəddəs pir və ocaqları yerlə yeksan etdilər;
* Şəhər və qəsəbələrin küçələrini qazaraq su və kanalizasiya borularını çıxardılar, dəmir materialları satsalar da, xəndəkləri açıq qoydular;
* Şüurlu şəkildə urbisid, genosid, ekosid törətdilər.

❖ ❖ ❖

Bu gün ermənilər faşizmə pərəstiş yolunu tutublar. Ermənistan rəhbərliyi İkinci Dünya müharibəsində Hitler ordusu tərəfində vuruşaraq ruslara, habelə o vaxt sovet ordusunda döyüşən bütün millətlərə, hətta erməniəsilli əsgərlərə belə zərbələr vurub tələfat yaşadan Njdeyə İrəvanda altımetrlik abidə ucaldıb.

Erməni xalqı faşist abidəsini daim ziyarət edərək ona ehtiram göstərir, əməllərini təkrar edir, bizə qarşı qisasçılıq hissi bəsləyir.

XX əsrin birinci yarısından başlayaraq, Avropanın və bütövlükdə bəşəriyyətin tarixində dərin izlər buraxan faşist hərəkatı və ideologiyası insanların yaddaşında qəddarlıq, zorakılıq, irqçilik və totalitar hakimiyyətin simvolu kimi qalmışdır.

Faşistlər tarixin səhifələrinə bir qaranlıq, qanlı, insanlıq əleyhinə cinayətlər toplusu kimi yazılıb.

Onların yaratdığı rejimlər milyonlarla insanın faciəsinə, yüzlərlə yaşayış məntəqəsinin məhvinə səbəb olub.

Faşist ideologiyası avtoritarizm, totalitarizm, ultramillətçilik və militarizm elementləri üzərində qurulub.

Faşistlər qeyri-almanları sevmirdilər.

Erməni faşistləri də eyni yolla gedərək monoetnik Ermənistan yaratdılar, Azərbaycan xalqına nifrətlərini hər iki Qarabağ müharibəsində və otuzillik işğal dövründə müxtəlif üsul və vasitələrlə, əyani şəkildə nümayiş etdirdilər.

6

## Milli mücadilə, yaxud milli xəyanət

Sağlam dəyərlərə söykənməyən, yalnız şəxsi maraqlara və hakimiyyət ehtiraslarına istinad edən müxalifətin deqradasiyası ayrı-ayrı ölkələrin təcrübəsində dəfələrlə sübuta yetirilib. Bunun səbəbi təkcə hansısa müxalifət qrupun dayaqlarını itirməsi deyil, daha çox onun milli maraqlar yolundan saparaq milli xəyanət bataqlığına düşməsi, kənar maraqların alətinə çevrilməsi hesab olunur. Yaxın və ən yaxın tarix belə faktlarla zəngin olub, indiki nəsillərə xəyanət yolu tutmuş müxalifətin ölkəyə və xalqa vurduğu yaralara dair ibrətamiz materiallar verir. Milli xəyanətin qurbanı olan dövlətlərdə vurulan ziyanın aradan qaldırılmasına nəinki illər, hətta on illərin sərf olunduğu da yaxşı məlumdur. Maraqlı xarici dairələrin maliyyə yardımı ilə dövlət çevrilişinə nail olan bolşevik inqilabının Rusiyaya, onun iqtisadiyyatına, insani potensialına vurduğu inanılmaz yaraları bu ölkənin rəsmi dairələri və tədqiqatçıları indi açıq şəkildə etiraf edirlər. O cümlədən bolşeviklərin lideri Vladimir Leninin Almaniyanın maliyyə dəstəyi ilə inqilabi fəaliyyətlə məşğul olması da artıq təsdiqini tapmış tarixi faktdır. XIX əsrin əvvəllərində dünyanın ən qüdrətli dövlətlərindən sayılan Rusiya imperiyasının qanlı vətəndaş müharibəsini yaşamağa məhkum edilməsi, iqtisadiyyatının, demək olar ki, bütünlüklə çökməsi məhz bolşevik inqilabının dağıdıcı yekunları hesab olunur. Keçmiş Rusiya imperiyasının varisi olan SSRİ bu ölkənin 1913-cü ildəki iqtisadi göstəricilərini düz 70 ildən sonra, 1980-ci illərdə bərpa edə bildi. Vətəndaş müharibəsi, aclıq, qırmızı terror nəticəsində 8 milyondan 13 milyonadək əhali qətl edildi, aclıqdan öldü və ya ölkəni tərk etməyə məcbur oldu. Dünyanın ən böyük işgəncə və ölüm düşərgəsi də ilk dəfə bu ölkədə yaradıldı.

1936-cı ildə İspaniyada Fransisko Frankonun rəhbərliyi altında başlayan üsyan bu ölkədə qanlı vətəndaş müharibəsinin əsasını qoydu. Hitlerin Almaniyadan göndərdiyi 150 min, Mussolininin isə İtaliyadan göndərdiyi 30 min hərbçinin dəstəyi ilə qurulan Franko diktaturası 450 min ispan vətəndaşının qətli ilə nəticələndi. Bu isə İspaniyanın ozamankı əhalisinin təxminən 2 faizi demək idi. Faktiki olaraq İspaniyada Franko diktaturası ölkənin hər 50 nəfərindən birinin qətlinə hökm vermişdi.

Azərbaycanın müasir tarixi də müxalifətin müəyyən hissəsinin bu tipli xəyanətlərindən xali deyil.

5

## Qlobal sülh gündəliyində Azərbaycanın artan rolu və nüfuzu

Vaşinqtonda keçirilən tədbir zamanı Prezident Donald Trampın bir neçə dəfə Azərbaycan Prezidentinə birbaşa xitab etməsi də bir tərəfdən, cənab İlham Əliyevin qlobal nüfuzunun, digər tərəfdən, Azərbaycan liderinin müəllifi olduğu sülh gündəliyinə verilən ali dəyərin bariz göstəricisi idi. Bu fakt Azərbaycanın beynəlxalq dialoq və təhlükəsizlik məsələlərində konstruktiv rolunun necə rəğbətlə qarşılandığını, ən yüksək səviyyədə qəbul edildiyini göstərir.

Tədbirin ən mühüm məqamlarından biri də Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanın görüşərək əl sıxmasının ABŞ Prezidenti Tramp tərəfindən xüsusi vurğulanması oldu. Bu epizod qlobal sülhün və təhlükəsizliyin təminatında Azərbaycanın oynadığı rolun, eləcə də regionda dialoq və sabitliyin təşviqində dövlətimizin başçısının siyasi nüfuzunun, cənab İlham Əliyevə olan qlobal inamın daha bir təsdiqidir.

8

## Bakı növbəti beynəlxalq enerji tədbirinə hazırlaşır



Prezident İlham Əliyev tədbirin miqyasının da genişləndiyini vurğulayaraq demişdir: "Vaxt keçdikcə prosesdə iştirak edən ölkələrin və şirkətlərin sayı artır, onlar ortaq məqsəd ətrafında birləşir. Birinci məqsəd əməkdaşlığın gücləndirilməsidir, çünki əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri mümkün olmazdı. İkinci məqsəd özləri, öz qonşuları və tərəfdaşları üçün enerji təhlükəsizliyini təmin etməkdir. Hesab edirəm ki, bizi birləşdirən tərəfdaşlığın və əməkdaşlığın çox müsbət əzmi məsuliyyətimizin aydın təzahürüdür. Bu, istehsalçıların, tranzit ölkələrin və istehlakçıların məsuliyyətidir. Əlbəttə ki, bu prosesin üç əsas iştirakçısı arasında maraqların tarazlığı beynəlxalq maliyyə təsisatlarının dəstəyi ilə bizim hekayətimizi və ya hekayətlərimizi uğura çevirdi. Ölkələr, onların hökumətləri, investorlar, şirkətlər, aparıcı maliyyə təsisatları bizim komandamızdır və bu komanda genişlənir".

9

## Milli dirçəlişdən mütləq Zəfərə



Xalqımızın 1988-ci ildən başlayan mübarizə yolu Vətən müharibəsi və Qarabağda keçirilən antiterror tədbirləri ilə öz zəfər mərhələsinə qədəm qoydu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu cəmi 44 gün ərzində "keçilməz" hesab olunan düşmən sədlərini darmadağın etdi. Torpaqlarımızın 30 illik işğalına son qoyuldu. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyat qaynayır, el-obasından didərgin düşən insanlarımız sevinclə yurdlarına dönürlər.

2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri ilə separatizmin kökü birdəfəlik kəsildi. Sərsəm "miatsum" xülyası tarixin zibilliyinə atıldı.

Qalib lider İlham Əliyev tərəfindən Xankəndidə Azərbaycan bayrağının qaldırılması, sadəcə, hərbi uğur deyil, Azərbaycan Konstitusiyasının bütün ölkə ərazisində mütləq hakimliyinin təmin olunması, Azərbaycanın bütövləşməsi idi.

7

# Birgə icra edilən layihələr region üçün geniş imkanlar açacaq

## Prezident İlham Əliyev İranın yol və şəhərsalma nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Fərzanə Sadiqin ötən il ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü məmnunluqla xatırlandı.

Dövlətimizin başçısı bir müddət əvvəl İran Prezidenti Məsud Pezeşkianla telefon danışığını xatırladaraq, həmin telefon söhbəti əsnasında dost ölkələr kimi Azərbaycanla İran arasında qarşılıqlı əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu dedi.

İkitərəfli gündəliyin genişlənməsini məmnunluqla qeyd edən Prezident İlham Əliyev Azərbaycanla İranın birgə icra etdiyi layihələrin həm ölkələrimiz, həm də region üçün geniş imkanlar açacağını vurğuladı. Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində bütün bu məsələlərin müzakirə ediləcəyinə və səfərin yaxşı nəticələrinin olacağına ümidvarlığını bildirdi.

Azərbaycana yenidən gəlməsindən məmnunluğunu ifadə edən Fərzanə Sadiq qəbula görə dövlətimizin başçısına minnətdarlıq etdi.

O, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı və vurğuladı ki, İran Prezidenti Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət verir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi.

Fərzanə Sadiq ölkələrimiz arasında tarixi, dini və mədəni əlaqələrin mövcud olduğunu vurğuladı.

Söhbət zamanı Bakıda keçiriləcək "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadiyyat, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyası"nın 17-ci iclasının əhəmiyyətinə toxunuldu, "Şimal-Cənub" nəqliyyat dəhlizi, Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün inşası və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.

## Azərbaycan Respublikası vətəndaşlarının 2026-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2008-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1996-2007-ci illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2026-cı il aprelin1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2026-cı il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2026-cı il*

## "Əhalinin sağlamlığının qorunması haqqında" və "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497 (Cild I); 2024, № 6 (I kitab), maddələr 631, 639, № 12 (II kitab), maddələr 1332, 1350; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322, № 7, maddə 608; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 327-VIIQD nömrəli Qanunu) 10-cu maddəsinin doqquzuncu hissəsinə "isə" sözündən sonra "ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində" sözləri əlavə edilsin.

**Maddə 2.** "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 656 (Cild I); 2024, № 6 (I kitab), maddə 631) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.4-cü maddəyə "isə" sözündən sonra "ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində" sözləri əlavə edilsin;

2.2. 5-ci maddə üzrə:

2.2.1. 5.0.3-cü maddəyə "müəssisələrinin," sözündən sonra "dövlət" sözü əlavə edilsin;

2.2.2. 5.0.6-cı maddəyə "müalicə-diaqnostika" sözündən əvvəl "dövlət tibb müəssisələrində" sözləri əlavə edilsin;

2.3. 6-cı maddə üzrə:

2.3.1. 6.3-cü maddədə "müalicə-diaqnostika yardımı" sözləri "onkoloji yardım" sözləri ilə əvəz edilsin və həmin maddəyə "müəssisələrdə" sözündən sonra ", habelə onların fərdi müraciəti əsasında bu Qanunun 11.1-ci maddəsində qeyd olunan özəl tibb müəssisələrində" sözləri əlavə olunsun;

2.3.2. 6.7-ci və 6.8-ci maddələrə "Onkoloji" sözündən sonra "yardım göstərən dövlət tibb müəssisələrində onkoloji" sözləri əlavə edilsin;

2.4. 8.0.5-ci maddəyə "siyahısı" sözündən əvvəl "dövlət tibb müəssisələrində müalicə olunduqda" sözləri əlavə edilsin;

2.5. 11-ci maddə üzrə:

2.5.1. adından "hüquqi və fiziki" sözləri çıxarılsın;

2.5.2. 11.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"11.1. Onkoloji yardım ixtisaslaşdırılmış dövlət tibb müəssisələrində və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya almış özəl tibb müəssisələrində (lisenziyanın əlavəsinə uyğun olaraq) həyata keçirilir.";

2.6. aşağıdakı məzmunda 12.1-1-ci maddə əlavə edilsin:

"12.1-1. Onkoloji xəstələrin özəl tibb müəssisələrində müayinəsi və müalicəsi "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinə uyğun olaraq həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2026-cı il*

# Bakıda iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Azərbaycan-İran Dövlət Komissiyasının 17-ci iclası keçirilib

**Fevralın 23-də Bakıda Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının 17-ci iclası keçirilib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, komissiyanın Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayevin və İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadiqin sədrliyi ilə keçirilən iclasda hər iki ölkənin aidiyyəti qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.

Azərbaycan və İran arasında münasibətlərin ortaq tarixi, mədəni və dini dəyərlər, dostluq və qonşuluq prinsipləri əsasında qurulduğu, ikitərəfli əlaqələrin dinamikasının iki ölkə rəhbərlərinin siyasi iradəsinə əsaslandığı və bütün sahələri əhatə etdiyi xüsusilə vurğulanıb.

İclasda Azərbaycan ilə İran arasında ticarət-iqtisadi, nəqliyyat, energetika, su, humanitar və digər sahələrdə əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətraflı müzakirə edilib.

Baş nazirin müavini Şahin Mustafayev çıxışında qeyd edib ki, Ağbənd-Kələlə avtomobil körpüsünün tikintisi artıq başa çatıb və sərhəd-gömrük infrastrukturunun inşası tamamlandıqdan sonra körpünün istismara verilməsi nəzərdə tutulur. Sözügedən layihə Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvanla ən qısa və səmərəli marşrutla birləşdirəcək, eyni zamanda Fars körfəzi ilə Qara dənizi əlaqələndirən əlverişli avtomobil marşrutunun mühüm tərkib hissəsini təşkil edəcək.

Eyni zamanda "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin inkişafı, regionun logistik imkanlarının və tranzit potensialının genişlənməsi, habelə "Şimal-Cənub" nəqliyyat dəhlizinin əsas elementi hesab edilən Rəşt-Astara dəmir yolu xəttinin tikintisi geniş müzakirə olunub. Bildirilib ki, bu xəttin istifadəyə verilməsi Şimal-Cənub istiqamətində daşımaların həcmini əhəmiyyətli dərəcədə artıracaq və çatdırılma müddətini qısaldacaq.

Həmçinin iki ölkənin birgə həyata keçirdiyi, xüsusilə də regionun logistik imkanlarının və tranzit potensialının genişlənməsinə, eləcə də enerji dayanıqlılığının təmin edilməsinə yönələn layihələrin icra vəziyyəti nəzərdən keçirilib.

İclasın yekununda həmsədrlər tərəfindən komissiyanın iclasının nəticələrinə dair Anlaşma Memorandumu imzalanıb.

## İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Əziz Qardaşım!

Səudiyyə Ərəbistanı Krallığının Təsis Olunması Günü münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında möhkəm dostluğun yaxşı nümunəsi olan və qardaşlığa əsaslanan münasibətlərin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi olduqca sevindirir. Aramızda mövcud olan yüksəksəviyyəli siyasi dialoq iqtisadi, enerji, humanitar və digər sahələrdə əməkdaşlığımız ilə müşayiət olunmaqdadır.

Bərpaolunan enerji və investisiya sahələrində ölkələrimizin səmərəli birgə fəaliyyətini xüsusi qeyd etmək istərdim. Qardaş ölkənizin "ACWA Power" şirkəti tərəfindən 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikilərək bu yaxınlarda istismara verilməsi sıx tərəfdaşlığımızın bariz nümunəsidir.

Əminəm ki, Azərbaycan-Səudiyyə Ərəbistanı dövlətlərarası münasibətlərini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizi və qardaş xalqınızı müqəddəs Ramazan ayının başlaması münasibətilə də səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2026-cı il*

## Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitoya

Əlahəzrət!

Yaponiyanın milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali fəaliyyətinizdə müvəffəqiyyətlər, dost Yaponiya xalqına daim firavanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

## Bruney-Darüssalamın Sultanı Əlahəzrət Hacı Həssənal Bolkiaha

Əlahəzrət!

Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Dostluq və qarşılıqlı hörmət üzərində qurulmuş Azərbaycan-Bruney münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Sizi və dost xalqınızı müqəddəs Ramazan ayının başlaması münasibətilə də səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, Bruney-Darüssalama daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 fevral 2026-cı il*

## "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda dağ-mədən sənayesinin inkişafı, o cümlədən metal yataqlarının kəşfiyyatı, işlənməsi, hasilatı və emalı sahəsində xüsusi xidmətləri olan "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin aşağıdakı əməkdaşları"Tərəqqi" medalı ilə təltif edilsinlər:

Caniyev İbrahim Mustafa oğlu
Hüseynov Fuad Camal oğlu
Xələfov Sadiq Miri oğlu
İsmayılov Tofiq Köçəri oğlu
Quliyev Emil Ehtiram oğlu
Məmmədəliyev Dadaş Şixməmməd oğlu
Məmmədov Ələsgər Ağamehdi oğlu
Talıbov Zəka Famil oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2026-cı il*

## "İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi - Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il oktyabrın 25-də Hanoy şəhərində imzalanmış "İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi - Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası" Azərbaycan Respublikasının müvafiq bəyanatları və qeyd-şərtləri ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 fevral 2026-cı il*

## "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, bu sahədə infrastrukturun təkmilləşdirilməsi, içməli su və suvarma suyu ilə təminatın daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" (bundan sonra - Tədbirlər Planı) təsdiq edilsin (əlavə olunur).

2. "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya:

2.1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təklifləri əsasında Tədbirlər Planının 1-ci hissəsində nəzərdə tutulan tədbirlər üzrə icra ediləcək layihələrin siyahısını bir ay müddətində müəyyən etsin;

2.2. Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsi məsələlərini həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

4. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər KabinetiTədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin cari ildə və növbəti illərdə maliyyələşdirilməsi üçün aidiyyəti üzrə zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 fevral 2026-cı il*

*Sərəncamın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində,"Banklar haqqında" və "Gömrük tarifi haqqında"Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci, 25-ci və 27-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; 2025, № 2, maddə 96, № 3, maddə 214, № 4 (I kitab), maddələr 307, 315, 318, 322, № 5, maddələr 432, 441, № 6, maddələr 524, 536, № 7, maddələr 609, 618, № 8, maddələr 743, 744, № 11, maddə 1009; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli, 30 dekabr tarixli 327-VIIQD nömrəli, 330-VIIQD nömrəli, 331-VIIQD nömrəli, 332-VIIQD nömrəli və 338-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 33.8-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"33.8-1. Vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentlər (bu Məcəllənin 19-cu maddəsində nəzərdə tutulan daimi nümayəndəliklər istisna olmaqla) alıcısı Azərbaycan Respublikasında olan iş və xidmətlərin təqdim edilməsindən dövriyyəsi təqvim ili ərzində 10 000 ABŞ dollarının manat ekvivalentini keçdikdən sonra 30 gün müddətində elektron qaydada vergi uçotuna alınmalıdırlar. Bu maddədə qeyd olunan dövriyyəsi 10 000 ABŞ dollarının manat ekvivalentindən aşağı olan qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması könüllü olaraq həyata keçirilir.

Məsləhət, hüquq, maliyyə, mühasibat, dizayn və mühəndis xidmətlərinin elektron poçt və digər interaktiv ünsiyyət vasitələri ilə göstərilməsi, internet vasitəsilə real vaxt rejimində göstərilən tədris və təlim xidmətləri, habelə elm, təhsil, mədəniyyət, idman və əyləncə tədbirləri üçün biletlərin onlayn sifariş edilməsi xidmətləri bu maddənin məqsədləri üçün elektron ticarət qaydasında təqdim edilən xidmətlərə aid edilmir.

Vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin (bu Məcəllənin 19-cu maddəsində nəzərdə tutulan daimi nümayəndəliklər istisna olmaqla) elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması, ƏDV-nin ödəyicisi kimi qeydiyyata alınması, ƏDV bəyannaməsinin təqdim edilməsi və ƏDV-nin ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.";

1.2. 34.8.3-cü maddə üzrə:

1.2.1. birinci cümlədə "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.2.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Dövlət orqanları (qurumları), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və dövlət adından yaradılan publik hüquqi şəxslər vergi orqanında uçota alındıqda, yenidən təşkil edildikdə və ya uçotdan çıxarıldıqda bu barədə məlumatlar (vergi ödəyicisinin adı, VÖEN-i, hesabları göstərilməklə) hər ay bitdikdən sonra növbəti ayın 15-dək həmin orqan tərəfindən elektron qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim olunur.";

1.3. aşağıdakı məzmunda 35.2-1-ci, 102.1.33-2-ci, 106.1.28-3-cü və 106.1.28-4-cü maddələr əlavə edilsin:

"35.2-1. Bu Məcəllənin 35.2-ci maddəsinə uyğun olaraq, qeydiyyata alınan hesab dövlət orqanlarına (qurumlarına), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə və dövlət adından yaradılan publik hüquqi şəxslərə məxsus olduqda həmin hesablar barədə məlumatlar vergi orqanı tərəfindən müvafiq məlumat bank əməliyyatları aparan şəxslər tərəfindən vergi orqanına daxil olduğu gündən sonrakı 1 iş günü müddətində elektron qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.";

"102.1.33-2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin bu fəaliyyət çərçivəsində əldə etdikləri gəlirlər- 2025-ci il sentyabrın1-dən 1 il müddətinə;";

"106.1.28-3. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunması, yaxud istifadə hüquqlarının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royaltigəlirləri - 2025-ci il sentyabrın 1-dən 1 il müddətinə;

106.1.28-4. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar qeyri-rezident hüquqi şəxslər tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər - 2025-ci il sentyabrın1-dən 1 il müddətinə;";

1.4. 164.1-ci maddə üzrə:

1.4.1. aşağıdakı məzmunda 164.1.41-5-ci və 164.1.49-2-ci maddələr əlavə edilsin:

"164.1.41-5. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında şəxs tərəfindən təqvim ili ərzində 1 ədəddən (ölkə üzrə ümumilikdə 10 ədəddən) artıq olmamaqla raritetavtonəqliyyat vasitələrinin idxalı;";

"164.1.49-2. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) bağlanılmış müqavilə əsasında qeyri-rezident şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında malların idxalı - 2025-ci il sentyabrın 1-dən 1 il müddətinə;";

1.4.2. 164.1.63.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 164.1.64-cü maddə əlavə edilsin:

"164.1.64. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodları üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunan incəsənət əsərlərinin, kolleksiya əşyalarının və əntiq əşyaların idxalı.";

1.5. 169.8-ci maddədə "bu fəslin məqsədləri üçün" sözləri "vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında" sözləri ilə əvəz edilsin;

1.6. 177.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 177.1.4-cü maddə əlavə edilsin:

"177.1.4. bu Məcəllənin 33.8-1-ci maddəsində nəzərdə tutulan qaydada uçota alınan qeyri-rezident şəxslərə münasibətdə ƏDV-ni hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın sonuncu günündən gec olmayaraq büdcəyə ödəməyə.";

1.7. 188.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 188.1.9-cu maddə əlavə edilsin:

"188.1.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında şəxs tərəfindən təqvim ili ərzində 1 ədəddən (ölkə üzrə ümumilikdə 10 ədəddən) artıq olmamaqla raritetavtonəqliyyat vasitələrinin idxalı.".

**Maddə 2.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130 (Cild I); 2024, № 2, maddə 138; 2025, № 1, maddə 1, № 4 (I kitab), maddə 318, № 5, maddə 432) aşağıdakı məzmunda 41.2.9-1-ci maddə əlavə edilsin:

"41.2.9-1. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (maliyyə bazarlarını tənzimləyən qanunlarla Mərkəzi Bankın nəzarət etdiyi subyektlər kimi müəyyən edilən hüquqi şəxslər istisna olmaqla), dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların bank hesabları üzərində müşahidə funksiyalarının yerinə yetirilməsi ilə bağlı -müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma);".

**Maddə 3.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779 (Cild I); 2024, № 4, maddə 365, № 6 (I kitab), maddə 630, № 8, maddə 933, № 12 (II kitab), maddə 1349; 2025, № 11, maddə 1009; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli və 30 dekabr tarixli 327-VIIQD nömrəli qanunları) 20.0.34-cü maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 20.0.35-ci maddə əlavə edilsin:

"20.0.35. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında şəxs tərəfindən təqvim ili ərzində 1 (bir) ədəddən (ölkə üzrə ümumilikdə 10 (on) ədəddən) artıq olmamaqla raritetavtonəqliyyat vasitələrinin idxalı.".

**Maddə 4. Bu Qanunun qüvvəyə minməsi**

4.1. Bu Qanunun 1.1-ci, 1.5-civə 1.6-cı maddələri bu Qanun dərc edildiyi gündən 6 (altı) ay sonra qüvvəyə minir.

4.2. Bu Qanunun 1.4.1-ci (Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.41-5-ci maddəsinə münasibətdə), 1.7-ci və 3-cü maddələri bu Qanun dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

4.3. Bu Qanunun 1.4.2-ci maddəsi 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

4.4. Bu Qanunun 1.2-ci, 1.3-cü (Azərbaycan Respublikası Vergi Məcəlləsinin 35.2-1-ci maddəsinə münasibətdə) və 2-ci maddələri 2026-cı il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2026-cı il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 33.8-1-ci maddəsinin üçüncü abzasında, 34.8.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 35.2-1-ci, 102.1.33-2-ci, 106.1.28-3-cü, 106.1.28-4-cü, 164.1.41-5-ci, 164.1.49-2-ci (hər iki halda), 164.1.64-cü (hər iki halda) və 188.1.9-cu maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 33.8-1-ci maddəsinin üçüncü abzasında və 164.1.64-cü maddəsində (ikinci halda)"orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 34.8.3-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 34.8.3-cü maddəsinin ikinci cümləsində və 35.2-1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 102.1.33-2-ci, 106.1.28-3-cü, 106.1.28-4-cü və 164.1.49-2-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur.

1.6. həmin Məcəllənin 164.1.41-5-ci, 164.1.64-cü (birinci halda) və 188.1.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur;

1.7. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 41.2.9-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.8. həmin Qanunun 41.2.9-1-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Xəzinədarlıq Agentliyi qismində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.9. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.35-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.10. həmin Qanunun 20.0.35-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13fevral tarixli 355-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanunun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); 2024, № 5 (I kitab), maddə 513, № 6 (I kitab), maddələr 653, 661, № 8, maddə 947, № 12 (I kitab), maddə 1289, (II kitab), maddə 1375; 2025, № 4 (I kitab), maddələr 331, 334, № 5, maddə 461, № 6, maddə 541, № 8, maddə 747, № 11, maddə 1023; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli, 2026-cı il 26 yanvar tarixli 587 nömrəli fərmanları) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə ", 33.8-1-ci, 33.10-cu maddələrində" sözləri "maddələrində, 33.8-1-ci maddəsinin üçüncü abzasında, 33.10-cu maddəsində" sözləri ilə əvəz olunsun və həmin bəndə birinci halda "ikinci abzasında" sözlərindən sonra ", 34.8.3-cü maddəsinin birinci və ikinci cümlələrində" sözləri, "35.1-ci" sözlərindən sonra ", 35.2-1-ci" sözləri, "102.1.33-cü" sözlərindən sonra ", 102.1.33-2-ci" sözləri, "106.1.28-ci" sözlərindən sonra ", 106.1.28-3-cü, 106.1.28-4-cü" sözləri, "164.1.41-4-cü" sözlərindən sonra ", 164.1.41-5-ci" sözləri, "164.1.49-cu" sözlərindən sonra ", 164.1.49-2-ci (hər iki halda)" sözləri, "164.1.63.2-ci" sözlərindən sonra ", 164.1.64-cü (hər iki halda)" sözləri, dördüncü halda "ikinci cümləsində" sözlərindən sonra ", 188.1.9-cu maddəsində" sözləri əlavə edilsin;

3.2. 1.7-ci bəndə "33.8-1-ci" sözlərindən sonra "maddəsinin üçüncü abzasında"sözləri, "164.1.63.2-ci" sözlərindən sonra ", 164.1.64-cü (ikinci halda)"sözləri əlavə edilsin;

3.3. 1.11-ci bənddən "34.8.3-cü," sözləri çıxarılsın;

3.4. 1.12-ci bəndə "(birinci halda)" sözlərindən sonra "maddələrində, 34.8.3-cü maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin;

3.5. 1.15-ci bəndə "(ikinci və üçüncü hallarda)" sözlərindən sonra "maddələrində, 34.8.3-cü maddəsinin ikinci cümləsində, 35.2-1-ci" sözləri əlavə edilsin;

3.6. aşağıdakı məzmunda 1.43-3-cü və 1.43-4-cü bəndlər əlavə edilsin:

"1.43-3. həmin Məcəllənin 102.1.33-2-ci, 106.1.28-3-cü, 106.1.28-4-cü və 164.1.49-2-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur;

1.43-4. həmin Məcəllənin 164.1.41-5-ci, 164.1.64-cü (birinci halda) və 188.1.9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur;".

4. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 mart tarixli 42 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 143 (Cild I); 2024, № 2, maddə 141)3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1-1-ci bəndə birinci halda "ikinci cümləsində" sözlərindən sonra ", 41.2.9-1-ci maddəsində" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

"3.5. həmin Qanunun 41.2.9-1-ci maddəsində "orqan (qurum)" dedikdə Dövlət Xəzinədarlıq Agentliyi qismində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.".

5."Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 801 (Cild I); 2024, № 6 (I kitab), maddə 661, № 12 (II kitab), maddə 1371; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli 563 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1-1-ci bənddə "və 20.0.34-cü (hər iki halda)" sözləri ", 20.0.34-cü (hər iki halda) və 20.0.35-ci" sözləri ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 3.5-2-ci bənd əlavə edilsin;

"3.5-2. həmin Qanunun 20.0.35-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi nəzərdə tutulur.".

6. Bu Fərmanın 1.1-ci, 1.2-ci, 3.1-ci və 3.2-ci bəndləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 33.8-1-ci maddəsinə münasibətdə "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanunu dərc edildiyi gündən 6 (altı) ay sonra qüvvəyə minir.

7. Bu Fərmanın 1.1-ci, 1.6-cı,3.1-ci və 3.6-cı bəndləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.41-5-ci və 188.1.9-cu maddələrinə münasibətdə, habelə bu Fərmanın 1.9-cu, 1.10-cu bəndləri və 5-ci hissəsi "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Banklar haqqında" və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 355-VIIQD nömrəli Qanunu dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

8. Bu Fərmanın 1.1-ci,1.2-ci, 1.6-cı, 3.1-ci, 3.2-ci və 3.6-cı bəndləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.64-cü maddəsinə münasibətdə 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

9. Bu Fərmanın 1.1-ci və 3.1-ci bəndləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 34.8.3-cü və 35.2-1-ci maddələrinə münasibətdə, habelə bu Fərmanın 1.3-cü, 1.4-cü, 1.7-ci, 1.8-ci, 3.3 - 3.5-ci bəndləri və 4-cü hissəsi 2026-cı il aprelin 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2026-cı il*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli və 30 dekabr tarixli 332-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 36-cı maddənin 1-ci hissəsi üzrə:

1.1. "b" bəndində "orqanı" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

1.2. "c" bəndində "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

2. 155-ci maddənin 6-cı hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Minimum əməkhaqqının məbləğinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təklifləri əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən ildə bir dəfədən az olmayaraq yenidən baxılır.".

3. 261-ci maddənin 3-cü hissəsində "orqanları" sözü "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 fevral 2026-cı il*

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin19-cu və 32-ci bəndlərini rəhbər tutaraq "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 36-cı maddəsinin 1-ci hissəsinin "b" və "c" bəndlərində, 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (hər iki halda) və 261-ci maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 36-cı maddəsinin 1-ci hissəsinin "c" bəndində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətləri nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 36-cı maddəsinin 1-ci hissəsinin "b" bəndində "orqan (qurum)" dedikdə mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər nəzərdə tutulur;

1.6. həmin Məcəllənin 261-ci maddəsinin 3-cü hissəsində"orqan (qurum)" dedikdə baş kollektiv sazişə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, sahə kollektiv sazişinə münasibətdə mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, ərazi kollektiv sazişinə münasibətdə yerli icra hakimiyyətləri nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 13 fevral tarixli 354-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231 (Cild I); 2024, № 6(I kitab), maddə 654, № 8, maddə 943; 2025, № 2, maddə 124, № 7, maddə 641; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 yanvar tarixli 584 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasda ikinci halda "bəndində" sözü ", "b" və "c" bəndlərində" sözləri ilə, "6-cı hissəsində" sözləri "6-cı hissəsinin birinci və ikinci (hər iki halda) cümlələrində" sözləri ilə əvəz olunsun və həmin abzasa "314-cü" sözlərindən əvvəl "261-ci maddəsinin 3-cü hissəsində," sözləri əlavə edilsin;

3.2. üçüncü - otuz birinci abzaslar müvafiq olaraq dördüncü - otuz ikinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"həmin Məcəllənin 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

3.3. altıncı abzasda "və 87-ci maddəsinin 3-cü hissəsində" sözləri ", 87-ci maddəsinin 3-cü hissəsində və 155-ci maddəsinin 6-cı hissəsinin ikinci cümləsində (birinci halda)" sözləri ilə əvəz edilsin;

3.4. on üçüncü abzasdan "36-cı maddəsinin birinci hissəsinin "b" bəndində," sözləri çıxarılsın;

3.5. on dördüncü abzasda "nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər" sözləri "orqan (qurum)" dedikdə yerli icra hakimiyyətləri nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.6. on doqquzuncu abzasda "nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini aşağıdakı orqanlar həyata keçirirlər" sözləri "orqan (qurum) dedikdə" aşağıdakılar nəzərdə tutulur" sözləri ilə əvəz edilsin;

3.7. iyirmi birinci abzasda "Azərbaycan Respublikasının nazirlikləri, dövlət komitələri, dövlət konsernləri, şirkətləri və idarələri" sözləri "mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

3.8. otuz ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda otuz üçüncü abzas əlavə edilsin:

"həmin Məcəllənin 36-cı maddəsinin 1-ci hissəsinin "b" bəndində "orqan (qurum)" dedikdə mərkəzi icra hakimiyyəti orqanları, dövlətin adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2026-cı il*

# Azərbaycanla Gürcüstan arasında münasibətlər parlamentlər çərçivəsində də uğurla inkişaf edir

**Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin 10-cu üçtərəfli iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Gürcüstan Parlamentinin Xarici əlaqələr komitəsinin sədri Nikoloz Şamxaradze ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, danışıqlar zamanı üçtərəfli görüşün əhəmiyyəti vurğulanaraq, bu əməkdaşlıq formatının 2014-cü ildə Bakıda təsis edildiyi, komitələrin Azərbaycanda son iclasının 2022-ci ildə Şuşada keçirildiyi qeyd olunub. Spiker Sahibə Qafarova Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli münasibətlərin regionda sülhə, sabitliyə, əməkdaşlığa və iqtisadi inkişafa töhfə verdiyini bildirib.

Nikoloz Şamxaradze Gürcüstan Parlamentinin Sədri Şalva Papuaşvilinin salamlarını Milli Məclisin Sədrinə çatdırıb.

Söhbət zamanı Azərbaycan və Gürcüstan arasında əlaqələrin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə olunaraq bildirilib ki, regionda strateji layihələrin icrasında da ölkələrimiz arasında əməkdaşlıq uğurla davam edir. İki dövlətin münasibətlərinin parlamentlər çərçivəsində də uğurlu inkişafı qeyd olunaraq, parlament sədrləri və deputatlar arasında sıx qarşılıqlı təmasların münasibətlərimizin daha da genişlənməsində vacib rolu vurğulanb. Parlamentlərimizin həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq etdiyi diqqətə çatdırılıb.

Spiker Sahibə Qafarova ötən ilin avqustunda Vaşinqton Zirvə Görüşündən sonra regionda yaranmış vəziyyət və yeni imkanlar barədə fikirlərini bölüşüb.

Nikoloz Şamxaradze isə Azərbaycan və Ermənistan arasında sülh prosesinin regionun hər üç ölkəsi üçün faydalı olacağını, Gürcüstanın da bu prosesi dəstəklədiyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Baş prokurorun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanda işgüzar səfərdədir

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanlı həmkarı Giorgi Qvarakidzenin dəvəti ilə fevralın 23-də Tbilisi şəhərinə işgüzar səfərə gedib.**



İlk öncə nümayəndə heyəti Tbilisidə Ümummilli Lider Heydər Əliyevin adını daşıyan parkı ziyarət edib, Ulu Öndərin burada ucaldılan abidəsi önünə əklil qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Gürcüstan Baş Prokurorluğunda keçirilmiş görüşdə baş prokuror Kamran Əliyev qarşı tərəfə dəvətə görə təşəkkürünü bildirərək qeyd edib ki, Gürcüstan Azərbaycan üçün dost ölkə olmaqla yanaşı, strateji tərəfdaşdır. Belə ki, Gürcüstan uzun illər ərzində ölkəmiz üçün vacib iqtisadi və infrastruktur layihələrində yaxından iştirak etmiş, ölkəmizin regional və qlobal təşəbbüslərini dəstəkləyib. Xalqlarımız və dövlətlərimiz arasında mövcud dərin tarixi köklərə malik mehriban qonşuluq münasibətləri dövlət başçılarının siyasi iradəsi və səyləri nəticəsində daha da inkişaf edib.

Bundan başqa, Prezident İlham Əliyevin iki ölkə arasındakı sarsılmaz birliyi gələcək nəsillər üçün ən böyük miras kimi qiymətləndirməsi, Gürcüstan Prezidentinin seçkilərdə qalib gəldikdən, Baş nazirinin isə partiyasının seçkilərdəki qələbəsindən ilk rəsmi səfərlərini Azərbaycana etməsinin xüsusi önəm daşıması, Azərbaycanla Gürcüstanın bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləməsi qeyd olunub və vurğulanıb ki, bütün bunlar ölkələrimiz arasında münasibətlərin ali səviyyədə mahiyyəti və gücünü bir daha göstərir.

Öz növbəsində Giorgi Qvarakidze qurumlararası münasibətlərin inkişafından məmnunluğunu ifadə edib.

Görüşdə iki ölkənin prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumu qeyd edilərək cinayətkarlığın müxtəlif formalarına, o cümlədən korrupsiya, narkotik vasitələrin qanunsuz dövriyyəsi, kibercinayətlər və mütəşəkkil cinayətkarlığın digər təhlükəli növlərinə qarşı birgə mübarizə, həmçinin ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, hüquqi və institusional əməkdaşlığın genişləndirilərək təcrübə mübadiləsinin aparılması ətrafında fikir mübadiləsi aparılıb. Bundan əlavə, görüşdə konkret cinayət işlərinin istintaqı zamanı müəyyən edilmiş qarşılıqlı maraq doğuran xüsusatlar, göndərilmiş hüquqi yardım və ekstradisiya sorğularının icra vəziyyətinə diqqət yetirilmiş, eləcə də sərhədyanı bölgələrin prokurorluqları arasında intensiv əməkdaşlıq əlaqələrinin vacibliyi qeyd edilməklə transsərhəd cinayətkarlığın qarşısının alınması ilə bağlı birgə tədbirlərin görülməsi müzakirə edilib.

Görüşlərdə ölkəmizin Gürcüstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev də iştirak edib.

Səfər müddətində baş prokuror, həmçinin ölkəmizin Gürcüstandakı səfirliyini ziyarət edərək heyətlə tanış olub.

# Əmək və sosial siyasət komitəsinin iclasında üç məsələ müzakirə olunub

**Fevralın 23-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib. Komitə sədri Musa Quliyev gündəliyə üç məsələnin daxil edildiyini bildirib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri əvvəlcə gündəliyin birinci məsələsini - Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində, "Müdafiə haqqında", "Veteranlar haqqında", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Polis haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib.

Bildirilib ki, qanun layihəsində təklif olunan dəyişikliklər ümumilikdə uyğunlaşdırma xarakteri daşıyır və qanunvericilik sisteminə aid digər normativ aktlar arasında uyğunluğun təmin edilməsi məqsədilə hazırlanıb. Layihədə əks olunmuş müddəaların bir çoxu "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş 27 dekabr 2024-cü il tarixli dəyişikliklərlə əlaqədardır.

Gündəliyin növbəti məsələsini - Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini Parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev birinci oxunuşda təqdim edib. Qeyd edilib ki, qanun layihəsi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sisteminə daxil olan uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində çalışan təhsilverənlərin bilik və bacarıqlarının attestasiya yolu ilə deyil, xüsusi qaydalar üzrə sertifikasiya vasitəsi ilə qiymətləndirilməsinin aparılmasını nəzərdə tutur. Layihənin qiymətləndirmə prosesinin obyektivliyini, şəffaflığını və hüquqi əsaslarını gücləndirmək, müasir qiymətləndirmə metodlarının tətbiqini təmin etmək və əmək mübahisələri riskini azaltmaq məqsədilə hazırlandığı bildirilib.

Onlayn iclasda gündəliyin sonuncu məsələsi - Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında","Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında","Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda müzakirəyə təqdim olunub. Diqqətə çatdırılıb ki, layihədə nəzərdə tutulan dəyişikliklər uşaqlarla bağlı ədalət mühakiməsinin həyata keçirilməsi zamanı onların üstün mənafelərinin nəzərə alınması, fərdi məlumatlarının qorunması, çətin həyat şəraitində olan uşaqların aşkar edilməsi mexanizmi, uşaqların zorakılıqdan qorunması ilə bağlı qanunvericilikdə yeni təminatların müəyyən edilməsinə imkan verəcək.

Müzakirələrdə komitə üzvləri Soltan Məmmədov,Vüqar Bayramov, Nigar Məmmədova, Jalə Əliyeva, Əziz Ələkbərov, Sevinc Hüseynova, Göydəniz Qəhrəmanov çıxış edərək müzakirəyə çıxarılan məsələlərlə bağlı fikirlərini səsləndiriblər, bəzi qeyd və təkliflərini irəli sürüblər.

Sonda qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Konstitusiya Məhkəməsinin Plenumu qərar qəbul edib

**Konstitusiya Məhkəməsinin Plenumu insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) sorğusu əsasında Əmək Məcəlləsinin 144-cü maddəsinin 2 və 3-cü hissələrinin Konstitusiyaya uyğunluğunu araşdıraraq fevralın 18-də qərar qəbul edib.**

Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sorğu əmək müqaviləsinə xitam verilərkən işçilərə istifadə olunmamış əlavə məzuniyyət günlərinə görə kompensasiyanın ödənilməməsini nəzərdə tutan normanın Konstitusiyanın bərabərlik, sosial dövlət və hüquqların məhdudlaşdırılmasının mütənasibliyi prinsiplərinə uyğunluğu ilə bağlı olub.

Qərarda göstərilir ki, qanunvericiliyə əsasən işçilərə əsas məzuniyyətlə yanaşı, müəyyən kateqoriyalara əmək şəraitinə, əmək stajına, uşaqlı qadınlara, eləcə də işğaldan azad edilmiş ərazilərdə çalışan mütəxəssislərə əlavə məzuniyyət hüququ verilir. Əmək müqaviləsinə xitam verilərkən istifadə edilməmiş əsas məzuniyyət günlərinə görə kompensasiya ödənildiyi halda, əlavə məzuniyyətlərə görə kompensasiya verilməməsi həmin hüququn faktiki həyata keçirilməsini məhdudlaşdırır.

Plenum qeyd edir ki, əlavə məzuniyyət hüququndan obyektiv səbəblərə görə istifadə edə bilməyən işçinin həmin hüquqa görə kompensasiya almaq imkanından tam məhrum edilməsi hüququn mahiyyətini formal xarakterə çevirir və bərabərlik prinsipinə uyğun gəlmir. Eyni zamanda yalnız əmək münasibətlərinin davam etməsi və ya xitam verilməsi meyarına əsaslanaraq fərqli hüquqi nəticələrin müəyyən olunması obyektiv və ağlabatan əsas kimi qiymətləndirilə bilməz.

Bütün bunları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu Əmək Məcəlləsinin 144-cü maddəsinin 3-cü hissəsində əlavə məzuniyyətlərə görə kompensasiyanın verilməməsini nəzərdə tutan müddəanın Konstitusiyaya uyğun olmadığını hesab edir və həmin normanın tətbiqinin dayandırılmalı olduğunu bildirir. Qanunvericilikdə müvafiq dəyişikliklər edilənədək əmək müqaviləsinə xitam verilərkən işçilərə istifadə edilməmiş əlavə məzuniyyət günlərinə görə kompensasiyanın əsas məzuniyyət üçün nəzərdə tutulmuş qaydada və məbləğdə ödənilməsi təmin olunmalıdır.

# Azərbaycanın təhlükəsizlik missiyası

**Prezident İlham Əliyevin Sülh Şurasının iclasında iştirak üçün ABŞ Prezidenti Donald Tramp tərəfindən Vaşinqtona dəvət olunması dövlətimizin başçısının dünyada olan nüfuzunun, ona göstərilən etimadın daha bir nümunəsidir.**

Xatırladaq ki, Donald Trampın dəvəti ilə Azərbaycan həm də bu Sülh Şurasının təsisçi üzv dövlətlərindən biridir. Bu da ölkəmizin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına göstərdiyi səylər, Cənubi Qafqaza sülhün, sabitliyin gətirilməsi istiqamətində davamlı konstruktiv addımları ilə bağlıdır. Azərbaycan qlobal sülhə nail olunmasına əməli töhfələr verir. Ölkələr arasında əməkdaşlığın inkişafı, mehriban qonşuluq və dostluq əlaqələrinin qurulması, təhlükəsizlik mühitinin formalaşdırılması, bir sözlə, bəşəri əmin-amanlığın yaranması üçün mühüm çağırışlar edir və bu istiqamətdə təsirli addımlar atır.

Milli Məclisin deputatı Müşfiq Məmmədli qəzetimizə açıqlamasında bildirib ki, Prezidentin Sülh Şurasının iclasında iştirak məqsədilə ABŞ-yə səfərinin siyasi mənası ilk növbədə Azərbaycanın regional gündəmdən çıxaraq qlobal sülh və təhlükəsizlik müzakirələrinin fəal iştirakçısına çevrildiyini göstərir. Birincisi, bu cür platformalarda dövlət başçısının şəxsən iştirakı iki əsas mesaj verir: Azərbaycan artıq təkcə regionda deyil, daha geniş coğrafiyada sülh təşəbbüsləri irəli sürən və dialoq təşviq edən aktor kimi qəbul olunmaq istəyir. İkincisi, Bakı öz siyasi xəttini yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, çoxtərəfli institutlar və beynəlxalq mexanizmlər vasitəsilə də möhkəmləndirir. Ümumilikdə Azərbaycanın Sülh Şurasında yer alması ölkəmizin növbəti uğurudur".



Deputat qeyd edib ki, Azərbaycanın Sülh Şurasında təsisçi qismində iştirakı bir neçə mühüm məqamla izah olunur və strateji mənası var. Birincisi, Azərbaycan postmünaqişə reallığını yaşamış ölkə kimi sülhün yalnız siyasi şüar deyil, real dövlət siyasəti olduğunu nümayiş etdirməyə çalışır. İkincisi, bu status Bakıya, sadəcə, iştirakçı deyil, gündəliyin formalaşmasında söz sahibi olan tərəf kimi çıxış etmək imkanı verir. Üçüncüsü, Azərbaycanın son illərdə apardığı siyasət göstərir ki, ölkə regional təhlükəsizlik mövzularını qlobal müzakirələrə çıxarmağı, xüsusən də Cənubi Qafqazda formalaşan yeni reallıqları beynəlxalq auditoriyaya birbaşa təqdim etməyi prioritet hesab edir.

M.Məmmədlinin fikrincə, Prezidentin bu səfərinin əsas mahiyyəti Azərbaycanın özünü münaqişə gündəliyindən çıxmış, sülh quruculuğu və dialoq təşəbbüsləri irəli sürən, beynəlxalq sülh mexanizmlərinin formalaşmasında rol almağa hazır dövlət kimi təqdim etməsidir: "Bu, həm də Azərbaycanın xarici siyasətində müşahidə olunan yeni mərhələnin - regional liderlikdən qlobal diplomatik aktivliyə keçidin açıq göstəricisi kimi qiymətləndirilə bilər. Bütün mövcud geosiyasi reallıqlar Azərbaycanın son illərdə formalaşdırdığı diplomatik xətt baxımından qiymətləndirilə bilər".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# WUF13 Azərbaycan QHT-ləri üçün yeni tərəfdaşlıqların qurulması baxımından mühüm platformadır

**"Azərbaycan qeyri-hökumət təşkilatları hazırda daha məsuliyyətli mərhələyə qədəm qoyur. Bu mərhələ həm ciddi sınaq, həm də beynəlxalq miqyasda öz sözünü demək üçün mühüm fürsətdir. Söhbət ölkəmizdə "Şəhərsalma və Arxitektura İli" çərçivəsində mayın 17-22-də Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasından (WUF13) gedir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında "Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi" (CASCFEN) İctimai Birliyinin sədri Nadir Azəri bildirib.

Onun sözlərinə görə, BMT-nin təşkilatçılığı ilə keçirilən Ümumdünya Şəhərsalma Forumu qlobal miqyasda şəhərsalma, dayanıqlı şəhər inkişafı, iqlimə davamlı infrastruktur, sosial inklüzivlik və innovativ idarəetmə modelləri kimi aktual məsələlərin müzakirə olunduğu ən nüfuzlu platformalardan biridir. Belə bir mötəbər tədbirin Bakıda təşkil edilməsi Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, eyni zamanda ölkəmizin qlobal çağırışlara verdiyi töhfəyə bariz nümunədir.

Birlik sədri qeyd edib ki, COP29 zamanı əldə olunan təcrübə və formalaşmış əməkdaşlıq modeli WUF13 çərçivəsində də uğurlu nəticələrin əldə olunmasına zəmin yaradır.

"COP29 çərçivəsində Azərbaycan vətəndaş cəmiyyəti institutları, o cümlədən proseslərə koordinasiya və institusional dəstək verən qurumlar tarixə düşən təşəbbüslərlə çıxış etdilər. QHT-lər beynəlxalq tərəfdaşlarla birgə layihələr reallaşdırdı, müxtəlif panel müzakirələrində fəal iştirak etdi və ölkəmizin mövqeyini layiqincə təqdim etdi. Bu gün həmin uğurların müsbət təsiri həm beynəlxalq əlaqələrin genişlənməsində, həm də yerli institusional inkişafda aydın şəkildə müşahidə olunur.

WUF13 Azərbaycan QHT-ləri üçün yeni tərəfdaşlıqların qurulması, beynəlxalq şəbəkələrə inteqrasiya və milli prioritetlərin qlobal müstəvidə təqdim olunması baxımından mühüm platformadır. Bu forum çərçivəsində Azərbaycan qeyri-hökumət təşkilatları istər müsəlman dünyası, istər türk dünyası, istərsə də Qərb ölkələri ilə əməkdaşlığın yeni mərhələsini başlada bilərlər. Xüsusilə şəhərsalma, dayanıqlı inkişaf, insan hüquqları, inklüziv mühit və ictimai iştirakçılıq kimi istiqamətlərdə təcrübə mübadiləsi böyük əhəmiyyət daşıyır", - deyə Nadir Azəri vurğulayıb.

O bildirib ki, rəhbərlik etdiyi təşkilat WUF13 çərçivəsində iki ayrıca tədbirin təşkili ilə bağlı rəsmi təqdimatla müraciət edib: "Əgər müvafiq beynəlxalq qurumlar, o cümlədən BMT strukturları təşəbbüslərimizi dəstəkləsə, biz həm Azərbaycan, həm türk dünyası, həm də qlobal ictimaiyyət üçün əhəmiyyətli məzmun daşıyan iki tədbirin təşkilatçısı qismində çıxış edə bilərik. Hazırda təklif olunan tədbirlərin detalları üzərində iş aparılır və beynəlxalq tərəfdaşlarla məsləhətləşmələr davam edir. Biz çalışırıq ki, təqdim edəcəyimiz təşəbbüslər həm qlobal gündəliyə uyğun olsun, həm də Azərbaycanın milli maraqlarını, regional reallıqları və vətəndaş cəmiyyətinin baxışlarını əks etdirsin".

Sonda birlik sədri vurğulayıb ki, BMT-nin Şəhərsalma Konfransı Azərbaycan QHT-ləri və ümumilikdə vətəndaş cəmiyyəti üçün növbəti mühüm imtahan mərhələsidir.

"Azərbaycan qeyri-hökumət təşkilatları artıq beynəlxalq platformalarda formalaşmış təcrübəyə, institusional imkanlara və peşəkar kadrlara malikdir. Heç bir şübhə yoxdur ki, əvvəlki proseslərdə olduğu kimi, bu dəfə də vətəndaş cəmiyyəti nümayəndələri ölkəmizi layiqincə təmsil edəcək, beynəlxalq ictimaiyyət qarşısında konstruktiv və məsuliyyətli mövqe nümayiş etdirəcəklər", - deyə CASCFEN sədri əlavə edib.

# Milli mücadilə, yaxud milli xəyanət

**Hakimiyyət uğrunda sivil və ləyaqətli mübarizə müasir dövlətçilik fəlsəfəsinin təməl prinsiplərindən hesab olunur. Dünyanın mədəni, inkişaf etmiş, yüksək həyat standartlarına nail olmuş ölkələrinin əksəriyyəti haqqında qeyd etdiyimiz demokratik seçimin bariz nümunələridir. Azərbaycanın müasir, möhtəşəm qələbələrlə zəngin tarixində Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının yaradılması ilə başlayan demokratik və ləyaqətli müxalifətçilik hərəkatı xüsusi yer tutur. 1993-cü ildə ədalətli və xalqın iradəsinə əsaslanan seçkilərin keçirilməsi yolu ilə bu dahi şəxsiyyətin Azərbaycan Respublikasının Prezidenti seçilməsi son 33 il ərzində ölkəmizin əzəmətli yüksəlişinin əsasını təşkil edən həlledici siyasi amil rolunu oynamışdır.**



## Azərbaycanın inkişafının demokratiya amili

1990-cı illərin əvvəllərində hakimiyyət uğrunda qaydasız mübarizələr, məqsədli şəkildə yaradılan siyasi böhranlar və talatümlər, ölkənin taleyinin siyasi rəqabətə qurban verilməsi yenicə müstəqilliyini qazanmış ölkədə müxalifətçilik anlayışının və praktikasının əsas məğzini təşkil edirdi. Ölkə maraqlarının hakimiyyət ehtiraslarının obyektinə çevrilməsindən ibarət olan təhlükəli müxalifətçilik ənənələri ardıcıl hakimiyyət çevrilişləri, separatizmin baş qaldırması, Ermənistanın hərbi təcavüzünə qarşı müqavimət gücünün zəifləməsi, iqtisadi tənəzzül və xalqın sosial vəziyyətinin kəskin şəkildə pisləşməsi ilə müşayiət olunurdu. Sadalanan qeyri-sağlam və xəyanətkar siyasi rəqabət fonunda Heydər Əliyevə olan dərin xalq inamı və Yeni Azərbaycan Partiyasının sağlam müxalifətçilik məfkurəsi 1993-cü ildə Azərbaycanda yeni siyasi dövrün əsasını qoyan demokratik prezident seçkiləri ilə nəticələndi. Ölkədə yeni siyasi mədəniyyət, normal demokratik siyasi rəqabət mühiti formalaşdı, aramsız dövlət çevrilişlərinə son qoyuldu, rəqabət mübarizəsində milli maraqlardan vasitə kimi istifadə edilməsi cəhdləri qətiyyətlə aradan qaldırıldı.

Sübut etməyə ehtiyac yoxdur ki, sağlam rəqabət mübarizəsi və dərk edilən siyasi azadlıqlar inkişafa xidmət edən əsas amillərdəndir. Lakin dövlət maraqlarının hakimiyyət ehtirasları obyektinə çevrilməsi, demokratiyanın anarxiya libasında təqdim edilməsi, hakimiyyət uğrunda mübarizənin şəxsi və ya qrup maraqları çərçivəsi ilə məhdudlaşdırılması milli maraqların reallaşması qarşısında ciddi əngələ çevrilir, vətəndaş qarşıdurmasını pik həddinə çatdırır. Heydər Əliyevin müdrikliyi və səyləri nəticəsində fasiləsiz hakimiyyət uğrunda mübarizə və çevrilişlər mərhələsi sivil siyasi münasibətlər mərhələsi ilə əvəzləndi, bütün diqqətin ölkənin təhlükəsizlik, iqtisadi və sosial inkişaf məsələsinə yönəldilməsinə imkan yaradılmış oldu. Qeyd edə bilərəm ki, Azərbaycanda demokratiyanın, siyasi sabitliyin və hakimiyyətin dayanıqlığının ilk parlaq ifadəsi özünün təsdiqini 1994-cü ildə "Əsrin müqaviləsi" adı ilə tarixə düşmüş neft sazişinin imzalanmasında tapır. Səbəbləri isə çox sadədir. Qeyri-demokratik, qeyri-sabit və zəif hakimiyyətlərin mövcud olduğu ölkələrə böyük xarici sərmayə qoyulması təcrübəsi dünya tarixində müşahidə olunmayan reallıqlar sırasında yer alır.

Ölkəmizin demokratik və müstəqil inkişafının digər əlamətdar göstəricilərini isə Azərbaycanın iqtisadi yüksəlişi, müasirləşməsi, xalqın rifahının ciddi şəkildə yaxşılaşması, İkinci Qarabağ müharibəsində mohtəşəm qələbənin qazanılması və torpaqlarımızın işğaldan azad olunması, habelə digər tarixi nailiyyətləri uğurla tamamlayır.

## Müxalifətçiliyin deqradasiyası: xarici maraqların ucuz aləti

Sağlam dəyərlərə söykənməyən, yalnız şəxsi maraqlara və hakimiyyət ehtiraslarına istinad edən müxalifətin deqradasiyası ayrı-ayrı ölkələrin təcrübəsində dəfələrlə sübuta yetirilib. Bunun səbəbi təkcə hansısa müxalifət qrupun dayaqlarını itirməsi deyil, daha çox onun milli maraqlar yolundan saparaq milli xəyanət bataqlığına düşməsi, kənar maraqların alətinə çevrilməsi hesab olunur. Yaxın və ən yaxın tarix belə faktlarla zəngin olub, indiki nəsillərə xəyanət yolu tutmuş müxalifətin ölkəyə və xalqa vurduğu yaralara dair ibrətamiz materiallar verir. Milli xəyanətin qurbanı olan dövlətlərdə vurulan ziyanın aradan qaldırılmasına nəinki illər, hətta on illərin sərf olunduğu da yaxşı məlumdur. Maraqlı xarici dairələrin maliyyə yardımı ilə dövlət çevrilişinə nail olan bolşevik inqilabının Rusiyaya, onun iqtisadiyyatına, insani potensialına vurduğu inanılmaz yaraları bu ölkənin rəsmi dairələri və tədqiqatçıları indi açıq şəkildə etiraf edirlər. O cümlədən bolşeviklərin lideri Vladimir Leninin Almaniyanın maliyyə dəstəyi ilə inqilabi fəaliyyətlə məşğul olması da artıq təsdiqini tapmış tarixi faktdır. XIX əsrin əvvəllərində dünyanın ən qüdrətli dövlətlərindən sayılan Rusiya imperiyasının qanlı vətəndaş müharibəsini yaşamağa məhkum edilməsi, iqtisadiyyatının demək olar ki, bütünlüklə çökməsi məhz bolşevik inqilabının dağıdıcı yekunları hesab olunur. Keçmiş Rusiya imperiyasının varisi olan SSRİ bu ölkənin 1913-cü ildəki iqtisadi göstəricilərini düz 70 ildən sonra, 1980-ci illərdə bərpa edə bildi. Vətəndaş müharibəsi, aclıq, qırmızı terror nəticəsində 8 milyondan 13 milyonadək əhali qətl edildi, aclıqdan öldü və ya ölkəni tərk etməyə məcbur oldu. Dünyanın ən böyük işgəncə və ölüm düşərgəsi də ilk dəfə bu ölkədə yaradıldı.

1936-cı ildə İspaniyada Fransisko Frankonun rəhbərliyi altında başlayan üsyan bu ölkədə qanlı vətəndaş müharibəsinin əsasını qoydu. Hitlerin Almaniyadan göndərdiyi 150 min, Mussolininin isə İtaliyadan göndərdiyi 30 min hərbçinin dəstəyi ilə qurulan Franko diktaturası 450 min ispan vətəndaşının qətli ilə nəticələndi. Bu isə İspaniyanın ozamankı əhalisinin təxminən 2 faizi demək idi. Faktiki olaraq İspaniyada Franko diktaturası ölkənin hər 50 nəfərindən birinin qətlinə hökm vermişdi.

Azərbaycanın müasir tarixi də müxalifətin müəyyən hissəsinin bu tipli xəyanətlərindən xali deyil. 2013-cü ildə kənardan ötürülən maliyyə və təlimatlarla yaradılan və " Milyarderlər İttifaqı" adlandırılan hərəkat ayrı-ayrı müxalifətçi qruplaşmaların milli xəyanət yolu seçmələrinə dair təkzibedilməz fakt sayıla bilər. Yalnız Azərbaycan xalqının qəti mövqeyi və ölkənin sağlam qüvvələrinin milli maraqlar ətrafında sıx birləşməsi məkrli qüvvələrin çirkin niyyətlərinin reallaşmasına aşılmaz maneəyə çevrildi.

Xarici maraqlı qüvvələrin Azərbaycanda sabitliyi pozmaq cəhdlərinin başa çatdığını, ayrı-ayrı müxalifət qruplarının isə milli xəyanət niyyətlərindən əl çəkdiyini düşünmək isə sadəlövhlük olardı. Bir neçə ay bundan əvvəl Ramiz Mehdiyevin və Xalq Cəbhəsi Partiyası rəhbərliyinin bir sıra nümayəndələrinin aşkar edilən dövlət çevrilişi və hakimiyyəti zorla ələ almaq planları xəyanət cəhdlərinin kökünün tam kəsilmədiyindən xəbər verir. Bütün siyasi xəyanətlərdə olduğu kimi, yenə də xarici iz, xarici təlimatlar, sinxron fəaliyyət bu çirkin əməllərin ayrılmaz tərkib hissəsi kimi müşahidə olunmaqdadır.

## Milli xəyanətin köhnə (yeni) forması: siyasi mühacirət

Dövlətlərin daxili işlərinə müdaxilə etməyin çoxsaylı metodları sırasında dağıdıcı müxalifətin ələ alınması, maliyyələşdirilməsi, təlimatlandırılması və beləliklə də, xarici maraqların alətinə çevrilməsi tarixən geniş yayılmış siyasi mübarizə üsullarındandır. Azərbaycanın geosiyasi imkanları təbii olaraq onu qlobal güclərin və dairələrin diqqət mərkəzində saxlayır.

Azərbaycanın milli maraqları ilə dağıdıcı müxalifətin müəyyən qruplarının maraqları arasında mövcud olan ziddiyyətlər ən azından iki arzuolunmaz halın meydana çıxmasında özünün ifadəsini tapır:

a) *müxalifət qeyri-sağlam maraqların və ambisiyaların əsirinə çevrilir, nəticədə dövlət maraqları ilə bir araya sığmayan davranışlar sərgiləyirlər;*

b) *hakimiyyət ambisiyalarını reallaşdırmağa yetərli olmayan imkanlarını (sosial dəstəyini) xarici maraqlı güclərin hesabına artırmağa çalışaraq onlarla işbirliyinə gedirlər.*

Müxalifətin xalqın dəstək vermədiyi hakimiyyət ambisiyalarını reallaşdırmaq xatirinə xarici maraqlı dairələrlə işbirliyi yaradaraq onların əlində alətə çevrilməsinin milli xəyanətdən başqa adı yoxdur. Onların dövlətə xəyanət yolu seçməsi ölkənin daxilində İspaniyada Franko qiyamından miras qalmış "beşinci kalon" missiyasını yerinə yetirmək və ya siyasi mühacirət fəaliyyəti formalarında reallaşır.

Xalqın ictimai dəstəyindən məhrum olan dağıdıcı müxalifətin bir qismi Ramiz Mehdiyevin və onun ətrafında toplaşanların timsalında "beşinci kalon" rolunu oynayır, azsaylı digər qismi isə siyasi mühacir statusunda antimilli xislətini davam etdirir. Şübhə yoxdur ki, müxalifətin qeyd olunan hər iki qanadı nə qədər maskalansa da, sinxron fəaliyyət göstərir, eyni mərkəzdən idarə olunduqlarını gizlədə bilmir və ya heç gizlətmək də istəmirlər.

Ayrı-ayrı dövlətlərin xüsusi xidmət orqanlarının çətiri, bəzən də açıq müdafiəsi altında çalışan mühacir müxalifətinin bütün səyləri Azərbaycanın imicinə ləkə vurmaq, onun beynəlxalq etimad resurslarını sarsıtmaq, ölkə əhalisi arasında dezinformasiyalar yaymaq kimi pozucu fəaliyyətə yönəlib. Ölkəmizin artan beynəlxalq nüfuzu rəqib regional güclərin anti-Azərbaycan təbliğatının intensivliyi ilə müşayiət olunur. Bu çirkin təbliğatın ön sırasında Azərbaycanın mühacirətə olan "müxalifətinin" ayrı-ayrı nümayəndələrinin xüsusi fəallığı hər bir vətəndaşı dərindən təəssüfləndirir və narahat edir.

Prezident İlham Əliyevin yüksək beynəlxalq fəallığı və artan şəxsi hörməti istər-istəməz onu Azərbaycana qarşı qısqanclığın və rəqabətin mərkəzi obyektinə çevirib. O, bütün sanballı beynəlxalq tədbirlərin arzuolunan qonağı kimi nəzərdən keçirilir, ən ali toplantılarda böyük hörmət və ehtiramla qarşılanır. Bu baxımdan Prezident İlham Əliyev, onun ailəsi anti-Azərbaycan təbliğatının əsas hədəfi olaraq seçilib. Təsadüfi deyildir ki, antimilli dairələrin xəyanət kampaniyası açıq-aydın anti-Əliyev mahiyyəti kəsb etmişdir. Anti-Azərbaycan təbliğatına ayrı-ayrı maraqlı dairələrdən ayrılan vəsaitin və diqqətin mütləq əksəriyyəti Prezidentə və onun ailəsinə qarşı çirkin və mənəviyyatdan kənar yalan və böhtanlar uydurulmasına yönəlir.

Bu ünsürlərin yalan və böhtan kampaniyasının səmərəsizliyindən narahatlıq keçirən sponsorlar, görünür, daha açıq anti-Azərbaycan təxribatına start vermək qərarına gəliblər. Biz bunun aydın təzahürlərini Münxen Təhlükəsizlik Konfransında və Vaşinqtonda Sülh Şurasının iclası zamanı müşahidə etdik. Lakin həmişəki kimi Azərbaycanı rüsvay etmək istədilər, yekunda özləri biabır oldular.

Milli xəyanət yolunu seçənlər bir şeyi unudurlar. Unudurlar ki, İlham Əliyevin artan beynəlxalq nüfuzuna, ona olan böyük hörmət və ehtirama bəsitcəsinə uydurulan yalan və böhtanlarla kölgə salmaq mümkün deyil.

*İlham Əliyevin adı, əməlləri, tarixi xidmətləri azad olan torpaqlarımızdır, cənnətə çevrilməkdə olan Qarabağ və Şərqi Zəngəzurdur, Qalib Azərbaycan və Qəhrəman Azərbaycan xalqıdır. Bunlar isə nəinki ölkəmizin bu günüdür, eyni zamanda əbədiyyət, əbədiyaşarlıqdır.*

***Əli ƏHMƏDOV,***
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini***

# C6 formatı Xəzərin iki sahilini vahid məkanda birləşdirəcək

**Azərbaycan və Mərkəzi Asiya dövlətləri ortaq tarixi köklərə dayanaraq birgə gələcəyi inşa edirlər. Bakıdan Daşkəndə, Astanadan Aşqabada uzanan əməkdaşlıq xətti Xəzər hövzəsini dünyanın ən stabil mərkəzlərindən birinə çevirmək məqsədi daşıyır. Keçmişin Böyük İpək Yolunun əsas mərkəzləri olan Azərbaycan və Mərkəzi Asiya ölkələri tarixi irsi müasir iqtisadi reallıqlarla zənginləşdirərək ortaq gələcəyin təməllərini atırlar. Orta dəhliz və Zəngəzur dəhlizi kimi nəhəng layihələr bu dövlətlərin iqtisadi tale birliyini şərtləndirən amillərdir. Bu birlik həm də regionun beyin mərkəzləri tərəfindən formalaşdırılır və bölgənin gələcək inkişaf modelini müəyyən edən dialoq platformaları ön plana çıxır.**



Fevralın 18-də Bakıda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə "C6: Vahid region, ortaq gələcək strateji dialoqun gücləndirilməsi" mövzusunda keçirilən beynəlxalq konfrans da bu prosesin tərkib hissəsidir. Beynəlxalq tədbirdə C6-ya üzv ölkələrin aparıcı beyin mərkəzlərinin nümayəndələri də daxil olmaqla, ümumilikdə 60-a yaxın iştirakçı təmsil olunub. Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Tacikistanın yer aldığı C6 formatında əməkdaşlığının iqtisadi ölçüsü barədə müzakirələr aparılıb. Vurğulanıb ki, tədbirin təşkil olunmasında məqsəd Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında strateji dialoqun dərinləşdirilməsi, ortaq yanaşmaların formalaşdırılması və regionun dayanıqlı inkişafına töhfə verəcək əməkdaşlıq mexanizmlərinin təşviq edilməsidir. Qeyd olunub ki, Mərkəzi Asiya Azərbaycan üçün yalnız Xəzər qonşusu deyil, həm də tərəfdaşdır. Ortaq tarix və zəngin mədəni irs mühüm əsas yaratsa da, bugünkü əməkdaşlığı fərqləndirən başlıca amil geoiqtisadiyyat, yəni enerji, nəqliyyat, logistika və infrastruktur sahələrində əməkdaşlıqdır.

Azərbaycanın bu prosesdəki rolu təkcə tranzit ölkə olmaq deyil, həm də Mərkəzi Asiyanı Qafqazla birləşdirən körpü və ideoloji mərkəz rolunu oynamaqdır. 2025-ci ilin noyabrı bu baxımdan yeni bir inteqrasiya erasının başlanğıcı kimi qeyd olunur. Məlum olduğu kimi, ötən il noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü keçirildi və həmin görüş çərçivəsində əlamətdar hadisə baş verdi. Uzun illər "5+1" formatında müzakirə edilən Mərkəzi Asiya birliyi Daşkənd zirvəsində tarixi bir transformasiya yaşayaraq "C6" modelinə keçid etdi. Görüş çərçivəsində Azərbaycanın tamhüquqlu üzv qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşulmasına dair prinsipial qərar qəbul edildi.

Azərbaycanın qonşu coğrafiyada yerləşən ölkələrin dövlət başçılarını bir araya gətirən Məşvərət Görüşü formatına tamhüquqlu üzv qismində qoşulması sıradan bir hadisə deyil. Bu, Xəzərin iki sahilinin vahid strateji məkana çevrilməsidir. Eyni zamanda Bakının təkcə Cənubi Qafqazda deyil, bütövlükdə Avrasiyanın mərkəzində həlledici güc mərkəzinə çevrildiyinin təsdiqidir. Bu üzvlük Mərkəzi Asiya ölkələrinin liderlərinin Azərbaycana və onun Prezidentinə olan sarsılmaz inamının göstəricisidir. Bunu Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə liderlərin ifadə etdikləri fikirlərdən də görmək mümkündür.

Bakının formalaşdırdığı yeni geostrateji reallıqlar Mərkəzi Asiya ölkələrinin Avropa bazarlarına inteqrasiyasını sürətləndirib.

Azərbaycan və Mərkəzi Asiya regionu hazırda qlobal kommunikasiya oxlarının, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin kəsişdiyi əsas qovşaq rolunu oynayır. Xüsusən Bakının regionda yaratdığı yeni reallıqlar nəticəsində Cənubi Qafqaz və Mərkəzi Asiya regionları arasındakı münasibətlər strateji intibah dövrünü yaşayır. Bu iki regionu birləşdirən əsas amil, sadəcə, coğrafi yaxınlıq deyil, həm də Qərb-Şərq arasında ən qısa və təhlükəsiz quru yolunu formalaşdırmaq ehtiyacıdır. Bu gün regionlar arasındakı əlaqələrin onurğa sütunu Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) hesab olunur. Orta dəhliz vasitəsilə Çindən gələn yüklər Qazaxıstan və Türkmənistan vasitəsilə Xəzər dənizinə, oradan Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya çatdırılır. Okean yolu ilə daşımalar 30-45 gün çəkdiyi halda, Orta dəhliz vasitəsilə Çindən Avropaya yüklər cəmi 12-15 günə çatdırılır. Şimal dəhlizindəki (Rusiya üzərindən) geosiyasi gərginliklər və Süveyş kanalındakı risklər fonunda bu marşrut ən sabit alternativ hesab olunur.

Xüsusən rəqəmsallaşma çərçivəsində gömrük-keçid prosedurlarının sadələşdirilməsi sürəti daha da artırır. 2023-2025-ci illər ərzində Orta dəhliz üzrə yükdaşımaların həcmində kəskin artım müşahidə olunub. Təkcə Qazaxıstan və Azərbaycan arasındakı tranzit həcmi əvvəlki illərlə müqayisədə 60-80 faiz civarında yüksəlib. Zəngəzur dəhlizinin açılması bu zəncirin son çatışmayan halqası kimi görülür. Bu dəhliz reallaşarsa, Orta dəhlizin keçiricilik qabiliyyəti və rəqabət gücü əhəmiyyətli dərəcədə artacaq.

Eynilə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi də regionlararası tranzitin ən mühüm halqasıdır və yükdaşıma müddətini dəniz yoluna nisbətən 2-3 dəfə qısaldır. BTQ-nin ən böyük üstünlüklərindən biri Türkiyədəki Marmaray tuneli vasitəsilə Bosfor boğazını keçərək birbaşa Avropanın dəmir yolu şəbəkəsinə inteqrasiya olunmasıdır. Bu, yüklərin qatardan boşaldılmadan birbaşa Londona qədər getməsinə imkan verir. Bu marşrut, sadəcə, Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirmir, həm də Mərkəzi Asiya ölkələri üçün dünya bazarlarına çıxışda alternativsiz quru yolu təqdim edir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə (Ələt) Aktau və Kurık limanları arasında daşımaların həcmi hər il həndəsi silsilə ilə artır. Xəzər dənizi üzərindəki bu "liman üçbucağı" Avrasiya logistikasının ən dinamik bəndinə çevrilib. Hazırda ən böyük hədəf limanlararası daşımalarda konteynerləşmə dərəcəsini artırmaqdır. Mərkəzi Asiya enerji resurslarının da Cənubi Qafqazın boru kəməri infrastrukturu ilə dünya bazarına çıxarılması müzakirə olunan əsas mövzulardan biridir. Bununla yanaşı, Azərbaycanın Mərkəzi Asiya birliyinə C6 formatında tamhüquqlu inteqrasiyası türk dünyasının coğrafi bütövlüyünü təmin edən tarixi bir missiyadır.

Beləliklə, Xəzərin hər iki sahilində canlanan bu nəqliyyat və enerji arteriyaları regionu nəhəng iqtisadi ekosistemə çevirməkdədir. Bakıdan Londona, Çindən Avropaya uzanan bu dəhlizlərdə Azərbaycanın açar ölkə statusu olması illərdir yürüdülən uzaqgörən siyasətin məntiqi yekunudur.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycan dövləti bütün təhdidləri zərərsizləşdirəcək güc və imkana sahibdir

**Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərindən sonra yaratdığı hərbi-siyasi reallığın qəbul edilməsində çətinlik çəkən, regionda öz maraqlarını bərabərhüquqlu əsaslarla təmin etmək istəməyən, lakin istər döyüş meydanında, istər diplomatik müstəvidə məğlub olaraq ölkəmizin tezisləri qarşısında geri çəkilməli olan qruplar hesab edirlər ki, respublikamızın üzərində təsir rıçaqları yalnız milli iradənin hakimiyyətdən kənarlaşdırılması yolu ilə mümkündür. Lakin məsələ burasındadır ki, ölkəmizdə xalq-iqtidar birliyi kifayət qədər monolit xarakter daşıyır və xüsusən Vətən müharibəsi və antiterror tədbirlərindən sonra xalqımız Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək, dövlət başçımıza yalnız ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycanı layiqinlə təmsil edən, xalqın vahidliyini təcəssüm etdirən, dövlətçiliyin varisliyini təmin edən, bütövlükdə milli mövcudiyyətin qarantı kimi baxır.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, bu reallıqlara qəbullana bilməyənlər, Azərbaycanı işğal dövrünün status-kvosuna qaytarmaq istəyən, eləcə də ölkəmizdə marionetləri hakimiyyətə gətirib milli sərvətləri və Prezident İlham Əliyevin sayəsində dividendə çevrilmiş coğrafi mövqeyi istismar etməyə çalışanlar və onlara bağlı beyin mərkəzləri də bu reallığı yaxşı görür: "Bu mənada, öz resurslarından, eləcə də onlara müticəsinə xidmət edən yerli muzdlulardan, özünü siyasətçi adlandıran, ləyaqətini itirmiş ünsürlərdən mövcud situasiyanın dəyişdirilməsi üçün tam gücü ilə istifadə etmək istəyir. Lakin məsələ burasındadır ki, Azərbaycan xalqı reallıqları heç də qeyd olunan beyin mərkəzlərindən pis görmür və kənar güclərin bu istiqamətdə səyləri, bir qayda olaraq, biabırçı fiasko və təkzibedilməz məğlubiyyətlə başa çatır. Görünən odur ki, imperialist dairələr hələ də niyyətlərindən əl çəkməmiş, xüsusən ölkə daxilində Ramiz Mehdiyev-Əli Kərimli kimi ünsürlərin simasında dayaqları ifşa edildikdən sonra xeyli müddətdir ki, start verilən söyüş müxalifətçiliyinin əsas daşıyıcılarını, xaricdə siyasi sığınacaq verilərək təşkilatlandırılan və anti-Azərbaycan məqsədlərlə istifadə olunan ünsürləri dövriyyəyə soxmaq qərarına gəliblər".

Deputat qeyd edib ki, Vaşinqtonda Sülh Şurasının iclasından sonra Prezident İlham Əliyevə qarşı təxribatlar törətməyə çalışan başıpozuq dairə də məhz bu çərçivədə əraziyə gətirilib, onlara verilən dağıdıcı gündəlik əsasında hərəkət ediblər. Analoji ssenari daha öncə müxtəlif liderlərə qarşı fərqli zamanlarda tətbiq olunub. Ən son Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana qarşı oxşar hücum təşkil edilib və prosesə mane olmaq üçün öz peşə vəzifələrini həyata keçirən təhlükəsizlik xidmətinin əməkdaşlarına qarşı demokratlar iqtidarı dövründə cinayət işi qaldırılmışdı. Bu da dövlətlərarası münasibətlərin çox gərgin bir mərhələyə qədəm qoymasına gətirib çıxarmışdı. Lakin Azərbaycan Prezidentinin Təhlükəsizlik Xidmətinin peşəkar davranışı, o cümlədən əvvəlcədən Amerika polisi ilə koordinasiyalı fəaliyyəti ortada hüquqi boşluğa yer qoymamış, siyasi əxlaqını və milli mənliyini, habelə fərdi şəxsiyyətini itirmiş, daha doğrusu, satmış ünsürlərin niyyətləri yerindəcə hüququn aliliyi və qanun qarşısında hər kəsin bərabərliyi şəraitində boğulmuşdur. "Heç şübhəsiz ki, Vaşinqtonda uğursuz təxribat cəhdləri anti-Azərbaycan dairələr üçün uzun bir dövr ərzində unuda bilməyəcəkləri fiasko hesab olunmalıdır. İlk növbədə ona görə ki, bu təxribat əvvəlcədən düşünülmüş və sistemli hala gətirilmiş, həmçinin iştirakçıları əslən Azərbaycandan olan, lakin olmayan mənəviyyatlarını çoxdan satmış ünsürləri də təlimatlandırmaqla qarşıya iki mühüm vəzifə qoyulmuşdu. Birincisi, hazırda özünün yüksəliş dönəminə qədəm qoymuş ABŞ-Azərbaycan münasibətlərində gərginlik yaratmaq, ikincisi, cənab İlham Əliyevə münasibətdə hücumlar təşkil etməklə, o cümlədən canlı yayımda onu hədəfə almaqla Azərbaycan liderinin nüfuzunu, xüsusən qlobal mediada, beynəlxalq ictimaiyyət qarşısında zədələmək. Proseslərin gedişi isə göstərdi ki, Azərbaycan dövləti bütün riskləri proqnozlaşdıra biləcək və bütün təhdidləri zərərsizləşdirəcək güc və imkana sahibdir. Vaşinqtonda bir neçə saniyə ərzində antimilli ünsürlərin zərərsizləşdirilməsi, onların təxribatlarının elə öz əleyhlərinə çevrilməsi bütün hallarda və bütün situasiyalarda təşəbbüsləri lehimizə dəyişəcək imkana sahib olduğumuzu dünyaya nümayiş etdirdi", - deyə deputat əlavə edib.

B.Məhərrəmov bildirib ki, Amerika Birləşmiş Ştatlarının aidiyyəti dairələrinin, o cümlədən ABŞ polisinin məsələyə adekvat reaksiyası anti-Azərbaycan ünsürlərin Bakı-Vaşinqton münasibətlərini zədələmək cəhdlərinin də fiaskoya uğradığını, bu prosesdə özlərinin zərərli çıxması reallığını ortaya qoydu. Düzdür, proseslərin bu cür arzu etmədikləri istiqamətdə axarından sonra feyk informasiya maşınları məsələni öz lehlərinə dəyişməyə cəhd göstərən axın başlatdılar, hətta ABŞ-də anti-Azərbaycan qüvvələrin alətinə çevrilmiş Frank Peloni kimi siyasətçilər məsələni ictimai müstəviyə daşıyaraq, Azərbaycan əleyhinə blok formalaşdırmağa çalışdı. Lakin onun daha öncə Azərbaycan əleyhinə tutduğu qərəzli mövqe, habelə ABŞ ictimaiyyətinin də Peloninin erməni diasporunun yemlədiyi satılmış ünsür olduğunu bilməsi "siyasətçi"nin cəhdlərinin heç bir nəticə verməməsi ilə sonlandı.

Deputat vurğulayıb ki, Vaşinqtonda Azərbaycan Prezidentinə qarşı təxribat cəhdləri təsadüfi hesab oluna bilməz: "Xüsusən imperialist dairələrin Azərbaycan əleyhinə fəaliyyət imkanlarının regionda tam mənada məhdudlaşdırılması, daxildə vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti ilə bağlı qanunvericilikdə həyata keçirilən dəyişikliklər fonunda ölkəmizə qeyri-hökumət təşkilatları vasitəsilə təsir imkanlarının heçə endirilməsi, habelə xarici xüsusi xidmət orqanlarının təlimatları ilə hərəkət edən Mehdiyev-Kərimli kimi ünsürlərin zərərsizləşdirilməsi şəraitində bu kimi addımlar ölkəmiz əleyhinə son uğursuz çırpınışlar hesab oluna bilər".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# İKİƏSRLİK CİNAYƏTLƏRİN ƏDALƏTLİ YEKUN CƏZASI



**İndiki nəsil alman faşizmini keçmiş kino filmlərindən və bədii əsərlərdən tanıyır.**

**Onun XX-XXI əsr davamçısı sayılan erməni faşizminin isə əməllərindən və etdiklərindən şəxsən xəbərdardır!**

*Əvvəla,* Qarabağda və Şərqi Zəngəzurda törədilən vəhşiliklərin və vandallıqların izləri bu gün də qalır, qarət edilərək dağıdılan, yandırılan yaşayış məntəqələrinin, barbarlığa məruz qalan mədəni, dini, tarixi abidələrin, altı üstünə çevrilən qəbiristanlıqların xarabalıqları hələ də durur.

*Televiziya ekranlarına baxan, yaxud Qarabağa səfərə çıxan istənilən adam bütün bunları öz gözləri ilə görə bilər.*

*İkincisi,* "miatsum" ideyası ilə çıxış edən erməni separatçılarının, terrorçularının, Azərbaycanı otuz ilədək işğalda saxlayan Ermənistanın qanunsuz hərbi birləşmələrinin tərkibində bizə qarşı vuruşanların, soyqırımlarının iştirakçılarının, "dqr" adlı qondarma quruma rəhbərlik edənlərin, "artsax" ordusunda xalqımıza qarşı olmazın vəhşiliklər törədənlərin, əsirlərə və girov düşmüş vətəndaşlara işgəncələr verənlərin, onlarla son dərəcə qəddarcasına rəftar edənlərin Bakıda keçirilən məhkəməsində açıq söhbət getdi, şahid qismində iştirak edən yüzlərlə azərbaycanlı başlarına gətirilən müsibətlər barədə konkret faktlar və hadisələr barədə məhkəməyə ifadə verərkən onlara qarşı törədilən vəhşilikləri, qəddar əməlləri bir-bir söylədilər, saysız-hesabsız misallar çəkdilər.

Həmin işgəncələr nəticəsində, habelə ermənilərin Azərbaycan ərazilərinə çoxsaylı hücumları, raket, mərmi, mina, iriçaplı silahlardan açılan atəşləri nəticəsində əsgər yoldaşlarının həlak olmaları, əzizlərini itirmələri, özlərinin yaralanaraq əlil qalmalarına dair çoxsaylı faktlar göstərdilər.

Bütün bunlar barədə Bakı Hərbi Məhkəməsində bir ildən çox müddətdə gedən məhkəmə prosesində açıq şəkildə danışıldı, şahidlər, sübutlar məhkəməyə təqdim olundu.

Beləliklə, **Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Manukyan, David Babayan, Levon Mnatsakanyan, Vasili Beqlaryan, Erik Qazaryan, Davit Allahverdiyan, Qurgen Stepanyan, Levon Balayan, Madat Babayan, Qarik Martirosyan, Melikset Paşayan** Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilirdilər.

Onlar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurdular.

2023-cü ilin 19-20 sentyabrında Qarabağda keçirilən antiterror tədbirlərindən sonra həbs olunan bu şəxslərin məhkəməsi 2025-ci il yanvarın 17-dən başlayaraq, 2026-cı ilin 5 fevralında sona çatdı.

Cinayət işi üzrə bütövlükdə 531 mindən çox zərərçəkmiş və onların nümayəndələri vardı!

❖ ❖ ❖

Alman faşizmi ötən əsrin otuzuncu illərində Almaniyada hakimiyyəti ələ keçirərək ilk günlərdən militarist siyasəti yürütməyə, İkinci Dünya müharibəsinin alovlarında Avropanı yandıraraq dağıtmağa başladı.

Hitler faşizmi insanlığa qarşı ən ağır cinayətlər törədənlərdən biri sayılır.

Müharibə cəbhəsində törədilən qırğınlardan başqa, onlar insanları ən qəddar və "yeni üsul"larla qətlə yetirmənin "nümunə"lərini də yaratdılar:

ƏSİR GÖTÜRDÜKLƏRİ İNSANLARI:

* Hərbi əsirləri düşərgələrdə ən ağır şəraitdə, yarıac saxlayaraq gecə-gündüz işlədirdilər;
* Onlarla qeyri-insani şəkildə rəftar edir, amansızlıqla döyürdülər;
* Əsirlərdən qaçan olanda yerdə qalanları mühakiməsiz - filansız güllələyirdilər;
* Krematoriya sobaları quraraq ölənləri, bəzən yarımcanları belə orada yandırırdılar;
* İnsanları xüsusi, hermetik kameralara dolduraraq zəhərli qazlarla boğub öldürürdülər;
* İnsanlar üzərində dəhşətli tibbi eksperimentlər aparırdılar;
* Narkozsuz ağır cərrahi əməliyyatlar edirdilər.

**Özlərini ali irq sayan faşistlər digərlərinə heç bir dəyəri olmayan, adi əşyadan seçilməyən münasibət bəsləyirdilər.**

❖ ❖ ❖

*Ermənilər də bu gün ideallaşdırdıqları faşist qardaşlarından fərqlənmirlər və hər iki Qarabağ müharibəsində bunu dəfələrlə əyani şəkildə göstərdilər:*

* İşğal etdikləri Azərbaycana məxsus ərazilərdə etnik təmizləmə apardılar;
* Ələ keçirdikləri silahlı, yaxud mülki insanlara eyni münasibət göstərdilər, işgəncələrə məruz qoydular;
* İnsanları döyə-döyə öldürdülər;
* Ac saxlayaraq, yaralılara heç bir yardım göstərmədən ölümlərinə səbəb oldular;







* Erməni qəbirləri üzərində əsir azərbaycanlıları başlarını kəsərək qətlə yetirdilər;
* Sağlam adamları, hətta uşaqları belə öldürərək daxili orqanlarını transplantasiya etməklə yeni alver növü yaratdılar;
* Mülki girovları geri qaytarmaqdan ötrü sahibindən böyük məbləğdə pul alınmasını adi qaydaya çevirdilər;
* Həm dirilərin, həm də ölmüş insanların kəlbətinlə qızıl dişlərini çıxarıb mənimsədilər;
* Qəbiristanlıqlarımızı dağıtdılar, mərmər başdaşlarını söküb üstündəki yazıları və şəkilləri silərək öz qəbirlərinə qoydular, yaxud Ermənistana aparıb sataraq pul qazandılar;
* Qəbirlərin dəmir cağlarını oğurlayaraq İran bazarlarında satdılar;
* Evlərimizi sökərək əldə olunan dəmir, daş, taxta, şüşə materiallarını İrana apararaq dəyər-dəyməzinə satdılar;
* Qoz meşələrimizi ucdantutma qıraraq parket hazırlamaqla Avropa bazarlarına çıxardılar;
* Meyvə bağlarımızı qırdılar, çaylarımızı zəhərlədilər;
* Faydalı qazıntı yataqlarımızı istismar etdilər, xarici şirkətlərə icarəyə verdilər, qiymətli metalları satıb pula çevirdilər.
* Məscidlərimizi dağıtdılar, orada mal-qara, donuz saxlayaraq dinimizi təhqir etdilər;
* Mədəni, tarixi abidələrimizi, müqəddəs pir və ocaqları yerlə yeksan etdilər;
* Şəhər və qəsəbələrin küçələrini qazaraq su və kanalizasiya borularını çıxardılar, dəmir materialları satsalar da, xəndəkləri açıq qoydular;
* Şüurlu şəkildə urbisid, genosid, ekosid törətdilər.

❖ ❖ ❖

**Bu gün ermənilər faşizmə pərəstiş yolunu tutublar.**

**Ermənistan rəhbərliyi İkinci Dünya müharibəsində Hitler ordusu tərəfində vuruşaraq ruslara, habelə o vaxt sovet ordusunda döyüşən bütün millətlərə, hətta erməniəsilli əsgərlərə belə zərbələr vurub tələfat yaşadan Njdeyə İrəvanda altımetrlik abidə ucaldıb.**

*Erməni xalqı faşist abidəsini daim ziyarət edərək ona ehtiram göstərir, əməllərini təkrar edir, bizə qarşı qisasçılıq hissi bəsləyir.*

**XX əsrin birinci yarısından başlayaraq, Avropanın və bütövlükdə bəşəriyyətin tarixində dərin izlər buraxan faşist hərəkatı və ideologiyası insanların yaddaşında qəddarlıq, zorakılıq, irqçilik və totalitar hakimiyyətin simvolu kimi qalmışdır.**

*Faşistlər tarixin səhifələrinə bir qaranlıq, qanlı, insanlıq əleyhinə cinayətlər toplusu kimi yazılıb.*

*Onların yaratdığı rejimlər milyonlarla insanın faciəsinə, yüzlərlə yaşayış məntəqənin məhvinə səbəb olub.*

Faşist ideologiyası avtoritarizm, totalitarizm, ultramillətçilik və militarizm elementləri üzərində qurulub.

**Faşistlər qeyri-almanları sevmirdilər.**

*Erməni faşistləri də eyni yolla gedərək monoetnik Ermənistan yaratdılar, Azərbaycan xalqına nifrətlərini hər iki Qarabağ müharibəsində və otuzillik işğal dövründə müxtəlif üsul və vasitələrlə, əyani şəkildə nümayiş etdirdilər.*

**Faşizmin sonu Hitlerin məhvi və Nürnberq prosesi ilə başa çatdı.**

Almaniyanın Nürnberq şəhərində 1945-ci il noyabrın 20-dən 1946-cı il oktyabrın 1-dək Beynəlxalq Hərbi Tribunal tərəfindən keçirilən məhkəmə və onun çıxardığı hökmlər dünya ədalət tarixinə yazılmışdır.

Faşist Almaniyasının ali dövlət və hərbi xadimləri üzərində aparılan prosesdə bir vaxtlar Avropa dövlətlərinə və vətəndaşlarına qan udduranlar hərbi əsirləri öldürmək, onlara işgəncələr vermək, mülki əhalini qırmaq, ictimai və şəxsi mülkiyyəti talan etmək, qul əməyi sistemi yaratmaqda və digər cinayətlərdə ittiham edilmişlər.

*Prosesin gedişində 403 açıq məhkəmə iclası keçirilmiş, 116 şahid dindirilmiş, çoxsaylı yazılı ifadələrə və sənədli sübutlara baxılmışdır.*

**Alman faşizminə son qoyulsa da, müxtəlif dövrlərdə və müxtəlif ölkələrin ərazilərində faşizmi müxtəlif formada və adda diriltmək cəhdləri olsa da, həmin dövlətlərdəki sağlam qüvvələrin və dünyanın təpkisi sayəsində qarşısı qətiyyətlə alınmışdır.**

❖ ❖ ❖

*Bakı prosesində fərqli bir cəhət müşahidə olunurdu.*

Burada paralel olaraq Rusiya vətəndaşlığından imtina etmiş, çirkli pulların yuyulması və digər çirkli əməliyyatlarla milyarder olmuş Ruben Vardanyan da mühakimə edilirdi.

**Ruben Vardanyan** 2023-cü il sentyabrın 27-də saxlanılmış və məhkəməsi 2025-ci il yanvarın 17-dən başlamışdır.

**Ruben Vardanyanın qeyri-qanuni şəkildə Azərbaycan sərhədini keçərək Qarabağda peyda olmasını "köhnə ssenari"nin uğursuz təkrarı da saymaq mümkündür.**

*Ruben Vardanyan aldanmış "kəvakib"lərdəndir.*

*Çünki burada uğur qazanacağı təqdirdə Ermənistanın prezidenti seçiləcəkdi!*

Azərbaycanın xalq məsəlində deyildiyi kimi, gəlmişdi kabab iyinə, amma eşşək dağlanmasını gördü!

**Ona əyri yollarla pul qazandıranlar əmr etmişdilər ki, Qarabağa gəlsin, buradakı separatçıları maliyyələşdirərək onlara dəstək dursun, "artsax"ı möhkəmləndirsin, onun prezidenti olsun, sonra "köhnə marşrut"la hərəkət edəcəkdi...**

**Koçaryan və Sərkisyan kimi buradan Ermənistan rəhbərliyinə gedəcəkdi!**

Ermənistana başçılıq edəndə isə köhnə qayda ilə, yəni diaspor və Avropa İttifaqının, ABŞ-nin verdiyi yardımlarla Qarabağda xərclədiklərinin əvəzini çıxacaqdı...

**Gürcüstanda uğurla keçən bu ssenari Azərbaycanda baş tutmadı!**

**"Dəmir yumruq" bütün məkrli planları pozdu!**

*44 günlük müharibədə qazanılan zəfər, ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası "artsax"ı da sarsaq vəziyyətinə saldı, onun təşkilatçılarını və bel bağlayanlarını da!*

**Gözdən pərdə asmaq üçün Rusiya vətəndaşlığından çıxan Vardanyan ortalıqda gülünc vəziyyətdə qaldı.**

Rusiya daha ona arxa dura bilmir!

Nə dərdinə qalıb, indi onun heç nəyidir!

Ermənistan isə yaxın qoymur!

Çünki Ermənistanda çevriliş edərək hakimiyyəti ələ keçirmək niyyətindəydi!

*Azərbaycan isə bu milyardlara sahib ağılsız və alət insana, həm yaşamağa yer verir, həm yeməyə yemək, həm də istədiyi qədər isti çay!*

Özü də "armudu istəkan"da!

Həm də ədalət məhkəməsi qarşısında, şahidlərin iştirakı və ifadələri ilə elədiklərinin hesabını sordu.

Doğrudur, suallara cavab vermədi!

Çünki deyəcək sözü, əməllərinə haqq qazandıracaq faktları, sübutları yox idi!

Cəzası isə qaçılmaz oldu!

**Əməllərini sübut edəcək kifayət qədər şahid ifadələri, sənədlər vardır.**

**Özünü "lallığ"a qoyması mənasız və əhəmiyyətsizdir!**

Hərdənbir hakimlər heyətinə etirazları kimi!

Məhkəmədə kimə, nəyə etiraz etsən, onu faktlarla, dəlillərlə, sübutlarla əsaslandırmalısan!

Bunlar yoxdursa, etiraz da boş şeydir!

Necə ki, oldu!

Nəticə isə ədalətli və törədilən əməllərə müvafiqdir: 20 illik həbs cəzası!

*(Ardı var)*

**Bəxtiyar SADIQOV**



# Milli dirçəlişdən mütləq Zəfərə

## Suverenliyimizin ilk sınağı olan 1988-ci ilin fevralından böyük Qələbəyə gedən yol

**Azərbaycanın müasir dövlətçilik tarixi həm böyük faciələrin, həm də sarsılmaz qəhrəmanlığın vəhdətindən ibarətdir. 1988-ci ilin fevralında başlayan hadisələr sadəcə ərazi münaqişəsi deyil, bütöv bir xalqın varlığına, suverenliyinə və mənəviyyatına qarşı yönəlmiş sistemli hücum idi. Həmin il fevralın 22-si Azərbaycanın müasir tarixinə suverenliyimizə qarşı açılan ilk atəş günü kimi həkk olundu. O məşum tarixdə xalqımız Ermənistanın haqsız ərazi iddiaları və xəyanətkar siyasəti ilə üz-üzə qaldı. Lakin 35 illik bu çətin və keşməkeşli yol 2023-cü ildə Xankəndinin Zəfər meydanında ucaldılan bayrağımızla öz məntiqi və möhtəşəm zirvəsinə çatdı.**

Bəli, bu gün Xankəndidə dalğalanan bayrağımız 1988-ci ildə atılan ilk xain atəşə verilən ən qətiyyətli və əbədi cavab, Azərbaycan xalqının öz qanı və canı bahasına əldə etdiyi tarixi ədalət oldu.

Prezident İlham Əliyevin Xankəndinin Zəfər meydanından dünyaya bəyan etdiyi kimi: "Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

### Erməni şovinizminin növbəti mərhələsi

Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş planların kökü hələ 100 il əvvələ - 1923-cü ilə dayanır. O zaman heç bir tarixi və siyasi əsası olmadan yaradılan Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) ilə regionda gələcək münaqişələrin təməli qoyuldu. DQMV regionun bağrına sancılmış bir xəncər oldu.

Əvvəlcə Şuşa şəhəri, sonradan isə daşnak, xalqımızın qanına susamış Stepan Şaumyanın adı verilən və əhalisinin böyük əksəriyyəti azərbaycanlılar olan Xankəndi qurumun mərkəzi olmuş, kənardan gəlmələrin hesabına getdikcə bu sahədə ermənilərin sayı çoxalmağa başlamışdı. Bütün idarəetmədə rəhbərlik ermənilərə məxsus olmuş, azərbaycanlıların sıxışdırılmasına başlanmışdı. Əslində, DQMV-nin yarandığı vaxtlardan etibarən zaman-zaman Ermənistana birləşdirilməsi məsələsinə cəhd edilmiş, amma bu, 1988-ci ildə daha açıq müstəviyə keçirilmişdi. Xüsusilə 1987-ci ildə Ulu Öndər Heydər Əliyevin vəzifədən uzaqlaşdırılması erməni şovinistləri üçün "fürsət pəncərəsi" açmışdı. Onlar dərhal iqtisadi geriliyi bəhanə gətirərək separatçılıq toxumları səpməyə başladılar. Məsələ qaldırdılar ki, DQMV Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilsin. Bu məsələni ilk dəfə erməni millətçisi A.Aqambekyan Fransa qəzetlərinin birinə müsahibəsində söyləmişdi və Azərbaycanın Qarabağ bölgəsinin iqtisadi cəhətdən Ermənistana birləşdirilməsinin daha faydalı olacağını bildirmişdi.

Aqambekyan kimilərin xarici mətbuatda səsləndirdiyi iddialar, əslində, ikiəsrlik erməni şovinizminin növbəti mərhələsi idi.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Sərsəng və Suqovuşan su anbarlarının tikilməsi, Ağdamdan Xankəndiyə dəmir yolu çəkilməsi, Xankəndidə ali məktəb və fabriklərin açılması bölgənin dirçəlişinə xidmət edirdi. Həmin dövrdə Qarabağ Azərbaycanın ən inkişaf etmiş bölgələrindən biri idi.

Buna görə də ermənilərin "iqtisadi gerilik" iddiası sadəcə işğalçılıq niyyətlərini pərdələyən yalan idi.

### Münaqişənin ilk qurbanları

1988-ci il fevralın 13-dən Xankəndinin mərkəzi meydanında ermənilərin fasiləsiz mitinqləri başlamış və proses fevralın 20-nə qədər kütləvi şəkildə davam etdirilmişdi.

Fevralın 20-də isə ermənilər DQMV-nin İcraiyyə Komitəsinin sessiyasını çağıraraq azərbaycanlı deputatların iştirakı olmadan qərar qəbul etmişdilər ki, bu vilayət Azərbaycanın tərkibindən çıxır və Ermənistana birləşdirilir. Bu bədnam qərara və ermənilərin azğın davranışlarına görə etirazlarını bildirmək üçün 1988-ci il fevralın 22-də Əsgəran rayonu ərazisində Ağdam və Əsgəran rayon sakinləri dinc nümayiş keçirmişdilər. Həmin zaman ermənilərin atəş açması nəticəsində Ağdam şəhərinin sakinləri - iki azərbaycanlı gənc Əli Hacıyev və Bəxtiyar Quliyev qətlə yetirilmişdi.

Əli Hacıyevin və Bəxtiyar Quliyevin qanı ilə başlayan bu mübarizə Azərbaycan xalqının öz torpağı uğrunda canını belə verməyə hazır olduğunun ilk siqnalı idi.

Bu, qanlı hadisənin törədildiyi 1988-ci il fevralın 22-si tarixi, həm də Azərbaycanın suverenliyinə açılan ilk atəş günü oldu. Bundan sonra başlayan proseslər xalqımız üçün ağır sınaqlarla müşayiət olundu. Çünki, məhz həmin qanlı tarixdən sonra erməni faşistləri daha geniş əl-qol açaraq xalqımızı deportasiyalarla, kütləvi qətllərlə, soyqırımları ilə yenidən üz-üzə qoydular, torpaqlarımıza açıq şəkildə iddia etməyə, ardınca isə işğala başladılar.

Təkcə 1980-ci illərin sonlarında Qərbi Azərbaycandan - tarixi yurdlarından üç yüz mindən çox soydaşımız qaçqın düşüb. Həmin dövrlərdə mərkəzi hakimiyyətin erməni millətçilərinin bu cinayətlərinə göz yumması ilə yanaşı, onlara hər cür dəstək göstərməsi də hadisələrin Azərbaycan və azərbaycanlılar üçün daha faciəvi hal almasına gətirib çıxarmışdı. Əlbəttə ki, ölkəmizə səriştəsiz, ən əsası milli mövqeyi olmayan şəxslərin rəhbərlik etməsi birinci səbəblərdən idi. Azərbaycan müstəqilliyini yenicə əldə etdikdən sonra isə Ermənistan respublikamıza qarşı işğalçı müharibəyə başladı. O dövrdə Azərbaycanda "kreslo" uğrunda torpağını belə satmağa hazır olan anti-milli qüvvələrin hakimiyyətdə olması fəlakətlərimizin üzərinə daha dəhşətlilərini əlavə etdi. Təcavüzkar müharibə nəticəsində ərazilərimiz işğal olundu, vətəndaşlarımız didərgin salınaraq məcburi köçkünə çevrildi.

Həmin dövrdə Xocalıda və daha neçə-neçə yurdlarımızda xalqımıza qarşı soyqırımları, qətliamlar törədildi.

1988-2024-cü illərdə 3493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb, 4435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.

1988-2023-cü illərdə ermənilər tərəfindən Azərbaycanın Qarabağ bölgəsi və ətraf ərazilərində yüzdən çox fərqli-fərqli işgəncə metodları tətbiq edilməklə 1698 azərbaycanlı girov götürülüb. Əsir və girov götürülən 1284 dinc sakindən 122-i mülki sakin, əsir götürülmüş 414 nəfər hərbi qulluqçudan isə 48 nəfəri, ümumilikdə 170-i işgəncələr və qeyri-insani rəftar tətbiq edilməklə qəsdən öldürülüb.

### Bütöv Azərbaycan

Xalqımızın 1988-ci ildən başlayan mübarizə yolu Vətən müharibəsi və Qarabağda keçirilən antiterror tədbirləri ilə öz zəfər mərhələsinə qədəm qoydu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu cəmi 44 gün ərzində "keçilməz" hesab olunan düşmən sədlərini darmadağın etdi. Torpaqlarımızın 30 illik işğalına son qoyuldu. Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyat qaynayır, el-obasından didərgin düşən insanlarımız sevinclə yurdlarına dönürlər.

2023-cü ilin sentyabrında həyata keçirilən antiterror tədbirləri ilə separatizmin kökü birdəfəlik kəsildi. Sərsəm "miatsum" xülyası tarixin zibilliyinə atıldı.

Qalib lider İlham Əliyev tərəfindən Xankəndidə Azərbaycan bayrağının qaldırılması sadəcə hərbi uğur deyil, Azərbaycan Konstitusiyasının bütün ölkə ərazisində mütləq hakimliyinin təmin olunması, Azərbaycanın bütövləşməsi idi.

Bu gün Xankəndinin Zəfər meydanında dalğalanan üçrəngli bayraq həm Əli Hacıyev və Bəxtiyar Quliyevin, həm Xocalı şəhidlərinin, həm də bütün Vətən fədailərinin intiqamının alınmasının rəmzidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Beynəlxalq təhlükəsizlik arxitekturasında yenilik

## Sülh Şurasının dövlətlərarası münaqişələrin həllində vasitəçi rolu olacaq



**Hazırda beynəlxalq müstəvidə çox mürəkkəb proseslər baş verir. Yeni dünya nizamının formalaşdırılması milli dövlətlər üçün bir çağırışdır. İndiki geosiyasi proseslər fonunda milli dövlətlərin qlobal sistemdə yeri və rolu, müstəqilliyinin və suverenliyinin qorunması məhz həyata keçirilən siyasətdən, liderin yaxın və uzaq hədəfləri düzgün müəyyənləşdirməsindən asılıdır. Bu kontekstdə Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın mövqeyi xüsusi vurğulanmalıdır. Ölkəmizin Sülh Şurasının təsisçi üzvlərindən biri olması özlüyündə mühüm mesajdır.**

Milli Məclisin deputatı Pərvin Kərimzadə qəzetimizə açıqlamasında deyib ki, bu gün Azərbaycan dünyada güclü və nüfuzlu ölkə kimi tanınır. Bunun təməlində dayanan əsas amil isə Prezident İlham Əliyevin milli maraqlara və "Biz birlikdə güclüyük" prinsipinə əsaslanmaqla həyata keçirdiyi siyasətdir: "Buna görə də ölkəmizin milli gücü sarsılmazdır və cənab İlham Əliyev cəmiyyətin bütün sosial təbəqələri tərəfindən əvəzolunmaz Lider kimi qəbul olunur. Eyni zamanda son vaxtlarda baş verən hadisələr, o cümlədən qlobal platformalarda Azərbaycan Prezidentinə göstərilən böyük hörmət və ehtiram ölkəmizin və onun liderinin artan beynəlxalq nüfuzunun göstəricisidir. Nəzərə alaq ki, ABŞ Prezidenti Donald Tramp tərəfindən Azərbaycanın Sülh Şurasının təsisçi dövlətləri sırasına dəvət olunmasında məhz Prezident İlham Əliyevin şəxsi nüfuzu müstəsna rol oynayıb. Yanvarın 22-də dövlətimizin başçısı Davosda Sülh Şurasının Nizamnaməsini imzalayıb. Fevralın 19-da isə Prezident İlham Əliyev Donald Trampın dəvəti ilə Sülh Şurasının ilk iclasında iştirak edib".

Deputatın fikrincə, Sülh Şurası ənənəvi beynəlxalq təşkilatlardan fərqli olaraq, daha məhdud üzvlük və daha çevik prosedurlar əsasında fəaliyyət göstərə bilər. Bu isə qərarların daha sürətli qəbul olunmasına və tətbiqinə imkan verəcək. Eyni zamanda belə bir mexanizm regional güclərin və təsirli dövlətlərin iştirakı ilə formalaşdırılarsa, qəbul edilən qərarların icrası üçün real siyasi iradə təmin edilə bilər. Müasir beynəlxalq münasibətlər sistemində ziddiyyətlər böyük güclər arasında yaranan gərginliyin dərinləşməsi ilə bağlıdır. Bu şəraitdə beynəlxalq təhlükəsizlik arxitekturasının yenidən dizaynı zərurəti meydana çıxır. Sülh Şurası kimi mexanizm isə qlobal təhlükəsizlik sistemində yeni presedent yarada bilər. Əgər belə bir platforma vasitəsilə, məsələn, Qəzzada dayanıqlı atəşkəs və siyasi razılaşma əldə olunarsa, deməli, bu model digər münaqişə zonalarına da tətbiq olunma ehtimalını ortaya qoyur. Əsas məsələ mexanizmin legitimliyinin, təmsilçilik prinsipinin və qərarların icra imkanlarının təmin edilməsidir.

P.Kərimzadə qeyd edib ki, yeni təhlükəsizlik platforması həm dövlətlərarası münaqişələrin, həm də daxili silahlı qarşıdurmaların həllində vasitəçi rola malikdir: "İkinci mərhələdə isə qurum humanitar böhranların aradan qaldırılması, qaçqın problemlərinin həlli və münaqişədən sonrakı bərpa prosesində koordinasiya funksiyası da daşıya bilər. Beləliklə, beynəlxalq təhlükəsizlik arxitekturasının yenilənməsi təkcə institusional dəyişiklik deyil, həm də siyasi iradənin və məsuliyyət bölgüsünün yenidən müəyyənləşdirilməsidir. Sülh Şurası bu baxımdan innovativ və praqmatik yanaşma kimi qiymətləndirilə bilər".

Deputat bildirib ki, Azərbaycanın Sülh Şurasında təmsilçiliyi o deməkdir ki, dövlətimiz yalnız regionda deyil, qlobal miqyasda sülh və təhlükəsizliyin təmin olunmasına töhfə vermək iqtidarındadır. Təbii ki, bu amilin ciddi əsasları var. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni reallıqlar yaranıb. Prezident İlham Əliyevin liderliyi ilə formalaşan bu reallıqlar sülh, əməkdaşlıq və təhlükəsizlik üçün perspektivlər açıb.

Təbii ki, bu amil dünyanın super güc dövləti olan ABŞ-nin diqqətindən yayınmır. "Donald Tramp ikinci dəfə hakimiyyətə gəldikdən sonra ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələ başlayıb. Ötən ilin avqustunda əldə olunan Vaşinqton razılaşmaları münasibətlərimizdə yeni mərhələnin əsasını təşkil edir. Məhz Donald Trampın vasitəçiliyi ilə Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişi paraflandı. O vaxtdan indiyədək qarşılıqlı etimadı formalaşdırmaq üçün müvafiq addımlar atılır. Azərbaycan Ermənistan üçün tranzit məhdudiyyətini aradan qaldırıb, eləcə də bu ölkəyə neft məhsulları ixrac edir. Həm də vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri etimad mühitinin formalaşması üçün önəmlidir. Bu o deməkdir ki, tərəflər artıq sülh şəraitində yaşayırlar. Eyni zamanda Vaşinqtonda imzalanmış üçtərəfli bəyannamə də regional əməkdaşlıq üçün geniş imkanlar açır. Artıq region üçün strateji əhəmiyyət kəsb edən TRIPP layihəsi də reallaşmaq üzrədir, çünki bu istiqamətdə praktiki addımlar atılır. TRIPP layihəsi nəinki Azərbaycanın iki hissəsini birləşdirəcək, o cümlədən Azərbaycan, Ermənistan və digər qonşu ölkələrin ərazisi vasitəsilə Asiya ilə Avropanı birləşdirəcək çox etibarlı, təhlükəsiz və böyükmiqyaslı daşımalar dəhlizidir", - deyə o bildirib.

P.Kərimzadə deyib ki, bu yaxınlarda ABŞ-nin vitse-prezidenti Vensin Azərbaycana səfəri də ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsinin göstəricisi olub. Bu səfər zamanı Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalanıb. Sənədə əsasən, tərəflər üç istiqamətdə əməkdaşlığa xüsusi diqqət yetirəcək. Birincisi, enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılardır. İkincisi, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayələr, üçüncüsü isə müdafiə məhsullarının satışı və terrorizmə qarşı mübarizə daxil olmaqla, təhlükəsizlik sahəsində əməkdaşlıqdan ibarətdir. Bu sənəd, əslində, Azərbaycanla ABŞ arasında münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldir. Xartiyada hər iki dövlət ikitərəfli münasibətlərinin əsası kimi bir-birinin suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü və sərhədlərin toxunulmazlığını dəstəklədiklərini bir daha təsdiqləyiblər. Sənəddə əsas məqamlardan biri də təhlükəsizlik sahəsində əməkdaşlıqla bağlıdır. Fevralın 19-da Vaşinqtonda Sülh Şurasının ilk iclası zamanı ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyev haqqında yüksək fikirlər söyləməsi də dövlət başçısının dünyada yüksək nüfuza sahib olduğunu, ölkəmizi güclü dövlətə çevirdiyini təsdiqləyir.

Deputat hesab edir ki, Azərbaycanın möhtəşəm uğurları fonunda ölkəmizin nüfuzuna zərər vurmaq istəyən dairələr hələ də var: "Həmin dairələr anti-Azərbaycan mərkəzlərinin, erməni lobbisinin əlində alətdir. Vaşinqtonda onların təxribat cəhdləri də bunu bir daha göstərdi. Demokratiya və insan haqlarından danışan həmin kiçik qrup, əslində, davranış tərzləri ilə əxlaqi dəyərlərdən nə qədər uzaq olduqlarını nümayiş etdirdilər. Bu fakt onların cılızlığının bariz göstəricisidir. Həmin qrup kimlərinsə sifarişlərini yerinə yetirməyə çalışır, amma anlamırlar ki, bütün bunlar Azərbaycan cəmiyyətində ikrahla qarşılanır. Belə cılız əməllərlə ölkəmizin və onun liderinin nüfuzuna zərər vurmaq mümkün deyil".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qars-İğdır-Naxçıvan dəmir yolu qlobal layihənin bir hissəsidir

**"Türkiyə ilə Azərbaycanın strateji müttəfiqliyi qlobal siyasi proseslərə təsir etmək imkanı verməklə yanaşı, hər iki dövlətin iqtisadi inkişafına böyük təkan verir. Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq regionda yeni reallıqlar yaratdı. Bu reallıqlardan biri Zəngəzur dəhlizidir. Bu dəhliz Mərkəzi Asiya ilə Avropa arasındakı ticarəti genişləndirməklə yanaşı, siyasi əlaqələri də artırır və bu əlaqələrin formalaşmasında Türkiyə ilə Azərbaycan aparıcı rol oynayır".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında türkiyəli iqtisadçi-ekspert Hakan Topkurulu deyib.

Onun sözlərinə görə, dünyada baş verən geosiyasi proseslərin nəticəsi olaraq Avropa özünün ticarət yollarını və enerji idxalını şaxələndirməyə cəhd edir ki, digər böyük güclərdən asılı vəziyyətə düşməsin və siyasi təzyiqlərlə üzləşməsin.

"Bunun üçün Orta dəhliz və onun davamı olan Zəngəzur dəhlizini dəstəkləyəcək və inkişafına dəstək verəcəklər. ABŞ-nin vitse-prezidentinin də regiona səfəri təsadüfi xarakter daşımırdı. Bu səfər ticarət yollarına rəsmi Vaşinqtonun marağının böyük olduğunu göstərir. Orta dəhlizin yeni nəfəsi olan Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi 223,9 kilometr uzunluğunda yüksək standartlı dəmir yolu xəttini əhatə edir. Saatda 120-160 kilometr sürət üçün nəzərdə tutulan layihə 5 ilə tamamlanacaq. Uzunluğu 638 metr olan 10 körpü, 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid tikiləcək. Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsi muxtar respublikanın nəqliyyat və iqtisadi potensialını artıracaq, eyni zamanda beynəlxalq ticarətə yeni imkanlar yaradacaq. Təbii ki, Zəngəzur dəhlizinin tərkib hissəsi olan Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti təkcə Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmir. Bu layihələr daha qlobal xarakter daşıyır və Avropa ilə Asiyanın ticarət əlaqələri üçün olduqca əlverişlidir. Həmçinin dəmir yolu xəttinin Bakı-Tbilisi-Qars layihəsi ilə inteqrasiyası nəzərdə tutulur", - deyə Hakan Topkurulu vurğulayıb.



Ekspert əlavə edib ki, Zəngəzur dəhlizi Mərkəzi Asiya, Xəzər regionu, Azərbaycan və Ermənistanı Türkiyə ilə birləşdirən sosial-iqtisadi, geosiyasi və geostrateji xüsusiyyətlərə malik olduğu üçün regional ticarətə müsbət təsir göstərəcək.

# Azərbaycanın xarici siyasətinin uğurları

**Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri və səfər çərçivəsində Sülh Şurasının ilk iclasında iştirakı müasir diplomatiya tariximizin növbəti nailiyyətlərindən biri kimi ölkəmizin beynəlxalq münasibətlər sistemində artan rolunun, qlobal proseslərdə fəal mövqeyinin daha bir təsdiqi oldu. Bu səfər Azərbaycanın sülh təşəbbüslərində iştirakını genişləndirməklə yanaşı, bütün dünyada diplomatik nüfuzunun daha da gücləndiyini göstərdi.**




# Qlobal sülh gündəliyində Azərbaycanın artan rolu və nüfuzu

### Sülh niyyəti ilə yaradılmış alternativ diplomatik platforma

Sülh Şurası konsepsiyası son dövrlər beynəlxalq münasibətlər sistemində diqqət mərkəzinə çevrilmiş ən mühüm təşəbbüslərdəndir. Bu təşəbbüs qlobal münaqişələrin idarə olunması və diplomatik həll yollarının sürətləndirilməsi məqsədi daşıyan yeni platforma kimi təqdim olunur və artıq beynəlxalq siyasi gündəmdə özünə geniş yer tutmaqdadır.

Bu konsepsiyanın praktik icrasına doğru ilk addım Misirin Şarm əl-Şeyx şəhərində keçirilmiş sammit çərçivəsində atılmışdı. Həmin sammitə Azərbaycan Prezidenti İlham Əliyevin şəxsən dəvət olunması ölkəmizin beynəlxalq sülh təşəbbüslərində artan rolunun və regional proseslərdə təsir imkanlarının göstəricisi idi. Azərbaycanın belə platformalarda iştirakının artması ölkəmizin çoxtərəfli diplomatiyada fəal aktora çevrildiyini nümayiş etdirir.

Sammitin ilkin nəticələri konkret humanitar və təhlükəsizlik addımları ilə yadda qaldı. Qəzzada hərbi əməliyyatların dayandırılması və qan tökülməsinin qarşısının alınması istiqamətində razılaşma əldə olundu, eyni zamanda əsir və girovların qaytarılması prosesi başlandı. Bu addımlar təşəbbüsün yalnız siyasi deyil, praktiki nəticələr doğura biləcək mexanizm kimi təqdim olunmasına zəmin yaradırdı.

ABŞ tərəfindən irəli sürülmüş bu konsepsiyanın növbəti mərhələdə institusional əsaslarının formalaşdırılması istiqamətində işlərə başlandı. Məqsəd Sülh Şurasını daha sabit və davamlı beynəlxalq mexanizmə çevirmək idi. Bu isə təşəbbüsün gələcəkdə regional deyil, qlobal səviyyədə təsir imkanları qazana biləcəyini göstərir.

Bununla yanaşı, Sülh Şurası təşəbbüsü beynəlxalq arenada birmənalı qarşılanmır. Bir sıra dövlətlər və siyasi qruplar bu platformanı sülh təşəbbüsləri baxımından müsbət addım hesab etsələr də, digər tərəflər hələ ehtiyatlı mövqe tutmağa üstünlük verir. Ələlxüsus Avropa qrupu və Çin tərəfindən təşəbbüsün mövcud beynəlxalq institutların roluna, xüsusən qərarvermə balansına mümkün təsirləri ilə bağlı narahatlıqlar səsləndirilməkdədir. Bu mövqe Sülh Şurasının gələcəkdə beynəlxalq sistemdə hansı statusa malik olacağı sualını aktuallaşdırır.

Əsas müzakirə mövzusu isə ondan ibarətdir ki, bu təşəbbüs yalnız Qəzza böhranının idarə olunması ilə məhdudlaşacaq, yoxsa digər münaqişələrin həllində də rol oynayacaq yeni qlobal mexanizmə çevriləcək. Bəzi ekspertlər Sülh Şurasının BMT-ni əvəzləyəcək struktura çevrilməsini real saymasalar da, onun alternativ diplomatik platforma kimi fəaliyyət göstərə biləcəyini istisna etmirlər.

### Zamanın tələbindən yaranan təsisat

Beləliklə, Sülh Şurası hazırda formalaşma mərhələsində olan, lakin artıq beynəlxalq münasibətlər sistemində mühüm siyasi diskussiya yaradan təşəbbüs kimi çıxış edir. Reallıq bundan ibarətdir ki, belə bir təsisatın yaradılması və təsirli gücə çevrilməsi zamanın tələbi, müasir dünyamızın çağırışıdır. Bu zərurəti şərtləndirən bir sıra səbəblər var.

Beynəlxalq münasibətlər sistemi hazırda köklü transformasiya mərhələsindən keçməkdədir. Geosiyasi rəqabətin kəskinləşməsi, regional münaqişələrin artması və təhlükəsizlik çağırışlarının mürəkkəbləşməsi mövcud qlobal idarəetmə mexanizmlərinin yeni reallıqlara adekvat cavab vermədiyini göstərir. Bu dəyişikliklər fonunda beynəlxalq sülhün təmin olunması üçün yeni alətlərin və platformaların formalaşdırılması məsələsi gündəliyin əsas mövzularından birinə çevrilib.

Ənənəvi beynəlxalq təşkilatlarlar uzun dövr ərzində qlobal sabitliyin qorunmasında mühüm rol oynasalar da, hazırkı mərhələdə onların beynəlxalq ictimaiyyətin üzləşdiyi təhlükəsizlik və humanitar problemləri həll etmək iqtidarında olmadıqları getdikcə daha açıq görünür. Bu vəziyyət ilk növbədə dünyada davam edən müharibə və silahlı münaqişələr fonunda özünü göstərir. Müxtəlif hesablamalara görə, hazırda dünyada 60-dan çox münaqişə ocağı mövcuddur. Qəzzada baş verən hadisələr, Yaxın Şərqdə gərginliyin artması və Rusiya-Ukrayna müharibəsinin davam etməsi beynəlxalq mexanizmlərin təsir imkanlarının məhdud olduğunu bir daha nümayiş etdirir.

Cərəyan edən proseslər fonunda xüsusilə Birləşmiş Millətlər Təşkilatının rolu geniş müzakirə olunur. Formal olaraq qlobal sülhün qorunmasına məsul olan bu təşkilat münaqişələrin qarşısının alınması və həlli sahəsində yetərli siyasi iradə və təsir imkanları göstərə bilmir. Buna torpaqlarının 20 faizi təxminən 30 ilə yaxın müddətdə işğal altında qalan, BMT-nin bununla bağlı 4 qətnaməsinin icrası istiqamətində heç bir addım atılmayan, yekunda bu qətnamələri ordumuzun gücü ilə icra etmək məcburiyyətində qalan Azərbaycan dövlətinin vətəndaşları olaraq hər birimiz çox yaxşı şahidik. Xüsusilə Təhlükəsizlik Şurasında veto mexanizminin mövcudluğu, qərarların icrasının zəifliyi və böyük dövlətlər arasında geosiyasi qarşıdurma BMT-ni operativ fəaliyyət göstərə bilməyən struktura çevirir.

BMT Nizamnaməsində təsbit edilən beynəlxalq sülhün qorunması, münaqişələrin dinc yolla həlli və dövlətlərin suveren bərabərliyi prinsiplərinin praktikada pozulması təşkilata olan etimadı ciddi şəkildə sarsıdır. Bu amillər yalnız siyasi deyil, həm də humanitar böhranların dərinləşməsinə gətirib çıxarır. Nəticədə beynəlxalq sistemdə alternativ mexanizmlərin yaradılması ilə bağlı müzakirələr güclənir.

Tramp administrasiyası məhz bu zərurətdən çıxış edərək alternativ sülh mexanizmi kimi Sülh Şurası təşəbbüsünü irəli sürüb. Bu təşəbbüs mövcud strukturları əvəz etməkdən daha çox onların çatışmazlıqlarını kompensasiya edə biləcək çevik platforma kimi təqdim olunur. ABŞ-nin son illər BMT-nin bir sıra strukturlarından çıxması və bəzi qurumların maliyyələşdirilməsini dayandırması da rəsmi Vaşinqtonun mövcud qlobal idarəetmə sistemindən narazılığının göstəricisi kimi şərh edilə bilər.

Sülh Şurası ideyası mahiyyət etibarilə beynəlxalq təhlükəsizlik məsələlərinin daha operativ, siyasi baxımdan çevik və nəticəyönümlü mexanizmlərlə idarə olunmasına yönəlib. Bu platformanın əsas məqsədi münaqişələrin erkən mərhələdə qarşısının alınması, humanitar böhranların azaldılması və siyasi dialoqun təşviqidir.

### Azərbaycan Sülh Şurasının təsisçilərindən biridir

Əlbəttə, təşəbbüsün gələcəkdə hansı status alacağı və beynəlxalq sistemdə necə mövqe tutacağı hələ də açıq qalır. Bununla belə mövcud reallıqlar göstərir ki, beynəlxalq təhlükəsizlik arxitekturasının yenidən qurulmasına ehtiyac var. Qlobal idarəetmə institutlarının zəifləməsi yeni və daha çevik mexanizmlərin yaradılmasını qaçılmaz edir. Bu proses yalnız bir təşəbbüslə məhdudlaşmır, əksinə, dünya siyasətində yeni platformaların formalaşması daha geniş transformasiyanın tərkib hissəsi kimi qiymətləndirilir.

Beləliklə, Sülh Şurasını hazırkı beynəlxalq sistemin çatışmazlıqları fonunda ortaya çıxan alternativlərdən biri kimi nəzərdən keçirə bilərik. Onun uğurlu olub-olmayacağı isə yalnız institusional quruluşundan deyil, həm də böyük dövlətlərin siyasi iradəsindən və beynəlxalq ictimaiyyətin bu təşəbbüsə verdiyi dəstəkdən asılı olacaq.

Təşəbbüsün özü bəşəriyyət üçün xoş məram daşıdığından Azərbaycan da Sülh Şurası ideyasına ilk dəstək verən dövlətlərdəndir. Dünya İqtisadi Forumu platformasında Sülh Şurasının yaradılması ilə bağlı dövlətlərə açıq müraciət edildikdən sonra Azərbaycan Respublikası bu təşəbbüsə yaradıcı (founding) üzv statusu ilə qoşuldu. Azərbaycanın Sülh Şurası kimi mötəbər bir təşkilatda bu statusda təmsil olunması ölkəmizin beynəlxalq siyasətdə artan çəkisinin, qlobal proseslərdə etibarlı tərəfdaş kimi qəbul olunmasının və təşəbbüskar dövlət kimi rolunun göstəricisidir. Azərbaycanın bu proseslərdə fəal iştirakı həm də beynəlxalq təhlükəsizlik məsələlərinə töhfə vermək niyyətlərini bir daha göstərir.

### Azərbaycan Prezidentinin dünya üçün nümunə yaradan sülh gündəliyi

Ölkəmizin bu platformada iştirakının əsasını dövlətimizin başçısı cənab İlham Əliyevin müstəqil və balanslı xarici siyasət xətti təşkil edir. Azərbaycanın beynəlxalq müstəvidə fəal siyasət yürütməsi Prezident İlham Əliyevin irəli sürdüyü inkişaf modeli, strateji sabitlik kursu və çoxtərəfli diplomatiyaya verdiyi töhfələrlə birbaşa bağlıdır. Respublikamız regional və qlobal problemlərin qarşısının alınması və idarə olunmasında konstruktiv yanaşmanı, dialoqu və nəticəyönümlü diplomatiyanı əsas prinsip kimi irəli sürür.

Sülh Şurası çərçivəsində Azərbaycanın xüsusi diqqət mərkəzində olmasının mühüm səbəblərindən biri də Ermənistanla münasibətlərdə irəli sürülən sülh gündəliyidir. Azərbaycan uzun illər davam edən münaqişənin həlli istiqamətində beynəlxalq hüquq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə əsaslanan yeni reallıq formalaşdırıb. Prezident İlham Əliyev uzun müddətdir sülh gündəliyinin təşəbbüskarlarından və ən fəal təşviqatçılarından biri kimi çıxış edir. Azərbaycanın dövlət rəhbərinin liderliyi ilə həyata keçirilən siyasət nəticəsində regionda davamlı sülh üçün praktik əsaslar yaradılıb. Bu təcrübə qlobal miqyasda münaqişələrin beynəlxalq hüquq çərçivəsində həllinə dair uğurlu nümunələrdən biri kimi dəyərləndirilməkdədir.

Vaşinqtonda keçirilən tədbir zamanı Prezident Donald Trampın bir neçə dəfə Azərbaycan Prezidentinə birbaşa xitab etməsi də bir tərəfdən cənab İlham Əliyevin qlobal nüfuzunun, digər tərəfdən Azərbaycan liderinin müəllifi olduğu sülh gündəliyinə verilən ali dəyərin bariz göstəricisi idi. Bu fakt Azərbaycanın beynəlxalq dialoq və təhlükəsizlik məsələlərində konstruktiv rolunun necə rəğbətlə qarşılandığını, ən yüksək səviyyədə qəbul edildiyini göstərir.

Tədbirin ən mühüm məqamlarından biri də Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyanın görüşərək əl sıxmasının ABŞ Prezidenti Tramp tərəfindən xüsusi vurğulanması oldu. Bu epizod qlobal sülhün və təhlükəsizliyin təminatında Azərbaycanın oynadığı rolun, eləcə də regionda dialoq və sabitliyin təşviqində dövlətimizin başçısının siyasi nüfuzunun, cənab İlham Əliyevə olan qlobal inamın daha bir təsdiqidir.

### Məsuliyyətli yanaşma

Qeyd edək ki, hazırda Sülh Şurasına qoşulmuş dövlətlərin sayı 28-dir. Amma yaxın gələcəkdə platformanın daha da genişlənməsi istisna olunmur. Hazırda Sülh Şurasının gündəliyində duran əsas məsələlərdən biri Qəzza ilə bağlı xüsusi maliyyə fondunun yaradılması, bərpa-quruculuq işlərinin təşkili və humanitar missiyaların həyata keçirilməsidir. Bu təşəbbüs bölgədə davam edən humanitar böhranın aradan qaldırılmasına, münaqişədən sonrakı mərhələdə iqtisadi və sosial sabitliyin bərpasına yönəlib.

Qəzzada Sabitləşdirmə Qüvvələrinin yaradılması ideyasına gəlincə, belə bir ideya ilk dəfə Şarm əl-Şeyxdə ABŞ Prezidenti tərəfindən irəli sürülüb və bölgə ilə bağlı hazırlanmış 20 maddəlik planın tərkib hissəsi kimi təqdim edilib. Bununla belə, Prezident İlham Əliyev bu il yanvarın 5-də yerli mediaya verdiyi müsahibədə Azərbaycanın belə bir qüvvənin tərkibinə qoşulmaq niyyətində olmadığını açıq şəkildə bəyan edib.

Bu mövqe Azərbaycanın real vəziyyətindən və daxili ictimai rəyindən irəli gəlir. Azərbaycan müharibədən yeni çıxmış ölkədir və hərbi kontingentin başqa bir münaqişə zonasına göndərilməsi cəmiyyətdə müəyyən həssaslıq doğurur. Rəsmi Bakı bu məsələdə məsuliyyətli yanaşma nümayiş etdirərək daxili prioritetləri, təhlükəsizlik məsələlərini və regional sabitliyi əsas götürür. Bu, Azərbaycanın xarici siyasətində balanslı qərarvermə və milli maraqların qorunması prinsipinə sadiqliyini göstərir.

Bununla yanaşı, Azərbaycan Qəzza ilə bağlı proseslərdə digər istiqamətlərdə fəal rol oynaya bilər. Ölkəmiz münaqişədən sonrakı mərhələdə bərpa və quruculuq sahəsində əldə etdiyi praktiki təcrübəni beynəlxalq platformalarda bölüşmək imkanına malikdir. Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən genişmiqyaslı infrastruktur layihələrinin, "ağıllı şəhər" konsepsiyalarının və sosial proqramların bu baxımdan nümunə kimi təqdim olunması mümkündür.

Azərbaycan həm BMT institutları vasitəsilə, həm də ikitərəfli əsasda Fələstinə humanitar yardımlar göstərib və bu istiqamətdə fəaliyyətin davam etdirilməsi imkanları mövcuddur. Gələcəkdə kommersiya şərtləri və investisiya layihələri çərçivəsində Azərbaycanın bölgədə iqtisadi iştirak imkanları da istisna edilmir. Bununla belə, hazırkı mərhələdə səsləndirilən 7 milyard dollar həcmində fond çərçivəsində Azərbaycanın hər hansı maliyyə iştirakının nəzərdə tutulmadığı bildirilir.

Ümumilikdə, Vaşinqtonda keçirilən Sülh Şurasının ilk iclasında Prezident İlham Əliyevin iştirakı Azərbaycanın qlobal sülh və təhlükəsizlik gündəliyində artan rolunu bir daha nümayiş etdirdi. Göstərdi ki, Azərbaycan yalnız regional aktor deyil, həm də beynəlxalq səviyyədə sülh təşəbbüslərinə töhfə verən, məsuliyyətli və praqmatik siyasət yürüdən dövlət kimi qəbul olunur.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri və Sülh Şurasının ilk iclasında iştirakı Azərbaycanın beynəlxalq əməkdaşlıq siyasətində hər cəhətdən yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu iştirak ölkəmizin sülh, sabitlik və əməkdaşlıq prinsiplərinə sadiqliyini bir daha təsdiqləməklə Azərbaycanın qlobal səviyyədə söz sahibi olan dövlət kimi mövqeyini daha da möhkəmləndirib.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan qlobal sülh mexanizmlərində həlledici rol oynayır

**Dünyanın siyasi nizamı əsaslı yenilənmə dövrünü yaşayır. Hazırkı qlobal idarəçilik sistemləri müasir çağırışlarla ayaqlaşmaqda çətinlik çəkir. Klassik beynəlxalq təsisatlar bəşəriyyətin qarşılaşdığı təhlükəsizlik və humanitar böhranları aradan qaldırmaq gücünü itirib. Bu çatışmazlıq sonu gəlməyən hərbi toqquşmalar fonunda daha qabarıq nəzərə çarpır.**




Yer kürəsində 60-dan çox münaqişə nöqtəsinin olması, o cümlədən Qəzzadakı dramatik vəziyyət və Rusiya-Ukrayna cəbhəsində illərlə davam edən hərbi əməliyyatlar beynəlxalq tənzimləmə mexanizmlərinin çökməsinin bariz nümunəsidir. Baş verən hadisələr göstərir ki, Birləşmiş Millətlər Təşkilatı ixtilafların qarşısını almaq və onları yoluna qoymaq üçün lazımi qətiyyət və rıçaqlara sahib deyil. BMT-nin aktual problemlərə çevik və kəsərli reaksiya verə bilməməsi fərqli və yeni dialoq müstəvilərinin, çoxtərəfli əməkdaşlıq formatlarının yaranmasını labüd edir. Məhz bu ehtiyacdan irəli gələrək, ABŞ Prezidenti Donald Trampın rəhbərliyi ilə ənənəvi institutlara alternativ variant kimi Sülh Şurası gündəmə gəldi və dəstək qazandı.

Yeni sülh arxitekturasının təməlləri Şarm əl-Şeyx Sammitində atılıb və bu prosesin icrasına dair ilk konkret addımlar da orada reallaşıb. Görülən işlərin ilkin bəhrəsi kimi Qəzza bölgəsində hərbi qarşıdurmanın dayandırılmasına və qan tökülməsinin qarşısının alınmasına nail olunub. Eyni zamanda humanitar missiya çərçivəsində əsir və girovların azad edilməsi prosesi uğurla icra edilib. Hazırda ABŞ-nin müəllifi olduğu bu formatın rəsmi instituta çevrilməsi və strukturlaşdırılması istiqamətində işlər sürətlənib.

Azərbaycanın yeni sülh platformasında tutduğu mövqe ölkəmizin beynəlxalq sülh təşəbbüslərində artan rolunun göstəricisi və xarici siyasətimizdəki uğurların məntiqi davamı kimi qiymətləndirilir. Davosda Dünya İqtisadi Forumu keçirilərkən dövlətlərə ünvanlanmış açıq çağırışdan sonra Azərbaycan Respublikası Sülh Şurasına təsisçi üzv statusu ilə daxil oldu. Bu mötəbər statusda təmsilçilik ölkəmizin dünya siyasətindəki çəkisinin artmasının və beynəlxalq arenada etibarlı, strateji tərəfdaş kimi qəbul edilməsinin əyani sübutudur.

Bakının beynəlxalq böhranların idarə olunmasında oynadığı rol konstruktivliyə, dialoq və konkret nəticələrə hədəflənmiş diplomatik prinsiplərə söykənir. Azərbaycanın bu yeni mexanizmdə ön plana çıxmasını şərtləndirən əsas amillərdən biri Ermənistanla sülh prosesində nümayiş etdirdiyi unikal tənzimləmə modelidir. Prezident İlham Əliyevin liderliyi, siyasi iradəsi və qətiyyəti ilə uzunillik münaqişənin beynəlxalq hüquq və milli suverenlik çərçivəsində həlli dünya miqyasında analoqu az olan uğurlu təcrübə kimi qəbul edilir. Hazırda bu təşəbbüsə qoşulan dövlətlərin sayı 28-ə çatıb və bu sayın yaxın gələcəkdə daha da artacağı gözlənilir.

Sülh Şurası kimi mötəbər bir platformada Azərbaycanın ən yüksək səviyyədə təmsil olunması ölkəmizin beynəlxalq arenada artan siyasi çəkisinin və növbəti diplomatik uğurunun göstəricisidir. Bu iştirak sadəcə protokol qaydası deyil, birbaşa Prezident İlham Əliyevin dünya liderləri arasındakı böyük nüfuzunun, ona olan yüksək şəxsi hörmətin və Azərbaycanın regional güc mərkəzi kimi qəbul edilməsinin təzahürüdür. Ölkəmizin qlobal qərarların qəbul edildiyi masada yer alması milli maraqlarımızın qorunması baxımından olduqca əhəmiyyətlidir.

Sammit zamanı Prezident Donald Trampın dəfələrlə dövlət başçımıza xitab etməsi, Azərbaycan adını səsləndirməyi sevdiyini söyləməsi İlham Əliyevə olan ehtiram və rəğbətin, dünyada sülhün ən fəal təşviqçilərindən biri kimi qəbul olunmasının təcəssümüdür.

Prezident İlham Əliyev Cənubi Qafqazda və daha geniş coğrafiyada sülh gündəliyinin əsas təşəbbüskarı və ən fəal təşviqatçılarından biri kimi çıxış edir. Azərbaycanın təklif etdiyi sülh prinsipləri regionun gələcək inkişaf modelini formalaşdırır. Xüsusilə, bu platforma çərçivəsində Azərbaycan və Ermənistan rəhbərlərinin görüşməsi, həmçinin tərəflər arasındakı əlsıxmanın ABŞ Prezidenti tərəfindən xüsusi vurğulanması rəsmi Bakının qlobal təhlükəsizlikdəki həlledici rolunu təsdiqləyir.

Tədbir zamanı ABŞ Prezidenti Donald Trampın bir neçə dəfə xüsusi olaraq Azərbaycan Liderinə xitab etməsi dövlətimizin başçısının fikirlərinə və liderlik keyfiyyətlərinə verilən önəmin göstəricisidir. Bu diqqət Azərbaycanın sülh prosesindəki həlledici rolunun beynəlxalq supergüclər tərəfindən tam şəkildə tanınması deməkdir.

Sammitdə Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasındakı təmaslar da tarixi məqam kimi yadda qaldı. Xüsusilə, bu jestin Prezident Tramp tərəfindən qeyd edilməsi və təqdir olunması Azərbaycanın postmünaqişə dönəmində sülhün əldə edilməsi istiqamətində atdığı addımların beynəlxalq miqyasda legitimliyini artırır. Beynəlxalq ictimaiyyətin diqqətlə izlədiyi bu mənzərə təsdiq edir ki, Azərbaycan təkcə öz ərazi bütövlüyünü bərpa edən ölkə deyil, həm də bəşəri sülhün və təhlükəsizliyin təmin olunmasında əsas söz sahibi olan dövlətdir.

Tədbirin gündəliyində duran ən aktual məsələ Qəzza bölgəsi üçün xüsusi maliyyə fondunun təsisi və 20 maddəlik bərpa-humanitar üzrə planın icrası idi. ABŞ tərəfindən irəli sürülən "sabitləşdirmə qüvvələri"nin yaradılması ideyasına Azərbaycanın münasibəti tamamilə prinsipial və milli maraqlara söykənir. Prezident İlham Əliyevin hələ ilin əvvəlində bəyan etdiyi kimi, Azərbaycan sözügedən hərbi kontingentin tərkibində yer almağı planlaşdırmır. Bölgəyə qoşun yeridəcək, yaxud təhlükəsizliyin qorunmasında bu və ya digər formada iştirak edəcək ölkələr arasında Azərbaycanın adının olmaması rəsmi Bakının mövqeyinin dəyişmədiyini göstərir. Müharibədən çıxmış bir ölkənin hərbi qüvvələrini başqa münaqişə zonasına göndərməmək qərarı daxili ictimai rəyin həssaslığına və dövlətin məsuliyyətli xarici siyasət kursuna əsaslanır.

Təbii ki, Azərbaycan Yaxın Şərqdə sülh və stabilliyin əldə edilməsində və qorunub saxlanmasında maraqlı ölkədir və region ölkələri ilə birgə layihələr reallaşdırır. Lakin Azərbaycanın Sülh Şurasındakı rolu hərbi müstəvidən daha çox humanitar və iqtisadi müstəvidədir. Nəzərə alaq ki, Qarabağ və Şərqi Zəngəzurun sürətli yenidənqurulması modeli münaqişədən sonrakı inkişaf üçün dünya miqyaslı nümunə kimi təqdim oluna bilər. Azərbaycan gələcəkdə Qəzzada həyata keçiriləcək layihələrdə investor kimi çıxış etmək imkanlarını da saxlayır. Ölkəmiz həm BMT vasitəsilə, həm də birbaşa yardımlarla Fələstinə dəstəyini davam etdirsə də, hazırkı şəraitdə hər hansı maliyyə dəstəyindən söhbət getmir. Prezidentin xarici məsələlər üzrə köməkçisi Hikmət Hacıyev də özünün "X" sosial media hesabında yazıb ki, Azərbaycan təsisçi üzv dövlət kimi Sülh Şurasının məqsəd və məramlarını dəstəkləyir. Gələcəkdə Azərbaycan tərəfindən Sülh Şurası vasitəsilə Qəzzada sərmayə layihələrində iştirak nəzərdən keçirilə bilər. Lakin sammitdə səsləndirilən 7 milyard dollar məbləğində Qəzzaya dair maliyyə layihəsində Azərbaycanın iştirakı nəzərdə tutulmur. Bakı bununla öz şərtlərini və prioritetlərini müəyyən edən, milli maraqlarından geri addım atmayan suveren güc olduğunu da dünyaya nümayiş etdirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan beynəlxalq nizamın yenidən qurulmasında müşahidəçi qismində yox, əsas aktorlardan biri kimi öz yerini möhkəmləndirir. Bu, Azərbaycanın diplomatik qələbəsi olmaqla yanaşı, həm də xalqımızın milli qürurunun və sarsılmaz suverenliyimizin növbəti təzahürüdür.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*



# Bakı növbəti beynəlxalq enerji tədbirinə hazırlaşır

## "Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" Məşvərət şuralarının iclaslarında bu dəfə də vacib məsələlər müzakirə ediləcək

**2015-ci ildən başlayaraq, ildə bir dəfə Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının iclası keçirilir. Azərbaycanın təşəbbüsü və aparıcı qüvvəsi ilə həyata keçirilən bu möhtəşəm layihənin gerçəkləşməsində həmin iclasların mühüm rolu olub. Belə ki, Məşvərət Şurası il boyu görülən işlərə yekun vurur, qarşıdakı işləri müəyyənləşdirir.**

2018-ci ilin mayında "Cənub qaz dəhlizi" istifadəyə verildi. 2020-ci ilin sonunda isə Azərbaycan qazının Avropaya çatması ilə dəhliz tam sistem kimi işə salındı. Bununla belə, Məşvərət Şurası yenə də hər il Bakıda toplaşır. Çünki zaman qarşıya yeni tələblər, yeni vəzifələr qoyur. Azərbaycan qazına tələbat artır. Azərbaycandan qaz idxal edən ölkələrin sayı getdikcə çoxalır. Buna görə də dəhlizin ayrı-ayrı seqmentlərinin genişləndirilməsi, yeni interkonnektorların çəkilməsi üçün zərurət yaranır. Prezident İlham Əliyev bu barədə belə deyib: "Cənub qaz dəhlizi" layihəsi başa çatıb, bizim işimiz isə davam edir. Əminəm ki, biz yeni nəticələr əldə edəcəyik".

Məhz bu məqsədlə Məşvərət Şurası hər il özünün növbəti toplantısını keçirir. İndi biz artıq 12-ci iclasın ərəfəsindəyik. Toplantının bu ilin birinci rübü ərzində keçiriləcəyi gözlənilir. Son bir neçə ildə bu tədbirlə eyni vaxtda "Yaşıl enerji" Məşvərət Şurasının da iclası baş tutur. Bu il həmin istiqamətdə sayca dördüncü iclas olacaq.

Keçən il bu iki Məşvərət Şurasının iclaslarına birlikdə Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 7 beynəlxalq maliyyə institutu və 42 enerji şirkəti qatıldığını qeyd etsək, tədbirlərin əhəmiyyəti haqqında bir az da aydın təsəvvür yaranar. Tədbirdə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr iştirak etmişlər.

Toplantı açılış sessiyasından sonra işini nazirlər sessiyası, "Cənub qaz dəhlizi" sessiyası: "Cənub qaz dəhlizi"nin uğurlu istismarı, inkişafında tərəqqi və növbəti addımlar" və "Yaşıl enerji" layihələri və "yaşıl enerji dəhlizləri" üzrə plenar sessiyalarla davam etdirmişdi.

Həmçinin Məşvərət Şurası çərçivəsində Azərbaycan, Türkiyə, Gürcüstan və Bolqarıstan arasında "yaşıl enerji"nin ötürülməsi və ticarəti üzrə II Nazirlər Görüşü, "Xəzər-Qara Dəniz-Avropa "Yaşıl Enerji Dəhlizi" üzrə qeyri-rəsmi Rəhbər Komitə/Nazirlər Görüşü və Azərbaycan ilə Avropa İttifaqı arasında dənizdə külək enerjisinin inkişafı üzrə "dəyirmi masa" keçirilmişdi.Tədbir çərçivəsində enerji sahəsində əməkdaşlıq üzrə sənədlər imzalanmışdı.

Prezident İlham Əliyev tədbirin miqyasının da genişləndiyini vurğulayaraq demişdir: "Vaxt keçdikcə prosesdə iştirak edən ölkələrin və şirkətlərin sayı artır, onlar ortaq məqsəd ətrafında birləşir. Birinci məqsəd əməkdaşlığın gücləndirilməsidir, çünki əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri mümkün olmazdı. İkinci məqsəd özləri, öz qonşuları və tərəfdaşları üçün enerji təhlükəsizliyini təmin etməkdir. Hesab edirəm ki, bizi birləşdirən tərəfdaşlığın və əməkdaşlığın çox müsbət əzmi məsuliyyətimizin aydın təzahürüdür. Bu, istehsalçıların, tranzit ölkələrin və istehlakçıların məsuliyyətidir. Əlbəttə ki, bu prosesin üç əsas iştirakçısı arasında maraqların tarazlığı beynəlxalq maliyyə təsisatlarının dəstəyi ilə bizim hekayətimizi və ya hekayətlərimizi uğura çevirdi. Ölkələr, onların hökumətləri, investorlar, şirkətlər, aparıcı maliyyə təsisatları bizim komandamızdır və bu komanda genişlənir".

İndi bizdən 16 ölkə - Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya qaz alır. Keçənilki toplantıdan əvvəl isə onların sayı 12 idi. Azərbaycan qazının ixrac coğrafiyası daha da genişlənəcək. İxracın artması isə öz növbəsində hasilatın artmasını, infrastrukturun genişlənməsini, şaxələnməsini tələb edir. Deməli, növbəti toplantıda da çözüləcək məsələlər, müzakirə ediləcək məsələlər çox olacaq.

Qaldı ki, bərpaolunan enerji məsələsinə, burada da nailliyyətlər, planlar, görüləcək işlər çoxdur. Azərbaycanın "yaşıl enerji" gündəliyi artıq bütün dünyaya bəllidir. Hələ 2020-ci ildə ölkəmiz növbəti 10 ildə, yəni 2030-cu ilə qədər elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin (BOEM) payını 30 faizə çatdırmağı hədəfləyib. Gələn il BOEM-in payının artıq 25 faizə çatdırılacağı nəzərdə tutulur. Azərbaycan bu məqsədlərə doğru inamla irəliləyir.

Ölkəmizdə "yaşıl enerji" mənbələrinin texniki potensialı böyükdür - quruda 135, dənizdə isə 157 qiqavat təşkil edir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Bunun da əsası var. Çünki bərpaolunan enerji resurslarının texniki potensialı Qarabağ və Şərqi Zəngəzurda 10 qiqavat, Naxçıvanda isə 5 qiqavat həcmində qiymətləndirilir.

İşğaldan azad edilmiş ərazilərdən söz düşmüşkən, qeyd edək ki, burada su-elektrik stansiyalarının sayı 39-a çatıb. İndi bu ərazilərdə daha böyük bərpaolunan enerji layihələri icra olunmaqdadır. Bakıda COP29-un davam etdiyi günlərdə Cəbrayıl rayonunda BP şirkəti ilə birlikdə tikiləcək 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməli qoyuldu və hazırda layihə qrafikə uyğun irəliləyir.

Ümumiyyətlə, "yaşıl enerji" layihələri artıq digər şəhər və bölgələrimizə də "addımlayır". Bu istiqamətdə ən böyük uğurlarımızdan biri 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilməsi oldu. İndi Abşeronda, Neftçalada, Biləsuvarda da növbəti bərpaolunan enerji stansiyaları layihələri öz icrasının müxtəlif mərhələlərindədir. Bir sözlə, 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 qiqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Bu yaxınlarda investoru Səudiyyə Ərəbistanının "ACWA Power", tikintisinin baş podratçısı Çinin "Power China" şirkətləri olan 240 meqavat gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası istismara verildi. Digər bölgələrdə də "yaşıl enerji" stansiyalarımız açılacaq.

Deməli, növbəti toplantılarda bu sahəyə də aid bir çox məsələlər müzakirə olunacaq, yeni planlar cızılacaq, yeni qərarlar qəbul ediləcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ensiklopedik zənginliyə malik kitab

**Azərbaycan Respublikası Milli Məclisinin "Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi"nin sədri Sadiq Qurbanovun 3 cilddən ibarət kitabı yaxın günlərdə Prezident kitabxanasında ictimaiyyətə təqdim olundu. Bu 3 cildlik kitab, əslində, uğurlu neft strategiyası əsasında digər mühüm strateji istiqamətlərin də inkişafını əsaslandıran fundamental baza materialıdır.**



I cild "Heydər Əliyev Azərbaycanın neft strategiyasının banisidir ("Əsrin müqaviləsi" kontekstində)" adlanır. Bu cilddə dünya neft sənayesi tarixinə ciddi xronoloji təhlil verilib və bu tarixdə Azərbaycan neft sənayesinin inkişaf mərhələləri əlaqəli şəkildə təhlil olunub. I və II Dünya müharibələri dövründə Azərbaycan neft sənayesinin mühüm rolu təsdiqedici dəlillərlə təhlil edilib. Burada Ulu Öndərin 1969-cu ildən başlanan və 2003-cü ilə qədər davam edən uğurlu neft və neft emalı strategiyasının ciddi və sistemli təhlili verilib, 1969-1991-ci illərdə və 1993-2003-cü illəri əhatə edən müstəqillik dövründə ölkənin hərtərəfli inkişafında neft sənayesinin inkişafının müsbət rolu xüsusi qeyd olunub.

I cildin 87-ci səhifəsində yazılır: "1970-1980-ci illərdə dəniz neft sənayesinin infrastrukturunun müasirləşdirilməsi sahəsində Heydər Əliyev tərəfindən çox mühüm və Azərbaycanın bu gününə hesablanmış böyük işlər görüldü. 1970-ci ilə qədər Xəzər dənizində istifadə olunan texniki vasitələr dəniz dərinliyinin 40 metrində işləməyə imkan verirdi və Xəzər dənizinin Azərbaycan sektorunda bu dərinlikdə olan perspektiv strukturlardakı neft və qaz yataqları, demək olar ki, kəşf olunmuşdu. Respublikada neft və qaz sənayesinin gələcək inkişafı dənizin daha dərin hissəsində yeni yataqların axtarışından asılı idi. Ona görə də bu illər əvvəlcə dənizin 70 metr dərinliyində kəşfiyyat qazma işləri aparmağa imkan verən "Xəzər" tipli üzən qazma qurğuları alındı və bu da "Bahar" və Bulla-dəniz" qaz-kondensat yataqlarının açılması ilə nəticələndi.

Sonralar dənizin 200 metrə qədər dərinliyində işləməyə imkan verən "Şelf" tipli müasir yarımdalma üzən qazma qurğularının alınması nəticəsində dənizdə axtarış-kəşfiyyat işləri genişləndirildi. Bu qurğuların əsasında müstəqillik dövründə dənizin 700m dərinliyində qazma işlərini aparmağa imkan verən "Dədə Qorqud" və "İstiqlal" qurğuları yaradıldı.

80-ci illərdə üzən qazma qurğularının sayı artıq 11-ə çatdı və onlardan səmərəli istifadə olunması nəticəsində Xəzər dənizinin Azərbaycan sektorunda dənizin 80-350 metr dərinliyində zəngin neft ehtiyatlarına malik "Günəşli" (1979) və başqa yataqlar ("Şərqi-Livanovo" - dənizin Türkmənistan sektorunda, "Qayalı dəniz" - Qazaxıstan sahillərində) kəşf olundu".

Kitabda qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin mükəmməl neft strategiyası sayəsində "Əsrin müqaviləsi" adlanan müqavilə imzalanmışdı ki, onun icrası olduqca böyük, çoxistiqamətli dəyərlər yaranmasını təmin etmişdi. Belə ki, ölkənin beynəlxalq nüfuzu yüksəldi, iqtisadiyyatı gücləndi, müxtəlif sektorlara qoyulan investisiyaların həcmi dəfələrlə çoxaldı, hərbi gücümüz artdı, aqrar sektorda inkişaf layihələri həyata keçirildi. Habelə Neft Fondu yaradıldı ki, bu da bu gün və gələcək üçün mühüm maliyyə təminatçısı oldu, Xəzərin Azərbaycan sektorunda yeni yataqların ən müasir üsullarla mənimsənilməsinə başlanıldı, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirildi, istedadlı gənclərin xaricdə təhsilinə böyük vəsaitlər ayrıldı və sairə.

Kitabın II cildi "Yeni neft strategiyasının İlham Əliyev mərhələsi" adlanır. Bu cilddə verilən sistemli təhlillər həqiqətən də Preziden İlham Əliyevin Ulu Öndərin bənzərsiz neft strategiyasını uğurla davam etdirdiyini göstərir. Məhz bu uğurlu siyasət sayəsində ölkəmiz dünyanın nüfuzlu enerji təminatçısı ölkələrindən biri kimi qəbul olunur.

Bu gün ölkəmiz Avropanın bir sıra ölkələrinə neft və qaz ixrac edir. Eyni zamanda düzgün neft strategiyası ölkəmizin "yaşıl enerji" istehsalçısı ölkəsinə çevrilməsində də mühüm rol oynayır. Təsadüfi deyil ki, COP29 beynəlxalq tədbiri məhz Azərbaycanda keçirildi.

Azərbaycanın neft strategiyası həm də ordumuzun qüdrətlənməsində böyük rol oynadı. Otuz ildən çox davam edən müharibəyə son qoyuldu, torpaqlarımız işğaldan azad edildi, tam suverenlik təmin oldu. İşğaldan azad olmuş torpaqlara Böyük qayıdış başladı. Prezident Ali Baş Komandan İlham Əliyev tarixi zəfərimizi təmin etdi.

Kitabın III cildi "Əsrin müqaviləsi"nə dair rəsmi sənədlər" adlanır. Əslində, III cildin bu sənədlərdən ibarət olması çox doğrudur. Müstəqillik dövrünün bütün uğurları "Əsrin müqaviləsi"nin böyük təməli üzərində yaranıb. Bu gün də bu uğurla davam edir.

Kitab tələbələr, magistr və doktorantura təhsili alanlar, siyasətçilər, istehsalat rəhbərləri, bütövlükdə geniş oxucu kütləsi üçün dəyərli ensiklopedik mənbədir.

Bu kitabın hər səhifəsində Ulu Öndərin və Prezident İlham Əliyevin xalq üçün ən yaxşı səviyyədə etdiklərinin səliqə-sahmanlı ifadəsi var. Əslində, bu ifadə 44 günlük Vətən müharibəsində misilsiz Zəfərin hansı səbəbdən mümkün olduğunu təsdiq edir.

***Vaqif ABBASOV,***
***akademik***

# Azərbaycan həm Orta dəhliz, həm də "Şimal-Cənub" marşrutunun mərkəzi qismində çıxış edir

**Qlobal sistemin sürətli transformasiyası, ənənəvi ticarət yollarının pozulması, qlobal və regional aktorlar arasında güc balansının getdikcə gözlənilməz hala gəlməsi kontekstində "orta güclərin" əhəmiyyəti kəskin şəkildə artır. Bu ölkələr getdikcə regional sabitliyin, tranzitin, enerji təhlükəsizliyinin və rəqabət aparan güc mərkəzləri arasında siyasi dialoqun obyektlərinə deyil, aktiv memarlarına çevrilir.**

Cənubi Qafqaz bu gün maraqların, risklərin və imkanların kəsişdiyi, coğrafiyanın yenidən həlledici rol oynadığı bir məkandır. Münaqişələr, sanksiyalar və etimad böhranları fonunda çevikliyə, praqmatizmə və strateji muxtariyyətə əsaslanan xarici siyasət modelləri diqqəti xüsusi cəlb edir. Bu kontekstdə regional və qlobal proseslərə təsir etmək qabiliyyətini qoruyub saxlayan, böyük güclərin rəqabətinin mürəkkəb mühitində öz fəaliyyət kursunu formalaşdıran bir dövlət nümunəsi olan Azərbaycanın təcrübəsi xüsusi maraq doğurur.

AZƏRTAC geosiyasət və geoiqtisadiyyat üzrə amerikalı ekspert Nikolas Qvozdyov ilə müsahibəni təqdim edir.

*- Azərbaycan Şərqlə Qərb arasında, Rusiya, Türkiyə, İran, Aİ və ABŞ-nin maraqlarının kəsişməsində strateji mövqe tutur. Müasir qlobal siyasət və əsas güc mərkəzləri arasındakı rəqabət kontekstində Azərbaycanın geosiyasi rolunu necə qiymətləndirirsiniz?*

- Bu gün Azərbaycan dünyanın ən vacib dövlətlərindən biridir. O həm Orta dəhlizdə, həm də "Şimal-Cənub" marşrutlarında mərkəzi qismində çıxış edir. Bundan əlavə, Azərbaycan dünyanın aparıcı "orta güc"lərindən biridir, əhəmiyyətli hərbi və iqtisadi potensiala malikdir. Bu amillər ona qonşuları ilə güc və özünəinam mövqeyindən danışıqlar aparmağa imkan verir. Onun xarici siyasətinin əsas hərəkətverici qüvvələrindən biri, sözün ən yaxşı mənasında, neytrallığa sadiqlik - bütün aparıcı dövlətlər və bloklarla yaxşı və məhsuldar münasibətlərə açıqlıq, eyni zamanda öz təhlükəsizliyi üçün onların hər hansı birindən asılılığı rədd etmək olub.

Bu neytrallıq dünyanın ən böyük iqtisadi məkanlarından birini kommersiya və ticarət üçün açıq saxlamaq qabiliyyəti ilə birlikdə, həm də son iki ildə baş verən hadisələr fonunda xüsusi əhəmiyyət kəsb edib. Rusiya ilə Ukrayna arasındakı müharibə Avropa və Avrasiyanın bir çox sahədə birbaşa əlaqələrini kəsib. Yaxın Şərqdə davam edən gərginlik Qırmızı dənizdən keçən ticarət yollarını pozub və bu, Asiya ilə Avropa arasında ticarətə mənfi təsir göstərib. Belə yüksək qeyri-müəyyənlik fonunda Orta dəhliz qlobal iqtisadiyyatın dayanıqlılığı və sabitliyi üçün daha da vacib hala gəlir.

*- Cənubi Qafqaz son illərdə genişmiqyaslı münaqişənin bitməsindən tutmuş qonşular arasında münasibətlərin normallaşdırılması cəhdlərinə qədər məsələlərdə mürəkkəb bir dövr yaşayır. Bu gün davamlı regional təhlükəsizliyin qurulması üçün hansı çağırışlar və imkanlar görürsünüz?*

- Otuz il əvvəl, Sovet İttifaqının süqutundan sonra ortaya çıxan ən uğursuz tendensiyalardan biri də bir dövlətin yalnız qonşularının hesabına inkişaf edə biləcəyinə və siyasətin mahiyyət etibarilə "sıfır məbləğli" bir oyun olduğuna inanmaq idi, burada bir tərəfin qazancı digərinin labüd şəkildə itirməsi deməkdir. Normallaşma prosesi Cənubi Qafqaz və Orta Asiyadakı bütün ölkələrə əməkdaşlığın istisnasız olaraq hər kəs üçün faydalı olduğunu anlamaqda bir fürsət təqdim edir. Bundan əlavə, bu, xarici aktorların bölgədəki ölkələri bir-birinə qarşı qoymaq qabiliyyətini əhəmiyyətli dərəcədə azaldır.

Hazırkı sülh prosesinin əsas çətinliyi vətəndaşların real, maddi fayda gətirən qarşılıqlı faydalı əlaqələrin yaradılması üzrə "inteqrativ güc" adlanan sistemi qurmaq ehtiyacıdır. Bu kontekstdə irəliyə doğru digər mühüm addım əməkdaşlığın inkişaf etdirilməsi və böyük dövlətlərlə vahid blok çərçivəsində danışıqlar aparmaq qabiliyyətinin nümunəsi kimi Cənubi Qafqazın Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası (ASEAN) modelinə müraciət etməsi ola bilər.

*- Azərbaycan Aİ və ABŞ-dən tutmuş Yaxın Şərq və Mərkəzi Asiyaya qədər müxtəlif beynəlxalq aktorlarla münasibətlərini fəal şəkildə inkişaf etdirir. Sizin zənnizcə, bu gün "orta güc"lərin çoxvektorlu xarici siyasətinin uğurunu hansı amillər müəyyən edir?*

- Azərbaycan digər dövlətlər və birliklər ilə münasibətlərinin qurulması məsələsində heç bir ölkəyə və ya bloka öz şərtlərini diktə etməyə icazə verməməlidir. Bu, vacibdir. Azərbaycan Rusiya ilə qarşılıqlı



faydalı münasibətlərindən imtina etmədən Qərblə əməkdaşlığı genişləndirən azsaylı ölkələrdən biridir. Ölkəniz İran, Fars körfəzi dövlətləri və Türkiyə ilə əlaqələrini qoruyur, eyni zamanda Çin və Hindistanla əməkdaşlığı inkişaf etdirir. Azərbaycan daxili və xarici siyasət qərarlarına müdaxilə etməmək prinsipinə qətiyyətlə sadiqdir və bu, indiyə qədər ona etibarlı dayaq olub.

Zənnimcə, indi getdikcə daha aydın olur ki, Qərb iqtisadiyyatlarının ehtiyac duyduğu resursların, mineralların və enerjinin tədarükü üçün həyati əhəmiyyətli bir marşrut olan Orta Dəhlizin təhlükəsizliyini, həm də bu vəsilə ilə öz təhlükəsizliklərini təmin etmək Azərbaycanın çoxvektorlu yanaşmasını başa düşmədən və dəstəkləmədən mümkün deyil.

*- Azərbaycan enerji bazarında əsas aktorlardan biridir, Avropaya və digər bölgələrə neft və qaz tədarük edir. Azərbaycanın enerji siyasəti onun qlobal səhnədə strateji mövqeyinin möhkəmlənməsinə necə töhfə verə bilər?*

- Enerji Dördüncü Sənaye İnqilabının hərəkətverici qüvvəsidir. Etibarlı enerji təchizatı olmadan heç bir ölkə inkişaf edə və ya əhalisinin əsas ehtiyaclarını ödəyə bilməz. Bir çox digər enerji marşrutları ya artıq pozulub ("Şimal Axını" boru kəmərinin nümunəsində), ya da təhlükə altındadır (Hörmüz boğazında olduğu kimi). Belə bir şəraitdə Azərbaycan əsas etibarlı enerji dövləti kimi ortaya çıxır. Bu, təkcə onun öz istehsalı ilə bağlı deyil, həm də Avrasiyanın əhəmiyyətli bir hissəsi boyunca enerji ehtiyatlarının təhlükəsiz və sabit daşınması ilə əlaqədardır.

*- Müasir şərtlər altında bir çox ölkə kiberhücumlardan tutmuş informasiya kampaniyalarına qədər hibrid təhdidlərlə üzləşir. Azərbaycan da daxil olmaqla, region ölkələrinə milli təhlükəsizlik sahəsində strateji dayanıqlılıq üçün hansı mexanizmləri tövsiyə edərdiniz?*

- Davamlılıq özünü təminetmə, eləcə də ehtiyatların, alternativlərin və seçimlərin mövcudluğu vasitəsilə qurulur. Qida, maliyyə xidmətləri və ya başqa bir sahə olsun, tək bir xarici mənbədən həddindən artıq texnoloji asılılıq olduqda, labüd şəkildə zəifliklər yaranır. Buna görə də bütün Orta dəhliz infrastrukturunun təhlükəsizliyini təmin etmək üçün regional əməkdaşlıq vacibdir. Bu baxımdan ASEAN modeli Azərbaycanın gələcəyi üçün xüsusilə vacibdir. Bakı Limanı burada müxtəlif tranzit növlərini birləşdirən intermodal mərkəz kimi əsas rol oynayır.

*- Cənubi Qafqaz ölkələri arasında çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üzrə hansı perspektivləri görürsünüz və Azərbaycan regional tərəfdaş kimi bundan necə faydalana bilər?*

- Region ölkələri üzvi, təbii inteqrasiya modelini qəbul etməlidir və bu, Qara və Xəzər dənizləri makroregionunun mərkəzi mövqelərini tanımaqla başlayır. Başqa sözlə, Qafqaz ölkələrinin məqsədi başqa bir regiona (Avropaya, Yaxın Şərqə və sairə) "qoşulmaq", öz coğrafiyalarını dünyanın daha böyük bir hissəsinin əlavəsi deyil, müstəqil, ayrılmaz bir məkan kimi qəbul etməkdir.

# REGİONLAR

## Lənkəranda "Yaşa Hospital" fəaliyyətə başlayıb

**Lənkəran şəhərində yeni inşa edilmiş 90 çarpayılıq "Yaşa Hospital"ın açılış mərasimi keçirilib. Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov iştirak ediblər.**







Ümumi dəyəri 9 milyon manat, sahəsi 0,22 hektar, tikinti sahəsi 4 min kvadratmetr olan hospitalın tikintisinə 2022-ci ildən başlanılmışdı. 3 mərtəbə və mansarddan ibarət olan, ən müasir avadanlıqlarla təchiz edilən hospitalda 6 əməliyyat bloku, laboratoriya kabineti, 8 nəfərlik ümumi reanimasiya və 4 nəfərlik kardio reanimasiya bloku mövcuddur. Hospitalda ürək-damar, travmatoloji, neyroloji, ümumi, oftalmoloji və plastik cərrahiyyə, angioqrafiya xidmətləri göstəriləcək.

Hospitalın ümumi xəstə tutumu 90 nəfərlik, iş yerlərinin sayı isə 150 nəfərdir. Bu müasir səhiyyə müəssisəsində bir gündə 300 nəfərə xidmət göstərilməsi nəzərdə tutulub.

Təcili tibbi yardımın təşkili üçün hospital biri reanimobil olmaqla 2 ambulans avtomobillə təmin olunub və 3 yerlik təcili yardım xidməti şöbəsi yaradılıb.

Tibbi avadanlıqlar Almaniya, Türkiyə, Cənubi Koreya və Yaponiyadan gətirilib. Bu avadanlıqlar hesabına regionda ilk dəfə olaraq "Yaşa Hospital"da laporoskopik, endoskopik və kolonoskopik əməliyyatları həyata keçiriləcək.

Qeyd edək ki, ölkəmizdə səhiyyə sahəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir və Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu sahəyə daim xüsusi diqqət və qayğı göstərirlər. Səhiyyənin inkişafı, maddi-texniki bazasının gücləndirilməsi, tibbi xidmətlərin ən müasir səviyyəyə çatdırılması, müasir tibb müəssisələrinin inşası və mövcud tibb müəssisələrinin əsaslı bərpası diqqət mərkəzində saxlanılır. Dövlət başçısının regionların sosial-iqtisadi inkişafı siyasətinin tərkib hissəsi kimi bütün bölgələrdə, o cümlədən cənub regionunda səhiyyə son dövrlər xeyli inkişaf edib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Naxçıvanda ümumi gücü 50 meqavat olan günəş-elektrik stansiyaları layihələri üzrə müqavilələr imzalanıb

**Energetika Nazirliyində energetika naziri Pərviz Şahbazov, "AzərEnerji" ASC, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, "Azerbaijan Green Enerji Company" (AGEC), "CEI Naxçıvan" MMC, "Nobel Energy" və "Enerso" MMC-nin rəhbər şəxslərinin iştirakı ilə görüş keçirilib.**



Görüşdə Naxçıvanın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "yaşıl enerji zonası" ilə bağlı strateji baxışına uyğun inkişaf etdirildiyi, Muxtar Respublikada bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, müasir şəbəkə infrastrukturunun qurulması və enerji sisteminin gücləndirilməsi istiqamətində görülən tədbirlərdən bəhs edilib. Zəngəzur dəhlizinin enerji komponenti üzrə həyata keçirilən işlər, o cümlədən enerji sistemlərinin birləşdirilməsi, Naxçıvandan elektrik enerjisinin ixrac edilməsi perspektivləri nəzərdən keçirilib. Naxçıvanda 50 meqavat gücündə günəş-elektrik stansiyalarının tikintisi ilə bağlı "CEI Nakhchivan" MMC və "Enerso" MMC ilə əməkdaşlıq ölkəmizin "yaşıl enerji" gündəliyində mühüm mərhələ kimi dəyərləndirilib.

"Naxçıvan Muxtar Respublikasının enerji təhlükəsizliyinin gücləndirilməsi, davamlı sosial-iqtisadi inkişafının sürətləndirilməsi və onun regional enerji istehsalı və ixrac mərkəzinə çevrilməsi məqsədilə bərpaolunan enerji mənbələrinin geniş tətbiqi dövlət başçısının strateji kursunda prioritet istiqamətlərdən biridir. Hazırda Naxçıvanda bərpaolunan enerji mənbələrinin payı elektrik enerjisinin quraşdırılmış gücündə 44 faiz, istehsalında isə 36,4 faiz təşkil edir. Naxçıvanda bərpaolunan enerji sahəsində özəl investisiyanın ilk nümunələri olan, ümumi investisiya dəyəri 60 milyon manatdan çox təşkil edən "Şəms 1" və "Qərbi Üfüq" günəş-elektrik stansiyaları bölgədə "yaşıl inkişaf" modelinin formalaşmasına mühüm töhfə verəcək", - deyə energetika naziri Pərviz Şahbazov bildirib.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev Naxçıvan Muxtar Respublikasında enerji təchizatının dayanıqlılığının gücləndirilməsi və xüsusilə yay aylarında artan tələbatın qarşılanması baxımından günəş-elektrik stansiyalarının vacibliyini vurğulayıb.

Naxçıvan MR-in iqtisadiyyat naziri Kazım Hüseynəliyev isə strateji əhəmiyyətli bu iqtisadi rayonun zəngin günəş enerjisi potensialının reallaşdırılmasında bu yeni layihələrin rolunu yüksək qiymətləndirib. Naxçıvanda yaradılacaq yeni güclərin iqtisadi inkişafa, gələcəkdə qonşu ölkələrə və Avropaya enerji ixracına da təkan verəcəyi qeyd edilib.

AGEC-in İdarə Heyətinin sədr müavini Xəyalə Nağıyeva bildirib: "İnanırıq ki, dövlət qurumları ilə tərəfdaşlıq çərçivəsində həyata keçirilən bu təşəbbüs regionda "yaşıl investisiya"ların artmasına və uzunmüddətli iqtisadi dəyərin formalaşmasına zəmin yaradacaq. Bu layihə dövlət və özəl sektor sinerjisinin real nəticəsidir. Layihə həm regionun enerji təhlükəsizliyinə töhfə verəcək, həm də Azərbaycanın bərpaolunan enerji üzrə strateji hədəflərinə xidmət edəcək".

"Nobel Energy" şirkətinin baş kommersiya direktoru Eldar Məmmədzadə deyib: "Günəş-elektrik stansiyalarının inkişafı ilə bərpaolunan enerjidən istifadənin genişləndirilməsini təmin edərək, Naxçıvanda "Yaşıl Enerji Zonası" təşəbbüsünü dəstəkləməkdən məmnunuq. "Nobel Energy" olaraq regionda müasir və dayanıqlı enerji infrastrukturunun qurulması ilə iqtisadi artıma və enerji keçidinə töhfə verməyə davam edirik".

Yekunda Azərbaycan Respublikası Hökuməti və "AzərEnerji" ASC ilə "CEI Nakhchivan" MMC arasında Naxçıvan Muxtar Respublikasında 25 meqavat gücündə "Şəms 1" Günəş-Elektrik Stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. Həmçinin Azərbaycan Respublikası Hökuməti və "AzərEnerji" ASC ilə "Enerso" MMC arasında 25 meqavat gücündə "Qərbi Üfüq" Günəş-Elektrik Stansiyası layihəsi üzrə "İnvestisiya müqaviləsi", "Enerji alqı-satqı müqaviləsi" və "Ötürücü şəbəkəyə qoşulma müqaviləsi" imzalanıb. Şirkətlərlə stansiyalar üzrə investisiya müqavilələri Azərbaycan Respublikası Hökuməti adından energetika naziri Pərviz Şahbazov, enerji alqı-satqı və ötürücü şəbəkəyə qoşulma müqavilələri isə "AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev tərəfindən imzalanıb.

Bu layihələrin reallaşması nəticəsində ümumilikdə illik 122 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilir ki, bu da 26 milyon kubmetr qaza qənaət edilməsinə, 57 min ton karbon emissiyasının azaldılmasına imkan yaradacaq.

## Gəncə Avtomobil zavodu yeni sosial layihəyə start verib

### Uşaq evinin 16 yaşlı 3 yetirməsi qanunvericiliyin tələblərinə uyğun işlə təmin olunub

**Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi sosial layihələrin icrasını davam etdirir. Müəssisə bu dəfə "4 saylı uşaq evi sosial xidmət müəssisəsi" publik hüquq şəxsin yetkinlik yaşına çatmış sakinlərinin işlə təmin olunmasına dəstək məqsədilə yeni layihəyə start vermişdir.**



Bu məqsədlə Gəncədə yerləşən "4 saylı uşaq evi sosial xidmət müəssisəsi" publik hüquqi şəxs ilə Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi arasında niyyət sazişi imzalanmışdır. Sazişə əsasən, hər iki qurum arasında yetkinlik yaşına çatmış yeniyetmələrin işlə təmin olunması barədə razılaşma əldə edilmişdir. Bu məqsədlə uşaq evinin 16 yaşı tamam olmuş 3 yetirməsi ilə Azərbaycan qanunvericiliyinə uyğun olaraq 0,5 ştat vahidi üzrə 4 saatlıq iş rejimində əməkhaqqı ödənilməklə rəsmi əmək müqavilələri bağlanmışdır. İşə qəbul edilən yeniyetmələr zavodun digər əməkdaşları kimi xüsusi geyim, nəqliyyat və nahar yeməyi ilə təmin olunmuşlar.

Bununla bağlı Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev Gəncə Avtomobil Zavodu İstehsalat Birliyində olmuş və müəssisənin yığım xəttində fəaliyyətə başlayan yeniyetmələr üçün yaradılan iş şəraiti ilə yaxından tanış olmuşdur. Görüşdə zavodun direktoru Amin Əliyev bildirmişdir ki, müəssisədə müxtəlif yığım sahələrində uşaq evi yetirmələri üçün bütün lazımi şərait yaradılmışdır. Məqsəd onların orta məktəb təhsilini başa vurduqdan sonra istədikləri ixtisaslara yiyələnərək gələcəkdə işlə təmin olunmalarıdır. Yeniyetmələrlə görüş zamanı Adil Tağıyev layihənin əhəmiyyətini yüksək qiymətləndirərək qeyd etmişdir ki, uşaq evi yetirmələrinin işlə təmin olunması onların gələcəkdə cəmiyyətə inteqrasiyasında mühüm rol oynayacaq.

"4 saylı uşaq evi sosial xidmət müəssisəsi"nin yetirmələri onlara göstərilən etimada və yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Biləsuvarda rəqəmsal savadlılıq təlimləri keçirilib

**Prezident İlham Əliyevin sədrliyi ilə ölkədə süni intellektin inkişafı və rəqəmsal transformasiyaya dair fevralın 11-də keçirilmiş müşavirədən irəli gələn vəzifələrə uyğun olaraq, Biləsuvarda dövlət idarəçiliyinin rəqəmsal transformasiyasını sürətləndirmək və kadr potensialını müasir standartlara uyğunlaşdırmaq məqsədilə rayonda fəaliyyət göstərən dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının əməkdaşları üçün genişmiqyaslı rəqəmsal savadlılıq təlimləri keçirilib.**

Biləsuvar RİH-in təşəbbüsü, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) birgə təşkilatçılığı ilə keçirilən təlimlərin rəsmi hissəsində çıxış edən rayon icra hakimiyyətinin başçısı F.Qürbətov və İRİA-nın İnformasiya təhlükəsizliyi departamentinin müdiri Ş.Hacıyahyayev rəqəmsallaşmanın müasir idarəetmədəki strateji rolunu vurğulayıblar. Qeyd olunub ki, rəqəmsal keçid sadəcə texnoloji yenilik deyil, həm də vətəndaşlara göstərilən xidmətlərin şəffaflığı və operativliyinin təminatıdır.

Gün boyu davam edən intensiv proqram çərçivəsində iştirakçılar rəqəmsal dünyanın ən aktual istiqamətləri üzrə həm nəzəri, həm də praktik biliklərə yiyələniblər. Süni intellekt və gündəlik iş prosesləri adlı təlimdə iştirakçılara süni intellekt alətlərinin sənəd dövriyyəsində, məlumatların analizində və vaxtın səmərəli idarə edilməsində necə tətbiq olunacağı əyani şəkildə nümayiş etdirilib, süni intellektin dövlət qulluqçusunun "rəqəmsal köməkçisinə" çevrilməsi yolları müzakirə olunub. Kibertəhlükəsizlik və məlumatların mühafizəsi ilə əlaqədar təşkil olunan təlimdə dövlət informasiya sistemlərinin kiberhücumlardan qorunması, "fayrvoll" sistemlərinin iş prinsipi və dövlət sirri daşıyan məlumatların rəqəmsal mühitdə təhlükəsiz saxlanılması üsulları öyrədilib. Sosial mühəndislik və hücum növləri ilə bağlı təlimçilər tərəfindən müasir dünyada ən çox rast gəlinən manipulyasiya üsulları və sosial mühəndislik hücumlarından qorunma yolları izah edilib, insan amilinin kibertəhlükəsizlik zəncirindəki ən həssas bənd olduğu və fərdi ayıq-sayıqlığın əhəmiyyəti xüsusi vurğulanıb. Bulud texnologiyaları və kollektiv iş adlı təlimdə isə ofis alətlərinin rəqəmsal versiyalarından istifadə edərək eyni sənəd üzərində bir neçə şöbənin eyni vaxtda və koordinasiyalı şəkildə çalışmasının səmərəsi iştirakçılara aşılanıb.

Təlimin sonunda vurğulanıb ki, bu biliklər Biləsuvarda "ağıllı idarəetmə" modelinin təməlini qoyur və kadrların rəqəmsal çevikliyini artıraraq idarəetmədə şəffaflığı təmin etməklə sənəd dövriyyəsinin daha sadə və səmərəli şəkildə həyata keçirilməsinə şərait yaradır.

İştirakçıların marağına səbəb olan tədbir müzakirələr və xatirə fotosunun çəkilişi ilə yekunlaşıb.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## "İnsan təfəkkürünə sığmayan dəhşət"

**Yardımlı Rayon İcra Hakimiyyətinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Xocalı faciəsinin 34-cü ildönümü ilə bağlı "İnsan təfəkkürünə sığmayan dəhşət" adlı "dəyirmi masa" təşkil olunub.**

Öncə faciə qurbanlarının, eləcə də Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü yolunda canını qurban vermiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra çıxışlar olub. Çıxış edənlər 1987-ci ilin sonlarından Ermənistanın Qarabağın dağlıq hissəsini özünə birləşdirmək məqsədilə Azərbaycana qarşı təcavüzkar fəaliyyətlərə başlamasından, strateji mövqeyinə görə əsas hədəfdə Xocalının olmasından, 1991-ci ilin oktyabr ayından etibarən dəhşətlər yaşayan bu şəhərin mühasirəyə alınmasından, dinc əhaliyə misli görünməmiş divan tutularaq şəhərin işğal olunmasından söz açıblar. Natiqlər həmçinin faciə şahidlərinin müsahibələrindən olan həqiqətləri, hadisənin dünya mediasında işıqlandırılmasını, Ulu Öndər Heydər Əliyevin sayəsində faciəyə verilən hüquqi, siyasi qiyməti, Vətən müharibəsi və antiterror tədbirləri ilə ata-baba torpaqlarımızın düşməndən təmizlənməsini, bu gün Azərbaycan bayrağının qürurla Xocalıda və digər ərazilərimizdə dalğalanmasını, ərazi bütövlüyümüzün və suverenliyimizin daimi olması üçün gənclərin üzərinə düşən öhdəlikləri diqqətə çatdırıblar.

Tədbirin sonunda faciədən bəhs edən "Unudulmayan Xocalı" adlı sərgiyə baxış keçirilib və xatirə şəkilləri çəkilib.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## "Azərtütün" bu il şimal-qərb rayonlarında 800 hektaradək sahədə tütün əkməyi planlaşdırır

**"Azərtütün" Açıq Səhmdar Cəmiyyəti (ASC) tərəfindən respublikanın şimal-qərb bölgəsinə daxil olan Zaqatala, Balakən, Qax, Şəki və Oğuz rayonlarında builki mövsüm üçün tütün əkininə hazırlıq işləri davam etdirilir. Tütün istehsalı ilə əlaqədar indiyədək cəmiyyət tərəfindən bu rayonlarda 31 fermerlə müqavilə bağlanılıb və hazırda proses davam edir.**



Səhmdar cəmiyyətdən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, indiyədək fermerlərlə bağlanılan müqavilələr üzrə tütün əkiləcək sahə 356,8 hektar təşkil edir. Bundan əlavə, şirkətin özü tərəfindən də bu il şimal-qərb bölgəsində 421,5 hektar sahədə tütün əkilməsi nəzərdə tutulur. Artıq istixanalarda tütün şitillərinin yetişdirilməsinə də başlanılıb.

Xatırladaq ki, "Azərtütün" ASC ötənilki mövsümdə şimal-qərb bölgəsi rayonlarında 868,7 hektar sahədə "Virciniya botaniki" növlü tütün əkib. Bunun 446 hektarı şirkətə, 422,7 hektarı isə fermerlərə məxsus sahələr olub. Tütün istehsalı ilə əlaqədar 50 fermerlə müqavilə bağlanıb. Mövsüm ərzində ASC-nin bölgədə fəaliyyət göstərən tütün istehsalı və emalı məntəqələrinə fermerlərdən 14 min 365,6 ton yaş tütün daxil olub. Emal məntəqələrində yaş tütündən 2215 ton quru tütün istehsal olunub. Tütün istehsalı əvvəlki illə müqayisədə 985 ton artıb.

## Hunanlarlıların çörəyi yerkökündən çıxır

**Yerkökü qərb bölgəsində ən çox Tovuzun Hunanlar kəndində yetişdirilir. Kənd sakinləri illərdir ki, bu işlə məşğul olurlar və istehsal etdikləri məhsulun satışından hər il xeyli gəlir götürürlər.**

Qeyd edək ki, kənd sakinləri ildə üç dəfə yerkökü əkirlər. Əkinin biri payız aylarında həyata keçirilir və yığımına fevral ayında başlanılır. Kənd sakinlərinin dediyinə görə, bu il məhsul olduqca boldur. Hər gün səhər tezdən əkin sahələrinə çıxan sakinlər yetişdirdikləri məhsulu vaxtında və itkisiz toplamaq üçün əllərindən gələni əsirgəmirlər.

Kür çayının sahilində yerləşən Hunanlar kəndində elə bir ailə yoxdur ki, yerkökü yetişdirməklə məşğul olmasın. Hazırda kənddəki 428 təsərrüfatın 400-ə yaxını yerkökü yetişdirir. Abuzər Məcidov, Məhəmməd Abdullayev, Yavər Nəcəfov və başqaları hər il yerkökündən yüksək qazanc əldə edirlər.

Söhbət zamanı təsərrüfat sahibləri bildirdilər ki, məhsul bol olsa da, satışında müəyyən problemlər var. Hazırda bazarlara çıxarılan yerkökünün bir kiloqramı 45-50 qəpik arasında satılır ki, bu da məhsula çəkilmiş xərci ödəmir.

Hazırda Tovuzun Hunanlar kəndinin əkin sahələrinin hər hektarından gün ərzində 40-45 ton yerkökü yığılır. Yığılan məhsulun satışında yaranan problem isə kənd sakinlərini ruhdan salmır. Onlar bilirlər ki, istehsal etdikləri məhsul gec-tez öz müştərisini tapacaq.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Xaqani Şirvani – 900

# "Söz mülkünün günəşi"

**Azərbaycanın dünya ədəbiyyatına bəxş etdiyi ən qüdrətli şairlərdən biri də dahi Nizami Gəncəvi ilə eyni dövrdə yaşamış Əfzələddin Xaqani Şirvanidir. Onun çox zəngin ədəbi irsi var. Klassik poeziyanın demək olar ki, bütün janrlarında şeirlər yazıb.**



Əsərlərinin hamısı ərəb və fars dillərindədir. Əksər araşdırıcılar bunu dövrün, zamanın tələbi ilə əlaqələndirirlər. Ancaq hansı dildə yazılmasından asılı olmayaraq, bu əsərlərin çoxu türk ruhuyla yoğrulub. Onun şeirlərinin çoxunun türk düşüncəsindən süzülüb gəldiyini duymaq çətin deyil. Şair bütün yaradıcılığı boyu zəngin türk ağız ədəbiyyatından böyük ustalıqla bəhrələnmiş, onun obraz, süjet və motivlərindən dönə-dönə istifadə etmiş, bu yolla fikrin poetik ifadəsini daha da gücləndirmişdir.

Xaqani Şirvaninin yaradıcılığını şərti olaraq iki dövrə bölmək olar. Bu bölgü zamanla yox, əsərlərin məzmunu ilə bağlıdır. Birinci dövrdə şair daha çox mədhiyyələr düzüb-qoşmuş, məddah kimi tanınmışdır. Odur ki, bir çox çağdaşları onu saray şairi adlandırmışlar. Yaradıcılığının ikinci dövründə yazdığı əsərlər Xaqaniyə şöhrət qazandırmış, onu xalqa sevdirmiş, adı dildən-dilə düşüb, eldən-elə gəzmişdir. Çünki bu əsərlərdə şair mədhiyyəçilikdən uzaqlaşmış, insan taleyini ön plana çəkmiş, müasirlərinin arzu və hisslərinin, duyğu və düşüncələrinin bədii ifadəsinə üstünlük vermişdir.

Şair yaradıcılığının ikinci dövründə şahların və onların ətrafındakı əyan-əşrəflərin zülmü, haqsızlığı, ədalətsizliyi, habelə xalqın dərisini soyan amansız qanun-qaydalarıyla barışmır. Əzilən, tapdalanan, haqqı yeyilən, min cür əzab-əziyyət çəkən insanların dərdini-səsini, duyğu və düşüncələrini qələmə alırdı. Əgər mədhiyyələrində şahları, varlı və imkanlı adamları, vəzifə tutanları tərifləyirdisə, sonrakı şeirləri büsbütün xalq ruhuyla yoğrulmuşdu. "Zəmanədən şikayət", "Yenə zəmanədən şikayət", "Zəmanədə axtarma rahatlıqdan bir əsər", "Çörək", "İndi ki, yer üzündə insafdan yoxdur nişan ...", "Cahandan kənarda özünə yer axtar", "Ürəyimə zəmanənin əli neştər vurduğundan...", "Zəmanədə qalmamışdır vəfadan bir əlamət...", "Bu zülmkar dövranda bir vəfa görmədim...", "Nə vaxtadək sitəm çəkəcəyəm mən?" belə şeirlərdir. Şairin onlarla belə kəskin ruhlu, xalqın ürəyindən tikan çıxardan şeiri var. Bu şeirlərin hamısının əsas qayəsi insan, onun həyatı, taleyi, arzu və düşüncələri, hiss və həyəcanlarıdır. Şair bu dövrdə saraya, şahlara, onun ətrafında quyruq bulayıb xalqa zülm verənlərə, zülmə, zalımlığa, haqsızlığa, ədalətsizliyə, bütün bu deyilənlərlə nəfəs alan zəmanəsinə qarşı çox sərt, barışmaz mövqe tutmuşdur.

Xaqani həbsxanada onun əsərlərinin şahı sayıla biləcək "Həbsiyyə"ni yazmışdır. Həcmcə o qədər də böyük olmayan bu əsər şairin həmin vaxtlardakı hiss, həyəcan, duyğu, fikir və düşüncələrinin bənzərsiz poetik ifadəsidir. Bu şeirləri Əhsitan sarayının, ordakı ab-havanın, dövrün güzgüsü adlandırsaq, yanılmarıq. Onlarda əzən və əzilən, zülm verən və zülm çəkən, haqqı yeyən və haqqı yeyilən, harın və sadə, əli qamçılı və boynu zəncirli, qolu qandallı, ayağı kündəli insan obrazları üz-üzə qoyulur, onların bütün daxili aləmləri, iç dünyaları açılıb göstərilir. Bu şeirləri oxuyub o saray və zaman haqqında çox şeyləri öyrənmək mümkündür.

"Həbsiyyə"yə daxil olan şeirlər yalnız şairin ağrı-acılarıyla, sızıltılarıyla, türmədə çəkdiyi əzab-əziyyətlərlə, orada verilən işgəncələrlə, ahla, amanla, giley-güzarla yoğrulmayıb. Onlarda şair özünün kimliyini açıb göstərir. Böyüklüyünü, qüdrətini, sözünün dəyərini, kəsərini və zamanın, nadanların gözləri kor olduğuna görə bütün bunları görmədiyini, duymadığını, dəyərləndirmədiyini cəsarətlə qələmə alır. Axı o sarayın da, o zindanın da havasını başda Əhsitan olmaqla şairi sevməyən, ürəklərində millət və Vətən məhəbbəti olmayan insanlar yaratmışdılar. Ancaq şairin qüdrəti o qədər böyüdü ki, onun səsini zindan da boğa bilmirdi. Müşkünün ətri hər yana yayılırdı:

*Oxşaram müşkə, məni gər yüz hasara salsalar,*
*Çulğayar dünyanı öz ətrilə reyhanım mənim.*

Yaxud:

*Əql məndə, feyz məndə, qəlbü can da məndədir,*
*Aləmin həqqi nədir ki, verə fərmanım mənim.*
*Ülviyəm, ruhaniyəm, qeybi doğuldum qüdsdən,*
*Qoy bunu inkar qılsın xəsm-nadanım mənim.*

Bu beytin üçü də "Həbsiyyə"dən götürülüb. "Həbsiyyə"nin poetik dəyərini, fikir tutumunu artıran söz inciləridir.

Xaqani şeirlərinə bənzərsiz, özünəməxsus, bir-birindən gözəl epitetlərlə, bənzətmələrlə və s. elə bəzəklər, naxışlar vurmuşdur ki, onlar oxuyan adamı heyrətləndirir, ovsunlayır, öz ağuşuna alır, könlünü isidir, ovundurur və düşündürür:

*Sirlər yuvasından uçan bir quşam,*
*Səslə, qəfəsinə gəlib qonmuşam.*
*Qızıl papaqlı səhər qəşəng qəba büründü,*
*Gecə qunduz xəzini atıb, üryan göründü.*
*Sübh, dağlar başından aşıb gəldi sanki çay,*
*Sudan çıxan balığa bənzəyirdi göydə ay.*
*Günəşin nizələri ayın üzünə düşdü,*
*Bu nizələr qızıldı, Ay haləsi gümüşdü.*
*Bənövşəyi niqabda ərəb kimiydi gecə,*
*Niqabını açırdı o, Günəşi görüncə.*
*Sübh açılantək gecə qaçdı qara tülkütək,*
*Başına qoydu papaq saf qızıldan fələk.*
*Yaralanmış könlüm oxşar barlı arı şanına,*
*Verdiyim bal bulanmışdır ürəyimin qanına.*

Bu misraları, beytləri oxuyub heyrətlənməmək mümkündürmü?! Onların hər biri güclü istedadın, hüdudsuz poetik təfəkkürün, elmlə, biliklə, hiss və həyəcanlarla dolu olan ürəyin pıçıltılarıdır. Şeirin dəyəri də məhz həmin misra və beytlərin daşıdığı poetik yükün, bədii fikrin ağırlığıyla, sanbalıyla ölçülür.

Şair birinci beytdə özünü sirlər yuvasından uçan bir quşa bənzədir. Sirlər yuvası deyəndə haranı nəzərdə tutduğu bilinmir. Bu yuva əmisinin evi də ola bilər, Şirvan da - fərqi yoxdur. Əsas məsələ odur ki, şair sirlər yuvasından çıxmışdır, yəni bütün sirlərə bələddir. İkinci beytdə gecənin qara rəngli qunduz dərisini soyunduğunu, səhərin günəşin qızıl şəfəqlərini papaq kimi başına qoyduğunu təsvir edir. Sonrakı beytlərdə göydəki ayı sudan çıxmış balığa, Günəşin şəfəqlərini qızıl nizəyə, gecəni bu dəfə bənövşəyi niqablı ərəbə oxşadır və gözəl poetik lövhələr yaradır. Sonuncu beytdə şair könlünü balla dolu arı şanına bənzədir. Bu şanı o, sözlə doldurmuşdur. Onun balı sözdür. Sözü də ürəyinin qanına bulanmışdır, çünki şair şeirlərini ürəyindən qara qanlar axa-axa yazmışdır. Qələm ürəkdən su içir. Ürəyin də suyu qandır.

Xaqaninin şeirlərində çoxlu türk sözləri, geyim və xaqan adları işlənmiş, mifoloji obraz, süjet və motivlərindən istifadə edilmişdir. Qaftan bir türk geyimidir. Onun adına "Dədə Qorqud" dastanında çox rast gəlinir. Çovqan topla oynanılan qədim bir türk oyunudur. Onu atla oynayırlar. "Dədə Qorqud"da oğuzların çovqan oynadıqları haqqında zəngin bilgilər var.

Klassik poeziyamızda ərəb hərflərinin yazılışından və mənasından fikrin poetik ifadəsini gücləndirmək və obrazlılıq yaratmaq məqsədilə geniş şəkildə istifadə edilmişdir. Bunu Xaqaninin yaradıcılığında da görmək olur. Şair yeri gəldikcə sözlərin və hərflərin yazılışından ustalıqla istifadə edərək fikrin poetik tutumunu və sanbalını qat-qat artırır:

*Deyirlər ki, özümüzük dəniz güclü o xaqan,*
*Bəli, onlar Xaqanidir, ortasından atsan "qa"nı.*

Xaqani sözünün ortasındakı "qa"nı atanda "xani" qalır. Xani öz qarnını güdən alavaclara deyilir. Xaqani öz paxıllarına və bədxahlarına deyir ki, sizdən Xaqani olmaz, ancaq xani ola bilərsiniz. Belə misalların sayını istənilən qədər artırmaq olar.

Azərbaycan ədəbiyyatının korifeylərindən, dünya ədəbiyyatının dahi simalarından biri olan Əfzələddin Xaqani Şirvaninin həyat və yaradıcılığı hərtərəfli öyrənilmiş, haqqında monoqrafiyalar, yüzlərlə məqalələr yazılmışdılr. Lakin şairin yaradıcılığı hələ sirri açılmamış misra və beytlərlə o qədər zəngindir ki, onun əsərlərini hər dəfə oxuyanda təzə nə isə tapmaq mümkündür. Şair bir şeirində özünün "sirlər yuvasından çıxmış quş" olduğunu yazırdı. Onun poeziyası da sözün həqiqi anlamında sirlər yuvasıdır.

***İslam SADIQ,***
***filologiya elmləri doktoru***

● Novruz gəlir, yaz gəlir

# Su çərşənbəsi - mifik təfəkkürdə suyun həyat rəmzi

**Dünya xalqlarının yazın gəlişini, yeni həyatın başlamasını, gecə ilə gündüzün bərabərləşdiyi günü təmtəraqla keçirmək ənənəsi olub. Türk xalqlarının mifik düşüncə və təsəvvürlərini, inanc, ayin-ritual və mərasimlərini bu günümüzə yetirən sülhü, ədaləti, humanizmi, həmrəyliyi tərənnüm edən mənəvi dəyərlər sistemi Novruzdur.**



Bu mədəni dəyər xaosdan kosmosa keçidin əsas mərhələlərində bilavasitə iştirak edən dörd sakral varlığın adı ilə bağlıdır ki, bunlar Su, Od, Yel və Torpaqdır. Həmin dörd varlıq çərşənbələrin rəmzinə çevrilmiş, yaradılış və həyatvericilik funksiyasını formalaşdırmışdır.

"Çərşənbə" sözünün etimologiyası ilə bağlı mənbələrdə fərqli fikirlər var. Məsələn, bir mənbədə göstərilir ki, "qədim müsəlman təqvimində həftənin "cümə günü" bazar günü hesab olunduğu üçün həftənin V günü "çərşənbə", yəni dörd şənbəyə düşür". Çərşənbə "çaharşənbə" ifadəsinin işlək variantı kimi dilimizə daxil olmuşdur. Çərşənbə günü yer üzündə həyatın yaranması gününün axşamı, ərəfəsi sayılıb, həmin gün digər günlərdən daha düşərli olduğu üçün "mübarək gün" hesab edilib. İslam aləmində isə çərşənbə axşamı günü Məhəmməd peyğəmbərin zövcəsi Aişəyə məxsusdur. Başqa bir varianta görə, Şərq alimləri təqvim tərtib etməyə çalışıblar və həmin təqvimin hazırlanıb bitməsi çərşənbə axşamına təsadüf edib. Bəzi xalqlarda isə çərşənbə həftənin ağır günü hesab olunduğuna görə, həmin günün rahat keçməsini təmin etmək üçün onun axşamı hazırlıq işləri aparılardı.

Mifoloji inam və etiqadlara görə, dörd çərşənbənin hər birində bir həyat varlığı "dirilir", oyanır, təzələnir və bununla bağlı olaraq xalq arasında müxtəlif ayin-rituallar keçirilir. Novruzun müjdəçisinə çevrilən çərşənbələrin hər biri mifoloji mənbələrə əsaslanır və hər çərşənbədə mifik obrazlar iştirak edir.

Kiçik çillə bitəndən sonra novruzaqədərki mərhələdə boz ayın dörd çərşənbəsindən birincisi Su çərşənbəsidir. Su çərşənbəsi xalq arasında həm də "Əzəl çərşənbə", "Sular Novruzu", "Gözəl çərşənbə", "Gül çərşənbə", "Zəmzəm çərşənbə", "Sel çərşənbə" və s. adlandırılır.

Su ilkin başlanğıc və həyat mənbəyidir. Təbiətdə və insan həyatında suyun yeri müstəsnadır. Susuz həyat ölümə məhkumdur. Odur ki, həm mifoloji, həm də dini mənbələrin əksəriyyətində su ilkin həyatın başlanğıcı kimi təsvir olunur. Dünyanın yaranması ilə bağlı kosmoqonik miflərdə və təbiətdə yaranmış ilk varlıq sudur. Mif mətnində göstərilir ki, "Yer üzünün tamam suya qərq olduğu, sudan başqa heç yerdə heç nəyin görünmədiyi zamanda Allah-təala çox da böyük olmayan, ancaq qıvraq, sağlam, ağıllı bir quş yaratdı... Adını Humay qoydu. Allah-təala Humaya tapşırdı ki, gecə-gündüz ərzi su üzərində qanad çalıb dünyanı dolaşsın. Suyun harada azaldığını, harada artdığını, durulduğunu, harada bulandığını ayda bir dəfə ona xəbər versin... Allah Humaya üç ləl verib buyurdu ki, onları dilinin altında gizlədib hər gün birini dəryaya atsın... Humay buyrulan kimi etdi, Allahın yanına qayıtdı. Doqquz gün Allahın evində qonaq qalıb, onuncu gün ləlləri atdığı yerlərə qayıdanda suların düz ortasında, uca bir ağacın ucaldığı böyük bir torpaq gördü..."

Uca Yaradan Qurani-Kərimdə buyurur: "Hər canlı şeyi sudan yaratdıq" ("Ənbiya", 30). İslamda su sədəqəsi ən üstün sədəqə sayılır. Məkkə ərazisində yerləşən "Zəm-Zəm" bulağı islam inanclarına görə, Allahın izni ilə yaradılıb. Dünya Səhiyyə Təşkilatının raportuna görə, "Zəmzəm" suyu tərkibində heç bir mikroorqanizm və bakteriya olmayan ən sağlam sulardandır. "Zəmzəm" suyu susuzluğu aradan qaldırmaqla yanaşı, həm də şəfa mənbəyidir.

Türk xalqlarının mifoloji düşüncəsində su sakral hesab olunur və su kultu mühüm yer tutur. Su tanrıları Abanın və Nahidin adı ilə bağlı folklor mətnləri yaranmış və bu günə qədər qorunub saxlanmışdır:

*Aban abana gəldi,*
*Aban imana gəldi,*
*Abana yol verin,*
*Abana qol verin.*
*Al Aban haylı gəlib,*
*Al Aban paylı gəlib...*

Suyun müqəddəsliyini tərənnüm edən Novruzun başlıca rəmzlərindən olan Su çərşənbəsi şifahi yaddaşda zəngin etiqadlar, mərasimlər sistemində təzahür edilib. Su çərşənbəsi suya inam, suya tapınma ilə bağlıdır. İnsanlar hələ gün doğmamış su üstünə gedər, axar suda yuyunar və bununla da özlərini paklanmış hesab edərdilər. Su çərşənbəsində insanlar axar sudan gətirib evə, həyət-bacaya səpər, bununla da müşküllükdən, çətinlikdən, azar-bezardan azad olmalarına inam bəsləyərdilər. Suyun müqəddəsliyi folklor mənbələrində, o cümlədən "Kitabi-Dədə Qorqud"da Qazan xanın "Su həq didarın görmüşdür" ("Su Tanrının üzünü görmüşdür") müraciətində, "Koroğlu"da Qoşabulağın timsalında, Xızırın dirilik çeşməsində içdiyi suda əyan olmuşdur. Türk mifoloji qaynaqlarında "su əyəsi" obrazına rast gəlmək olar ki, o bütün əyə-sahiblərdən güclü hesab olunur. Hətta bəzi mifoloji təsəvvürlərə görə, "su əyəsi", yaxud "su yiyəsi" qadın obrazı kimi səciyyələndirilir. Digər mənbəyə görə, "suyun altında su əyəsinin öz səltənəti, öz sarayı var. Həmin su əyəsinin adı İlyasdır". Su üstünə gedərkən su əyəsinə salam vermək mütləqdir.

Türk xalqları bulaqları "qara su" yəni ilahi, müqəddəs hesab etmiş və bulağı yeraltı dünya ilə yerüstü işıqlı dünya, eləcə də olum və ölüm arasında bir yol bilmişlər. Ona görə də həmin suyu "dirilik suyu" adlandırmış və müxtəlif adlarla, "Həyat suyu", "Xızır suyu", "Zəmzəm suyu" kimi ifadə etmişlər.

Folklorumuzda dirilik suyu ilə bağlı yaranmış əfsanə və rəvayətlərin süjetlərinə görə, Xızır, yaxud Xıdır "dirilik suyu"nu tapıb içir, əbədi həyat-ölməzlik qazanır, ona görə də "Nəbi" peyğəmbərlik statusunu qazanır. Ezoterik görüşlərdə və xalq ənənəsində qarışıq yuxunu axar suya danışmaqla yuxunun mənfi təsirindən qurtulmaq mənası da var ki, bu, suyun həm aydınlığı, həm də arzuolunmaz enerjini yuyub aparması inamına söykənir.

Xalq arasında "Sular toyu" və ya "Axar sular Novruzu" kimi tanınan bu çərşənbə axşamında "Dan ulduzu" doğulan zaman yer üzündəki bütün axar sular bir an donub dayanır, hətta bu zaman suya heç nə batmır. Su çərşənbəsi axşamında Xızır ilə İlyasın görüşü baş tutur. Mifoloji təsəvvürlərə görə, Xızırla İlyas görüşərkən sular ətrafındakı bütün canlılar, o cümlədən bitkilər, ağaclar Xızırla İlyasa və yuxudan oyanmağa başlayan suya səcdə edir, sonra isə onlar əvvəlki vəziyyətlərinə qayıdırlar. Əcdadlarımız "kimə bu möcüzəli məqamı görmək nəsib olarsa, onun bütün arzuları həyata keçər" deyiblər. Bu görüşdən sonra təbiətdə bütün donmuş sular oyanır, təzələnir, paklanır və aşıbdaşmağa başlayır.

Su sağlamlıq rəmzidir. Su çərşənbəsində müəyyən ayinlər icra edilərdi ki, onların mahiyyəti və özəllikləri diqqəti cəlb edir. Məsələn, Su çərşənbəsində qızlar axar sudan "lal su" gətirər, suyu evə gətirərkən bir kimsə ilə danışmazdılar. Suyu bir neçə qaba qoyub saxlayar, axşam qızlar bir yerə yığışar, hərə öz üzüyünü suya salardı. İnama görə, üzük suda neçə dəfə cingildəsə, qız həmin yaşda gəlin köçəcək.

Su çərşənbəsində insanlar sübh tezdən axar suyun üstünə gedər, "ağırlığım suya, azar-bezarım suya" deyib su üstündə dərdlərini danışar və sanki öz çətinliklərini "təzə su" üstündə qoyub gedərdilər. Beləliklə, Su çərşənbəsi mərasimi icra olunardı. Astronomik məlumatlara görə, Su çərşənbəsi ərəfəsində Günəş zodiak qurşağında "Dolça" bürcündən "Balıqlar" bürcünə keçir və Müştəri - Yupiter planetinin himayəsinə daxil olur. Ona görə də çərşənbə süfrəsində ağzına qızıl keçirilmiş balığın və dolçada suyun olması vacibdir.

Şifahi xalq yaradıcılığında mifik təfəkkürü, milli həyatı, mənəvi əxlaqi dəyərləri tərənnüm edən və artıq qətiləşən bədii mətnlər toplusunda suya inam və tapınma ilə bağlı saysız nümunələrə rast gəlmək olar. Onlar ibrətamizlik rəmzi olan atalar sözü və məsəllərdə, bayatılarda, inanclarda, türkəçarələrdə, tapmacalarda və digər mətnlərdə bu günümüzlə səsləşməkdədir. Həmin nümunələrdən bir qisminə nəzər salaq:

*Su səni,*
*Su göyərtmiş süsəni,*
*Keçmə namərd körpüsündən,*
*Qoy aparsın su səni...*

❖ ❖ ❖

*Su axır samanlıqdan,*
*Yol keçir qaranlıqdan.*
*Çalış yaxşılıq elə,*
*Nə çıxar yamanlıqdan?...*

*Su olan yerdə dirilik olar.*
*Su axdığı yerdən bir də axar.*
*Sulu el - abadan, susuz el - viran olar.*
*Su axarında salınan el-oba barlı-bərəkətli olar.*
*Su dolu qabla qabağına çıxsalar işin avand olar.*
*Su kiçiyindir, yol böyüyün.*
*Lal axan sudan keçməzlər.*
*Səfərə çıxan adamın arxasınca su atarlar.*
*Yuxuda su görmək aydınlıqdır...*

Su çərşənbəsi suya inamın mifoloji-dini və tarixi köklərindən xəbər verdiyi üçün çağdaş dövrümüzdə də öz aktuallığını itirməmiş, milli-mənəvi dəyərlərin qorunması və təbliği baxımından əhəmiyyəti daha da artmışdır.

***Ülkər NƏBİYEVA,***
***Bakı Dövlət Universitetinin professoru,***
***filologiya elmləri doktoru***

# Prezident Kitabxanasında Xocalı soyqırımının 34-cü ildönümünə həsr olunmuş fotosərgi və konfrans keçirilib

**Prezident Kitabxanasında Xocalı faciəsinin 34-cü ildönümü münasibətilə "Xocalı: Səssizlərin səsi Reza Deqatinin obyektivində" adlı fotosərgi və konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Konfransda çıxış edən Prezident Kitabxanasının direktoru, professor Afət Abbasova Xocalı soyqırımının bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, bu faciə yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəri dəyərlərə qarşı yönəlmiş amansız bir soyqırımı aktıdır. O, həmçinin Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə bu qanlı hadisələrə ilk dəfə siyasi-hüquqi qiymət verildiyini və "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində aparılan işlərin bu gün də mühüm nəticələr verdiyini diqqətə çatdırıb.

Sonra Prezident Kitabxanası tərəfindən faciəni əks etdirən videoçarx nümayiş edilib.



Tədbirdə Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Xocalı şəhərində faciənin şahidlərindən olan Fəridə Cabbarova, şəhid ailəsinin üzvü, DİN polkovniki Almaz Həsənova, tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının dosenti Boran Əziz, filologiya üzrə fəlsəfə doktoru, dosent, yazıçı-publisist Şərəf Cəlilli çıxışlarında Xocalı soyqırımının tarixi kökləri, şahidlərin acı xatirələri, cinayətin hüquqi aspektləri və bu faciənin vizual şəkildə dünya ictimaiyyətinə çatdırılmasının əhəmiyyətindən bəhs ediblər. Natiqlər həmçinin xalqımızın qan yaddaşına həkk olunmuş bu dəhşətli hadisənin gənc nəsillərə ötürülməsində foto sənətinin müstəsna rolunu vurğulayıblar.

Tanınmış fotojurnalist Reza Deqati öz çıxışında nümayiş olunan fotoları bir-bir şərh edərək, hər bir kadrın Xocalı faciəsinin dünyaya çatdırılmasındakı müstəsna rolundan bəhs edib. Çıxış zamanı həmçinin həmin görüntülər əsasında hazırlanmış qısa videoçarx da nümayiş olunub.

Daha sonra çıxış edən professor Afət Abbasova bildirib ki, bu gün Azərbaycan xalqı Xocalı faciəsinin ildönümünü fərqli duyğularla yad edir. O vurğulayıb ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli iradəsi və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində torpaqlarımız işğaldan azad edilib, şəhidlərimizin qisası döyüş meydanında alınıb. Afət Abbasova qeyd edib ki, dövlət başçısının Xocalıda Azərbaycan bayrağını ucaltması həm tarixi ədalətin bərpası, həm də soyqırımı qurbanlarının ruhunun şad olması deməkdir.

Ardınca Prezident Kitabxanası tərəfindən hazırlanmış, rəşadətli ordumuzun qələbəsini və Xocalıya böyük qayıdışı tərənnüm edən videoçarx təqdim olunub.

# Ağdərə rayonuna daha 293 nəfər qayıdıb




**İşğaldan azad olunmuş ərazilərə "Böyük qayıdış" proqramı çərçivəsində fevralın 23-də Ağdərə rayonunun Aşağı Oratağ, Heyvalı, Çapar, Çıldıran kəndlərinə növbəti köç yola salınıb.**




Xankəndi şəhərində Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, dünən Ağdərə rayonunun dörd yaşayış məntəqəsinə, ümumilikdə 293 nəfərdən ibarət 63 ailə qayıdıb. Bu mərhələdə Çıldıran kəndinə 46 nəfər (10 ailə), Çapar kəndinə 22 nəfər (7 ailə), Aşağı Oratağ kəndinə 141 nəfər (29 ailə), Heyvalı kəndinə isə 84 nəfər (17 ailə) köçürülüb.

Ağdərədə mənzillərin açarlarının təqdimat mərasimində çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov bildirib ki, rayon ərazisində genişmiqyaslı bərpa və yenidənqurma işləri davam etdirilir. Fərdi yaşayış evləri əsaslı şəkildə bərpa olunur, yeni sosial obyektlər inşa edilir, təhsil və səhiyyə müəssisələri yenidən qurulur, kəndlərdə müasir kommunal infrastruktur yaradılır. S.Qəhrəmanov onu da vurğulayıb ki, sosial infrastrukturun tam yenilənməsi sakinlərin rahat, təhlükəsiz və layiqli yaşayışının təmin olunmasına xidmət edir. Eyni zamanda doğma torpaqlarına qayıdan vətəndaşların məşğulluq məsələləri də daim diqqət mərkəzində saxlanılır, ehtiyacı olan ailələrin dövlət və özəl sektor üzrə işlə təminatı istiqamətində müvafiq tədbirlər görülür.

Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Bildirilib ki, bu gün Ağdərədə başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 34 (10054) 21 fevral 2026-cı il ŞƏNBƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Dünya diplomatiyasında yeni səhifə - Sülh Şurası
Dövlətə sədaqət, insanlara sevgi, milli dəyərlərə hörmət
Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri başa çatıb
Azərbaycan səfirliyi Prezident İlham Əliyevin Vaşinqton səfəri zamanı baş verən insidentlə bağlı bəyanat yayıb
Ötən otuzillik dövr ərzində əməkdaşlığımız davamlı inkişaf etmişdir
Sabitliyin və sülhün təşviqi üçün beynəlxalq təşkilatlar çərçivəsində birlikdə işləməyə davam edəcəyik
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# İqlim dəyişikliyi sağlamlığa təhdiddir

**Dünyanın müxtəlif guşələrində temperaturun yüksəlməsi, daşqınlar, quraqlıqlar, meşə yanğınları və güclü fırtınalar planetimizin təbii tarazlığının pozulduğunu göstərir. Bu proseslərin böyük hissəsi antropogen təsirlərlə bağlıdır. Sənaye tullantıları, plastik çirklənmə, qeyri-sağlam urbanizasiya, sürətli əhali artımı və təbii resursların həddindən artıq istismarı havanın, suyun və torpağın çirklənməsinə səbəb olur. Nəticədə ekosistemlər zəifləyir, təbii tarazlıq pozulur və insan sağlamlığı ciddi təhlükə altına düşür.**



Məlumatlara görə, artıq 3,6 milyard insan iqlim dəyişikliklərinə yüksək həssas bölgələrdə yaşayır. 2030-2050-ci illər arasında iqlim dəyişikliyinin qidalanma çatışmazlığı, malyariya və ishal səbəbindən hər il təxminən 250 min əlavə ölümə səbəb olacağı gözlənilir. Sağlamlığa birbaşa zərərin iqtisadi dəyərinin isə 2030-cu ildə 2-4 milyard dollar arasında olacağı proqnozlaşdırılır.

İstilik dalğaları iqlim dəyişikliklərinin ən ölümcül nəticələrindən biridir. Dünya əhalisinin təxminən 30 faizi artıq ildə ən azı 20 gün həyati təhlükəli istilərə məruz qalır və bu göstəricinin əsrin sonuna qədər 50-75 faizə yüksələcəyi gözlənilir. Son illərdə istilik dalğalarının tezliyi və müddəti artdıqca ölüm halları da çoxalır. Yaşlılar, uşaqlar və xroniki xəstəliyi olan insanlar xüsusilə həssas qruplar hesab olunurlar.

2023-2025-ci illər tarixdə qeydə alınan ən isti dövr kimi yadda qalıb. 2025-ci ildə qlobal temperatur sənayeləşmədən əvvəlki dövrdən təxminən 1,47 dərəcə yüksək olub. Yer səthinin yarısı 32 dərəcədən yuxarı temperaturu olan istilik dalğaları ilə üzləşib. Hindistanda bəzi bölgələrdə temperatur 46 dərəcəni keçmiş, bu isə onlarla ölüm və minlərlə istiliklə bağlı xəstəlik halına səbəb olmuşdur.

Qeyri-sabit iqlim şəraiti ərzaq və su ehtiyatlarına təsir edir, yeni infeksion xəstəlik modelləri yaradır və mövcud xəstəliklərin yayılma coğrafiyasını dəyişdirir. Ekstremal meteoroloji hadisələr və ekosistem dəyişiklikləri qlobal istiləşmənin yaratdığı təhlükələrin yalnız bir hissəsidir. Bu proseslər artıq səhiyyə sistemləri üçün ciddi çağırışa çevrilib.Yüksək temperatur dalğaları, daşqınlar və digər təbii fəlakətlər zamanı xəstəliklərin yayılması sürətlənir. Malyariya kimi transmissiv xəstəliklərin yayılma modelləri dəyişir və əvvəllər təhlükəsiz sayılan bölgələrdə risk artır. Temperatur və yağıntı dəyişiklikləri xəstəlik daşıyıcı həşəratların yaşayış mühitini genişləndirərək infeksiyaların coğrafiyasını böyüdür.

İqlim dəyişikliyinin sağlamlığa təsiri həm birbaşa, həm də dolayı yollarla özünü göstərir. Birbaşa təsirlər istilik dalğaları, qasırğalar, daşqınlar və dəniz səviyyəsinin yüksəlməsi nəticəsində yaranan xəsarət və ölümlərlə bağlıdır. Dolayı təsirlər isə ətraf mühit dəyişiklikləri vasitəsilə baş verir. Hava çirklənməsi ürək-damar və tənəffüs xəstəliklərini ağırlaşdırır, su keyfiyyətinin pisləşməsi yoluxucu xəstəliklərin riskini artırır, iqlim dəyişiklikləri isə qida təhlükəsizliyini təhdid edir.

Quraqlıq və ekstremal hava hadisələri kənd təsərrüfatı məhsuldarlığını azaldır, ərzaq qiymətlərini artırır və qidalanma çatışmazlığı riskini yüksəldir. Xüsusilə uşaqlar və hamilə qadınlar mikroelement çatışmazlığına qarşı həssasdır. İqlim dəyişikliyi suyun keyfiyyətinə də təsir edir və su ilə ötürülən xəstəliklərin yayılmasını sürətləndirir.

Bu proseslərin psixoloji təsirləri də var. Ekstremal hava hadisələri, yaşayış mühitinin məhv edilməsi və məcburi miqrasiya stres, depressiya və travma sonrası stres pozğunluğuna səbəb olur. Ekoloji narahatlıq kimi tanınan yeni psixoloji fenomen insanlarda gələcək barədə xroniki qorxu yaradır.

Şəhərlərdə beton və asfaltın istiliyi saxlaması "istilik adası" effekti yaradır. Gün ərzində qızan səthlər gecə istilik buraxaraq insanların rahat yatmasına mane olur və bədənin bərpa qabiliyyətini zəiflədir. Bu səbəbdən urbanizasiya iqlim risklərini daha da artıran mühüm amilə çevrilir.

Dağlıq bölgələrdə iqlim dəyişiklikləri daha sürətlə baş verir.Tədqiqatlar göstərir ki, dağlıq ərazilərdə temperatur düzənliklərə nisbətən daha sürətlə artır. Qar örtüyünün azalması və buzlaqların əriməsi dünyada şirin su ehtiyatlarının sabitliyini təhlükə altına qoyur. Dünyada bir milyarddan çox insan içməli su mənbəyi kimi dağ buzlaqlarından asılıdır.

İqlim dəyişiklikləri allergiya xəstələri üçün də ciddi problemlər yaradır. Tədqiqatlar göstərir ki, son onilliklərdə tozcuq mövsümü uzanmış və havadakı polen konsentrasiyası artmışdır. Bu isə allergik reaksiyaların yayılmasını sürətləndirir.

İsti qışlar və uzun payızlar təhlükəli xəstəlik daşıyıcı həşəratların yaşayış mühitini genişləndirir. Qlobal istiləşmə nəticəsində yoluxucu xəstəliklərin təxminən 60 faizinin daha təhlükəli hala gəldiyi qeyd olunur.

Su ehtiyatlarının azalması da ciddi problemlər yaradır. Yer kürəsinin su ehtiyatlarının çox az hissəsi asan istifadə edilə biləndir və urbanizasiya, sənaye və kənd təsərrüfatının artan tələbatı bu balansı daha da pozur. Bəzi şəhərlərdə su qıtlığı yaxın onilliklərdə kritik həddə çata bilər.

İqlim dəyişikliklərinin sağlamlığa təsirlərini azaltmaq üçün kompleks tədbirlər tələb olunur. Epidemioloji nəzarət sistemlərinin gücləndirilməsi, səhiyyə infrastrukturunun inkişafı və səhiyyə işçilərinin yeni risklərə uyğun təlimi vacibdir. Erkən xəbərdarlıq sistemləri, ictimai maarifləndirmə və ekstremal hava şəraitinə uyğunlaşma tədbirləri risklərin azaldılmasında mühüm rol oynayır.

Beynəlxalq əməkdaşlıq və Paris Sazişi kimi qlobal razılaşmalar iqlim dəyişikliyi ilə mübarizədə əsas rol oynayır. İstixana qazı emissiyalarının azaldılması, bərpaolunan enerjiyə keçid və təbii resursların davamlı idarə olunması qlobal istiləşməni yavaşlada bilər.

Mütəxəssislər vurğulayırlar ki, iqlim artıq sağlamlığımız üçün yeni qaydalar müəyyən edir. Lakin bu, qaçılmaz son deyil. Riskləri anlamaq və uyğunlaşma strategiyalarını tətbiq etmək gələcək nəsillərin təhlükəsizliyi üçün əsas şərtdir. Şəhərlərdə yaşıl zonaların artırılması və ekoloji təmiz texnologiyaların tətbiqi bu istiqamətdə mühüm addımlardır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## BEYNƏLXALQ HƏYAT

# Verona amfiteatrında XXV Qış Olimpiya Oyunlarının bağlanış mərasimi keçirilib

**XXV Qış Olimpiya Oyunlarının yarışları əsasən Milanda və Kortina d'Ampetsoda keçirilsə də, bağlanış mərasimi üçün İtaliyanın Verona şəhərindəki antik tikili seçilib. "Gözəllik hərəkətdə" mövzusunda mərasim qədim "Arena di Verona" amfiteatrında keçirilib.**



Müxtəlif maraqlı çıxışlarla yaddaqalan tədbirdə müğənni Akille Lauro, aktrisa Benedetta Porkaroli və rəqqasə Roberto Bolle kimi italyan ulduzları iştirak ediblər.

Mərasim əsas mövzusu klassik italyan operası olan teatr tamaşası ilə başlayıb. Sonra idmançılar yarışda iştirak edən 92 ölkənin bayraqlarını daşıyaraq qədim arenaya daxil olublar. Olimpiya halqaları alovlandırıldıqdan sonra idmançıların paradı başlayıb.

Mərasim rəngarəng konsertlə başa çatıb. Olimpiya bayrağı 2030-cu il Olimpiadasına evsahibliyi edəcək növbəti ölkə Fransaya təhvil verilib. Olimpiya məşəli eyni vaxtda iki yerdə - Milandakı Sülh Tağı yaxınlığında və Kortina d'Ampetsodakı Ancelo Dibona meydanında söndürülüb.

Məlum olduğu kimi, XXV Qış Olimpiya Oyunları zamanı 116 medal uğrunda mübarizə aparılıb. Yekunda Norveç 41 mükafatla (18 qızıl) lider olub. ABŞ 33 medalla (12 qızıl) ilə ikinci, Niderland 20 medalla (10 qızıl) üçüncü yeri tutub.

Olimpiadada 92 milli komandadan 2900-dən çox idmançı iştirak edib. Tarixdə ilk dəfə olaraq Qış Olimpiadasına Benin, Qvineya-Bisau Respublikası və Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) idmançılar qatılıblar.

# Kim Çen In yenidən Koreya Fəhlə Partiyasının rəhbəri seçilib



Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədri Kim Çen In yenidən ölkənin hakim Koreya Fəhlə Partiyasının (KFP) baş katibi seçilib. Bu barədə Mərkəzi Teleqraf Agentliyi xəbər verir. Məlumata görə, qərar partiyanın IX qurultayında qəbul edilib.

KXDR lideri Fəhlə Partiyasının qurultayında sanksiyalardan zərər çəkmiş ölkənin iqtisadiyyatını yaxşılaşdıracağını və həyat səviyyəsini yüksəldəcəyini vəd edib.

Xatırladaq ki, Kim Çen In 2011-ci ildən bəri KXDR-ə rəhbərlik edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıda çiskin olacaq, dağlıq ərazilərdə qar yağacaq

**Azərbaycanda fevralın 24-nə gözlənilən hava proqnozu açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 3-5, gündüz 7-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-7, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacaq.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Siyəzən Rayon Prokurorluğunun böyük mütəxəssisi (dəftərxana müdiri)

**ELDƏNIZ QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3307
Sifariş 271

Qiyməti 60 qəpik